RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 258 (9713) 23 noyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# COP29 Azərbaycanın qlobal nüfuzunun göstəricisidir



## Bu, tədbirdə iştirak edən dünya liderlərinin ümumi fikridir

"Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük". Bu, Prezident İlham Əliyevin sözləridir. Dövlətimizin başçısı Liderlər Sammitinin açılış mərasimində çıxış edərkən həmçinin diqqətə çatdırmışdır ki, 196 ölkədən gəlmiş 72 min iştirakçı qeydiyyatdan keçib: "Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!"

İndi isə ali qonaqların fikir, rəy və ürək sözlərinə diqqət yetirək. BMT-nin Baş katibi Antonio Quterreş tədbirin tribunasından bütün dövlət nümayəndələrinə müraciət etdi: "Artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda, bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyirxah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır… COP29 yeni fərq yaratmalıdır və inkişaf edən ölkələr Bakını əliboş tərk etməməlidir". BMT-nin Baş katibi əmin olduğunu da bildirdi ki, buna birlikdə nail olunacaq.

Qardaş türk dövlətlərinin liderləri COP29-un yüksək səviyyədə təşkili və gedişindən məmnunluqlarını ifadə etdilər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına COP29-un uğurla keçirilməsi ilə bağlı təbriklərini çatdırdı və Azərbaycanın qısa müddət ərzində belə bir möhtəşəm tədbirə mükəmməl hazırlığını yüksək qiymətləndirildiyini bildirdi. Həmçinin vurğuladı ki, Prezident İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çox məzmunlu çıxış edib. Türkiyə Prezidenti tədbir çərçivəsində təşkil olunan mədəni təqdimatın da nəfis qaydada hazırlandığını diqqətə çatdırdı.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan, Qazaxıstan və Özbəkistanın dövlət başçılarının üçtərəfli görüşü zamanı dedi: "Əvvəlcə, Birləşmiş Millətlər Təşkilatının İqlim Sammitinin uğurla keçirilməsi münasibətilə hörmətli İlham Heydər oğlunu bir daha təbrik etmək istərdim. Biz hamımız gördük ki, bu, Azərbaycanın nüfuzunun tanınmasıdır. Regionumuzda ilk dəfədir ki, belə möhtəşəm tədbir keçirilir və bu, Azərbaycanın qlobal miqyasda ən yüksək nüfuzunun bariz göstəricisidir".

"Mən Azərbaycanı sülh naminə iqlim təşəbbüsünün bir hissəsi kimi qiymətləndirilən COP29-un prezidenti kimi görməkdən çox məmnunam". Bunu isə yaxın qonşumuz Gürcüstanın Baş naziri İrakli Kobaxidze deyib və COP29-u belə dəyərləndirib: "Bu tədbir əlamətdar hadisədir, çünki Cənubi Qafqaz regionu ölkəsi ilk dəfə olaraq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının İştirakçılarının Konfransına evsahibliyi edir. Azərbaycana bu istiqamətdə səmərəli və iddialı nəticələrin əldə edilməsində, danışıqlar prosesində əməkdaşlıq və konstruktiv dialoq ruhunun təşviqində uğurlar arzulamaq istərdim. Bu konfrans kritik bir vaxta təsadüf edir, çünki iqlim dəyişikliyi çağımızın ən aktual problemlərindən biri kimi ortaya çıxır və onun çoxşaxəli nəticələrini həll etmək üçün təcili qlobal fəaliyyət və əməkdaşlıq tələb edir".

→ 7

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı 12-ci Baş Assambleyasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi - Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) 12-ci Baş Assambleyasının iştirakçılarını səmimi-qəlbdən salamlayır, bu mühüm tədbirə evsahibliyi edən Kamboca Xalq Partiyasına təşəkkürümü bildirirəm.

Asiya və Okeaniyada 350-dən çox siyasi partiyanı əhatə edən ICAPP fəaliyyət göstərdiyi 24 il ərzində özünü yüksəksəviyyəli hökumət nümayəndələrinin, tanınmış ictimai-siyasi xadimlərin və təcrübəli ekspertlərin iştirakı ilə bəşəri əhəmiyyətli, qlobal xarakterli aktual məsələlərin müzakirə olunduğu, fikir və təcrübə mübadiləsinin aparıldığı nüfuzlu və perspektivli əməkdaşlıq platforması kimi təsdiqləmişdir. ICAPP müxtəlif siyasi partiyaları bir araya gətirməklə Asiya ölkələri və xalqları arasında qarşılıqlı anlaşma və etimad mühitinin yaradılmasına böyük töhfə verməkdədir.

ICAPP-ın 12-ci Baş Assambleyası bəşəriyyəti düşündürən olduqca önəmli bir məsələyə həsr olunmuşdur. "Sülh və barışıq axtarışı" mövzusu hazırkı reallıqlar, xüsusən də dünyada baş verən hərbi-siyasi kataklizmlər, silahlı münaqişələr və kəskin qarşıdurmalar fonunda xalqlar və dövlətlər qarşısında duran ən vacib məsələlərdən və strateji prioritetlərdən biridir.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə Cənubi Qafqazda dayanıqlı sülh, davamlı sabitlik və etibarlı təhlükəsizlik üçün əlverişli şərait, eyni zamanda daha geniş coğrafiyada yeni əməkdaşlıq əlaqələrinin qurulması üçün mühüm imkanlar yaratmışdır. Konstruktiv sülh gündəliyini təşviq edən Azərbaycan bu istiqamətdə əhəmiyyətli təklif və təşəbbüslər irəli sürür, daim prinsipial mövqedən çıxış edərək milli maraqlara uyğun və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan səmərəli fəaliyyət həyata keçirir.

Məlumdur ki, silahlı münaqişələr insan itkisinə, sosial infrastrukturun dağılmasına, bir çox hallarda iqtisadi tənəzzülə və ciddi təhlükəsizlik problemlərinə səbəb olmaqla yanaşı, ətraf mühitə də onilliklər boyu davam edən böyük zərər yetirir.

Bu gün ICAPP tədbirinin keçirildiyi bir vaxtda Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla evsahibliyi edir. Dünyanın bir çox ölkəsindən yüksəksəviyyəli dövlət və hökumət rəsmilərinin, vətəndaş cəmiyyəti və media nümayəndələrinin, nüfuzlu ekspertlərin iştirak etdiyi COP29 çərçivəsində aparılan müzakirələrdə ifadə olunan ümumi fikir və yekdil qənaətlərdən biri də ekosistemin mühafizəsinin əsas yollarından biri kimi müharibələrin qarşısının alınması və silahlı qarşıdurmaların ətraf mühitə zərər vuran nəticələrinin tezliklə aradan qaldırılması üçün sülh və barışıq tədbirlərinin gücləndirilməsindən ibarətdir.

Əminəm ki, 12-ci Baş Assambleya çərçivəsində keçiriləcək müzakirələr, eləcə də sonda qəbul ediləcək Pnompen Bəyannaməsi ortaq hədəflərimizi reallaşdırmağa mühüm töhfə verəcək və genişmiqyaslı səmərəli əməkdaşlığa yol açacaqdır.

Sizə ən xoş arzularımı çatdırır və 12-ci Baş Assambleyanın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2024-cü il*

# COP29 iqlim dəyişmələri ilə bağlı məsələlərin müzakirəsi baxımından önəmlidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri Miri Reqevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Miri Reqev İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrail Dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Bakıda keçirilən COP29-un əhəmiyyəti vurğulandı, iqlim dəyişmələri ilə bağlı məsələlərin müzakirəsi baxımından bu tədbirin önəmli olduğu qeyd edildi.

Miri Reqev COP29-un yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırdı.

Söhbət zamanı ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıldı.

# F.T.Əhmədova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Turab oğlu Əhmədova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2024-cü il*

# COP29 sədrliyi bəyanat yayıb

Azərbaycanın COP29 sədrliyi Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yekunlarına dair bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda COP29 sədrliyinin il ərzində inkişaf etməkdə olan Tərəf ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alaraq ədalətli və ambisiyalı yeni iqlim maliyyəsi məqsədini reallaşdırmağa çalışdığı vurğulanıb.

"Biz səhər erkən saatlarına qədər geniş və əhatəli məsləhətləşmələr apardıq. Biz bütün qruplara dünən səhər yaydığımız mətn paketi ilə bağlı münasibət bildirmək üçün şərait yaratdıq və onların konstruktiv iştirakına görə onlara minnətdarlığımızı bildiririk.

Məsləhətləşmələr zamanı səsləndirilən rəyləri və dünənki qurultayda Tərəflərin fikirlərini nəzərə alaraq, bu gün yenilənmiş mətnləri dərc etmişik.

Bu mətnlər COP29 üçün balanslaşdırılmış və sadələşdirilmiş paket təşkil edir. COP29 sədrliyi Tərəfləri bu mətni diqqətlə təhlil etməyə, qalan bir neçə variant üzərində konsensusa gəlməyə çağırır", - deyə bəyanatda qeyd olunub.

Həmçinin bildirilib ki, Tərəflərin göstəricilərinin ilk təzahürü olaraq Yeni Kollektiv Kəmiyyət Məqsədi ilə bağlı qərarda Tərəflərin hamısına 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən iqlimlə bağlı fəaliyyət üçün inkişaf etməkdə olan ölkələrə maliyyələşdirməni ildə ən azı 1,3 trilyon ABŞ dollarına çatdırmaq üçün birlikdə işləməyə dəvət yer alıb.

Bu qərar özündə eyni zamanda inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək 250 milyard ABŞ dollarına çatdırılması məqsədini ehtiva edir.

"Biz bir neçə həll olunmamış, lakin vacib məsələ ilə bağlı yekun düzəlişləri kollektiv şəkildə razılaşdırmaq üçün Tərəflərlə birgə işləməyə davam edəcəyik.

Biz mümkün daha yüksək ambisiyalı nəticəni əldə etmək üçün inklüziv və şəffaf şəkildə işləməyə davam edəcəyik", - deyə bəyanatda qeyd olunub.

COP29
Baku
Azerbaijan

## "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 5-ci bəndlərini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə aşağıdakı məzmunda 21-2-ci maddə əlavə edilsin:

**"Maddə 21-2. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Milli Məclis tərəfindən müəyyən olunan üzvlərinin seçilməsi**

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Milli Məclis tərəfindən müəyyən olunan üzvləri deputatlar, Azərbaycan Respublikası Hesablama Palatasının üzvləri və Azərbaycan Respublikasının Milli Məclisi Aparatının rəhbərliyi sırasından seçilir.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Milli Məclis tərəfindən müəyyən olunan üzvləri Milli Məclisin sədrinin təqdimatı əsasında Milli Məclisin azı 63 deputatının səs çoxluğu ilə seçilir.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının tərkibinə daxil edilməsi üçün irəli sürülən namizədlərin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir.".

**Maddə 2.** "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 9 (Cild I) 6.8-ci maddəsinə "keçirilməsi" sözündən sonra ", habelə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Konstitusiya Məhkəməsi tərəfindən müəyyən olunan üzvlərinin seçilməsi" sözləri əlavə edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 470 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında" Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü maddə ləğv edilsin;

3.2. aşağıdakı məzmunda 7.8-1-ci və 7.8-2-ci maddələr əlavə edilsin:

"7.8-1. dövlət orqanlarında və digər qurumlarda aparılan korrupsiya risklərinin qiymətləndirilməsini təhlil edir və nəticələrinə uyğun olaraq tövsiyələr verir;

7.8-2. korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər və korrupsiya risklərinin qiymətləndirməsinin nəticələri barədə ictimaiyyətə məlumat verir;";

3.3. 9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"9. Komissiya 15 üzvdən ibarətdir. Komissiyanın 5 üzvü müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən, 5 üzvü Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən, 5 üzvü isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən müəyyən edilir.";

3.4. aşağıdakı məzmunda 9-1  9-11-ci maddələr əlavə edilsin:

"9-1. Komissiya üzvlərinin səlahiyyət müddəti 5 ildir.

9-2. Komissiyanın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən üzvləri hüquq-mühafizə orqanlarının rəhbərləri və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vəzifəli şəxsləri sırasından təyin edilirlər.

9-3. Komissiyanın Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən olunan üzvləri deputatlar, Azərbaycan Respublikası Hesablama Palatasının üzvləri və Azərbaycan Respublikasının Milli Məclisi Aparatının rəhbərliyi sırasından seçilir.

9-4. Komissiyanın Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilən üzvləri məhkəmə, prokurorluq, ədliyyə orqanları və Vəkillər Kollegiyasının nümayəndələrindən ibarətdir.

9-5. Komissiyanın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini Komissiyanın sədri həyata keçirir. Komissiyanın sədri onun tərkibindən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə seçilir.

9-6. Komissiya üzvlərinin səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

9-6.1. öz arzusu ilə;

9-6.2. tutduğu vəzifədən azad edildikdə;

9-6.3. barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

9-6.4. Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya başqa dövlət qarşısında öhdəlik götürdükdə;

9-6.5. Komissiyanın nüfuzuna xələl gətirə biləcək hərəkətlərə yol verdikdə;

9-6.6. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edildikdə;

9-6.7. vəfat etdikdə, yaxud məhkəmə tərəfindən ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildikdə.

9-7. Komissiya üzvü Komissiyadakı vəzifələrinin icrası ilə maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda həmin maraqlar barəsində Komissiyanın sədrinə məlumat verməli və Komissiya üzvlərinin rəyi öyrənilməlidir. Komissiyanın üzvü Komissiya sədrinin və Komissiyanın digər üzvlərinin rəyinə uyğun olaraq, onun marağının yarandığı məsələ ilə bağlı çıxış etməməli və səsvermədə iştirak etməməlidir.

9-8. Komissiya ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

9-9. Komissiya korrupsiyaya qarşı mübarizə sahəsində hüquqi bazanın təkmilləşdirilməsi üzrə işin təşkili və birgə tədbirlərin həyata keçirilməsi, sahə üzrə tədqiqat, təhlil materiallarının hazırlanması, dövlət proqramlarının monitorinqi və qiymətləndirilməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində müvafiq tədbirlərin yerinə yetirilməsi, habelə maarifləndirmənin həyata keçirilməsi üçün dövlət orqanlarının (qurumlarının) müvafiq sahə üzrə nümayəndələrindən ibarət işçi qruplar yarada bilər.

9-10. İşçi qrupların tərkibinə müvafiq sahələr üzrə qeyri-hökumət təşkilatları, media subyektləri və özəl sektorun nümayəndələri, müstəqil ekspertlər daxil edilə bilər.

9-11. İşçi qrupların hazırladığı sənədlər Komissiyanın iclaslarında müzakirəyə çıxarıla və müvafiq qərarlar qəbul edilə bilər.";

3.5. 10-cu maddənin ikinci cümləsində ", lakin üç ayda bir dəfədən az olmayaraq" sözləri "bu Əsasnamənin 13-cü maddəsində nəzərdə tutulmuş Reqlamentlə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

**Maddə 4. Keçid müddəa**

Bu Qanun qüvvəyə minənədək təyin edilmiş Komissiya üzvlərinin Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"nin 9-1-ci maddəsi ilə müəyyən edilən səlahiyyət müddəti bu Qanun qüvvəyə mindiyi gündən hesablanır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 488 QƏRAR Bakı şəhəri, 21 noyabr 2024-cü il

### "Poçt rabitəsinin milli operatorunun qəbul etdiyi poçt əmanətlərinin və poçt hesablarının qalıq vəsaitlərinin idarə edilməsi üzrə İnvestisiya Strategiyası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Poçt rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 2 oktyabr tarixli 696-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 17 nömrəli Fərmanının 3.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Poçt rabitəsinin milli operatorunun qəbul etdiyi poçt əmanətlərinin və poçt hesablarının qalıq vəsaitlərinin idarə edilməsi üzrə İnvestisiya Strategiyası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 489 QƏRAR Bakı şəhəri, 21 noyabr 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 790 (Cild I) ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.5-ci bənddə "3 (üç)" sözləri "1 (bir)" sözləriilə əvəz edilsin.

2. 3.1-ci bənddə "may" sözü "avqust" sözü ilə əvəz edilsin.

3. 4-cü hissə üzrə:

3.1. 4.1-4.5-ci bəndlərdə "avqust ayının 1-dək" sözləri "sentyabr ayının 15-dək" sözləri ilə əvəz edilsin;

3.2. 4.1.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1.5-ci yarımbənd əlavə edilsin:

"4.1.5. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi üzərindən əcnəbilərin iş icazəsi əsasında qüvvədə olan əmək müqavilələri üzrə təhlillər (iqtisadi fəaliyyət növləri, əməkhaqqı qrupları, peşə və vəzifələr və s. üzrə).";

3.3. 4.3-cü bəndə "üçün" sözündən sonra "tam orta təhsil bazası üzrə ümumi təhsil müəssisələrində," sözləri əlavə edilsin;

3.4. 4.4.5-ci yarımbəndə "məlumatı" sözündən sonra "(iş icazələri qüvvədə olan əcnəbilərin adlı siyahısı göstərilməklə)" sözləri əlavə edilsin;

3.5. 4.6-cı bənddə "avqust" sözü "oktyabr" sözü ilə əvəz edilsin.

4. 5.2-ci bənddə "sentyabr ayının 15-dək" sözləri "noyabr ayının 10-dək" sözləri ilə əvəzedilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 7.7-1-ci və 10.4-3-cü bəndlər əlavə edilsin:

"7.7-1. Yüksəkixtisaslı miqrantlar;";

"10.4-3. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı müraciətlərinə baxılmasına dair müvafiq məlumatların toplanılması, rəylərin alınması, nəticənin təqdim olunması və bu barədə məlumatların Sistemə daxil edilməsi;";

1.2. 11.2.0-cı yarımbəndə "icazə" sözündən sonra ", şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi" sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 11.4.5-ci, 11.5.8-ci və 11.6.4-cü yarımbəndlər əlavə edilsin:

"11.4.5. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar;";

"11.5.8. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar;";

"11.6.4. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar;";

1.4. 11.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 11.10-cu bənd əlavə edilsin:

"11.10. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsində iştirak edən digər dövlət orqanları (qurumları) tərəfindən:

11.10.1. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi ilə bağlı verilmiş rəylər və əldə edilmiş məlumatlar.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2024-cü il*

## "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 53-VIIQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 53-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında" Əsasnamənin 9-cu və 9-2-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 9-cu və 9-2-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Əsasnamənin 9-2-ci (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 53-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 487 QƏRAR Bakı şəhəri, 21 noyabr 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" 2014-cü il 1 may tarixli 118 nömrəli və "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 14 mart tarixli 125 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun tətbiqi və "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 80 nömrəli Fərmanının 2-ci hissəsinin və "Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87, № 4, maddə 470) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"na  aşağıdakı məzmunda 9.4-cü və 9.5-ci bəndlər əlavə edilsin:

| | |
|---|---|
| 9.4. | Dərman vasitələrinin dövlət reyestri |
| 9.5. | Dərman vasitələrinin təqib və izləmə sistemi |

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 791 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3-cü hissəsində  aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.9-cu yarımbənddə "dezinfeksiya vasitələrini, immunobioloji preparatları istifadə təlimatlarına və farmakopeya məqalələrinə," sözləri "tibb vasitələrini, dərman maddələrini, immunobioloji preparatları və tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələrini istifadə təlimatlarına, farmakopeya məqalələrinə və klinik protokola" sözləri ilə əvəz edilsin;

2.2. 3.1.9-1-ci yarımbəndə "dərman vasitəsinin" sözlərindən sonra "və dərman maddəsinin" sözləri əlavə edilsin və həmin yarımbənddə "dərman vasitələrinin" sözləri "onların" sözü ilə əvəz edilsin;

2.3. 3.1.9-2-ci yarımbəndə (birinci halda) "dərman vasitələrinin" sözlərindən sonra "və dərman maddələrinin" sözləri əlavə edilsin və həmin yarımbənddə (ikinci halda) "dərman vasitələrinin" sözləri "onların" sözü ilə əvəz edilsin;

2.4. 3.1.11-ci yarımbənddə "dezinfeksiya vasitələrinin," sözləri "tibb vasitələrinin, dərman maddələrinin və" sözləri ilə əvəz edilsin;

2.5. 3.2.1-ci yarımbəndə "dərman vasitələrindən" sözlərindən sonra "və dərman maddələrindən" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

COP29 Baku Azerbaijan

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 57-ci plenar iclasında çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 22-də Sankt-Peterburq şəhərində MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 57-ci plenar iclasında çıxış edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, spiker Sahibə Qafarova Parlamentlərarası Assambleya çərçivəsində əməkdaşlığın Birlik ölkələri üçün səmərəli tərəfdaşlıq mexanizminə çevrildiyini, bunun da müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin inkişafına böyük töhfə verdiyini diqqətə çatdırıb.

MDB PA-çərçivəsində keçirdiyi görüşlərdə və çıxışlarında Prezident İlham Əliyevin xüsusi diqqəti və dəstəyi ilə Bakıda keçirilən COP29 haqqında geniş məlumat verən Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası Assambleyanın plenar iclasında bir daha bu mövzuya toxunub. O xatırladıb ki, 196 ölkədən 70 mindən çox qonağın, o cümlədən 80-dən çox prezident, vitse-prezident və digər şəxslərin iştirakı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyası başa çatmaq üzrədir. Yekdilliklə ev sahibi ölkə kimi seçilən Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə ümumi yanaşmalara nail olmaq üçün bütün səylərini göstərib. COP29 çərçivəsində əldə olunan uğurlar beynəlxalq ictimaiyyətin bu məsələdə həmrəy və ardıcıl olacağına ümid yaradır.

Parlamentlərin də bu prosesə öz töhfələrini verdiyini söyləyən Sahibə Qafarova COP29 çərçivəsində Parlamentlərarası İttifaqın və Milli Məclisin birgə təşkilatçılığı ilə parlamentlərin və digər beynəlxalq strukturların 90-dan çox nümayəndə heyətinin iştirakı ilə parlament iclasının keçirildiyini xatırladıb. Milli Məclisin Sədri məlumat verib ki, iki gün davam edən görüş və yekun sənəd iqlim dəyişikliyi ilə mübarizədə bizim ümumi mövqelərimizin ifadəsi idi.

MDB Parlamentlərarası Assambleyasının öz fəaliyyətinin beynəlxalq istiqamətini fəal şəkildə inkişaf etdirdiyini söyləyən Milli Məclisin Sədri əlavə edib ki, bu fəaliyyətin praktiki həyata keçirilməsi formalarından biri də 2024-cü ilin iyulunda Sankt-Peterburq şəhərində BRICS ölkələrinin Parlament Forumunun plenar sessiyasının keçirilməsi olub.

Çıxışında Sahibə Qafarova həmçinin vurğulayıb ki, Parlamentlərarası Assambleyanın əsas fəaliyyət istiqamətlərindən biri MDB üzvü olan dövlətlərdə keçirilən seçkilərlə bağlı monitorinq fəaliyyətinin həyata keçirilməsidir. O, 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin monitorinqi zamanı görülmüş işlərə görə assambleyanın müşahidəçilər qrupuna minnətdarlığını ifadə edib.

Çıxışda MDB PA-ya üzv dövlətlərin Demokratiyanın, parlamentarizmin və vətəndaşların seçki hüquqlarına əməl olunmasının inkişafının monitorinqi üzrə Beynəlxalq İnstitutun, o cümlədən onun 2007-ci ildən fəaliyyət göstərən Bakı filialının fəaliyyəti və töhfələri də diqqətə çatdırılıb.

***"Azərbaycan"***

# Sumqayıt müasir Azərbaycanın inkişaf nümunəsidir

**Sumqayıtın şəhər statusu almasının 75 ili tamam oldu. Bununla bağlı Sumqayıt şəhər İcra Hakimiyyəti tərəfindən geniş tədbirlər planı hazırlanıb və yubiley çərçivəsində şəhərdə bir sıra tədbirlər həyata keçirilir.**

## Ulu Öndər Heydər Əliyevin inkişaf yoluna çıxardığı şəhər

Sumqayıt gündən-günə inkişaf edir və gözəlləşir. Azərbaycanın böyük şəhərləri sırasında öyünməyə haqqı var. Gecələri nağıl şəhəri xatırladır. Möhtəşəm gecə görüntüləri işıqlı şəhəri daha da parlaq edir.

Şəhərin əsas küçə və prospektləri, parklar, mərkəzi meydanlar və digər ictimai məkanlar müasir işıqlandırma sistemləri ilə təchiz olunub, dekorativ elementlərlə bəzədilib. Rahat yaşamaq üçün bütün infrastruktura malik olan Sumqayıtın inkişafı, genişlənməsi, sıxlıqdan əziyyət çəkən paytaxt Bakının da yükünü azaldır. Bu gün Sumqayıta əhali axını artan templə davam edir. 2003-cü ildə 327 min nəfərin yaşadığı Sumqayıtın indi 427 min nəfərdən artıq əhalisi var. Bu artımın özü şəhərin iqtisadi və sosial inkişafının sübutudur.

1949-cu il noyabrın 22-də şəhər statusu alan Sumqayıt qısa dövr ərzində sürətlə inkişaf edərək, Azərbaycanın ən müasir və ən gözəl şəhərlərindən biri oldu, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzinə çevrildi. İri müəssisələrin, infrastrukturun yaradılması şəhərin mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrinin inkişafına güclü təkan verdi. Sumqayıt təkcə Azərbaycanın deyil, SSRİ-nin iqtisadiyyatında böyük paya sahib idi. Müstəqillik illərində Azərbaycanın iqtisadi qüdrətinin daha da artırılmasında, ölkənin mədəni və intellektual potensialının gücləndirilməsində Sumqayıtın verdiyi töhfələr ölçüyəgəlməzdir.

Cənubi Qafqazın sənaye mərkəzi olan Sumqayıtın tarixi böyük deyil. XX əsrin 30-cu illərindən başlayaraq Sumqayıt ərazisində Sintetik Kauçuk, Boruyayma və Kimya zavodlarının bünövrəsi qoyuldu. 1945-ci ildə Kimya zavodu, 1952-ci ildə isə Boruyayma zavodu ilk məhsullarını istehsal etdi. 1955-ci ildə Alüminium zavodu işə düşdü. 1960-cı illərdə Polimer Tikinti Materialları Kombinatı, Superfosfat zavodu istehsala başladı.

Sumqayıt şəhərinin inkişafında qeydə alınan sürətli sıçrayış ötən əsrin 70-ci illərinə təsadüf edir. Ulu Öndər Heydər Əliyev epoxası kimi qəbul edilən 1969-cu ildən sonrakı dövrdə Azərbaycanda bütün sahələrdə oyanış, tərəqqi müşahidə edildi. Heydər Əliyev sovet dövründə Azərbaycanı aqrar ölkədən sənaye respublikası səviyyəsinə yüksəltdi. 1969-cu ildən Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev Sumqayıtda sənaye müəssisələrinin genişlənməsinə, sayının artırılmasına, istehsal gücünün çoxaldılmasına hər zaman diqqət yetirdi. Sumqayıtın potensialını olduqca böyük qiymətləndirən Ulu Öndər Azərbaycanın sənaye respublikasına çevrilməsi üçün əlindən gələni etdi. Əhalinin məişət kimyası mallarına olan tələbatını maksimum ödəmək məqsədilə 1970-ci illərdə Sumqayıt Məişət Kimyası Zavodu yaradıldı. Yüksək texnologiya əsasında hazırlanan dənəvər superfosfat gübrəsi istehsalı üçün Superfosfat zavodu inşa edildi. 1970-73-cü illərdə "Üzvi sintez" zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexləri fəaliyyətə başladı. 1974-cü ildə Sintetik Kauçuk zavodunda yüksək markalı kauçuk istehsal edən sex yenidən quruldu. Kompressorlar zavodu, Üst trikotaj və Xovlu İplik fabrikləri, Süd və Yeyinti məhsulları kombinatları məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə yaradıldı.

Ulu Öndər 1974-cü ildə Sumqayıtın 25 illiyində şəhərə gələrək ictimaiyyət nümayəndələri ilə görüşdü, yubiley tədbirində çıxış etdi. Ulu Öndər Heydər Əliyev kimyaçıların əməyinə böyük qiymət verirdi.



Sumqayıtda Almaniya və Çexoslovakiya istehsalı olan EP-300 qurğusunun inşası Heydər Əliyevin adı ilə bağlıdır. Şəhərdə istehsal edilən məhsullar keçmiş ittifaqın 700 şəhərinə ixrac olunurdu. 1970-ci illərdə istehsalat müəssisələri ilə yanaşı, Sumqayıtda çoxlu sayda yaşayış binaları, qonaq evləri tikildi. Sumqayıtda hər il 80 min kv.m. mənzil sahəsi tikilib istifadəyə verilirdi. 40-dan artıq ümumtəhsil məktəbi, uşaq tərbiyə müəssisələri, saysız-hesabsız mədəniyyət, məişət xidməti, ticarət obyektləri, səhiyyə ocaqları məhz Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi altında tikilmişdi. O dövrdə Sumqayıt həm iqtisadi inkişaf proseslərində, həm də siyasi oyanışda lokomotiv rolunu oynayırdı.

Ulu Öndərin dövlətçilik ideyalarına sadiq olan sumqayıtlılar Azərbaycanın müasir inkişaf tarixində dərin izlər qoyublar.

Müstəqilliyimizin ilk illərində ölkəmizin bütün şəhər və rayonlarında olduğu kimi, Sumqayıtda da işsizlik, bütün sahələrdə tənəzzül baş verdi. Ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi ucbatından Sumqayıtdakı sənaye müəssisələrinin əksəriyyətinin fəaliyyəti dayandı. Yalnız Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Sumqayıtın sənaye müəssisələrinin bərpası istiqamətində addımlar atıldı.

Heydər Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti seçildikdən sonra ölkədaxili ilk səfərini məhz Sumqayıta etmişdi. 1993-cü il dekabrın 18-də reallaşan həmin səfər zamanı Ulu Öndər şəhərimizdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etdi, Tarix muzeyində oldu, Şəhidlər Xiyabanı Kompleksinə baş çəkdi, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini verdi.

## Cənubi Qafqazın sənaye mərkəzi

Bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Qarabağda əldə etdiyimiz tarixi Zəfər bizə imkan verir ki, bütün sahələrdə dinamik inkişafa nail olaq, iqtisadiyyatımızı daha da yüksəldək.

Sumqayıtın inkişafına xüsusi həssaslıqla yanaşan cənab Prezident şəhərdə fəaliyyət göstərən sənaye müəssisələrinin fəaliyyətilə daim yaxından maraqlanır, Sumqayıtda sənayenin inkişafı ilə bağlı qərarlar verir. Sumqayıtda fəaliyyət göstərən kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri hazırda var gücləri ilə fəaliyyət göstərirlər. "Azgüntex" zavodu, "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisəsi, "Texnoil" MMC mühərrik yağları istehsalı müəssisələri, Kimya Sənaye Parkındakı İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Əlvan Metallar və Ferroərintilər zavodu, pestisid və aqrokimyəvi məhsulları, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodlar, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları Azərbaycan iqtisadiyyatında böyük paya sahibdirlər. Sumqayıtdakı "SOCAR Karbamid" və "SOCAR Polymer" zavodları respublikamızın ixrac potensialını artırır.

Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə Cənubi Qafqazda ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkı yaradılıb. 583,5 hektar ərazidə yerləşən parkda 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 3,4 milyard ABŞ dollarından çox investisiya yatırılıb. Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixrac olunub. 9 min nəfərə yaxın vətəndaşın daimi işlə təmin olunduğu parkda istehsal olunan məhsullar 60-a yaxın ölkəyə ixrac olunur.

2024-cü ilin ilk doqquz ayında Sumqayıt şəhərində iqtisadiyyatın müxtəlif sahələrində nəzərəçarpacaq inkişaf müşahidə olunub. Bu dövr ərzində ümumi məhsul və xidmətlərin həcmi 3 milyard 547 milyon 371,8 min manata çatıb ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 6,8 faiz artım deməkdir. İqtisadiyyatda istehsal sektorunun ümumi məhsul buraxılışında xüsusi çəkisi 84,8 faiz, xidmət sektorunun payı isə 15,2 faiz təşkil edib.

Sənaye sahəsindəki göstəricilərdə də artım müşahidə olunur. Faktiki qiymətlərlə sənaye məhsulu və xidmətlərin ümumi dəyəri 2 milyard 849 milyon 209 min manat olub və sabit qiymətlərlə 106,8 faiz səviyyəsində artım qeydə alınıb. Bu nəticələr Sumqayıtın sənaye potensialının gücləndiyini və iqtisadiyyatında yeni dəyərlərin yarandığını göstərir.

## Sumqayıt ekoloji baxımdan ən təmiz şəhərlərdən biridir

Sumqayıtın ekologiyası daim insanları narahat edib. Sənaye müəssisələri ilə zəngin olan bir şəhərin ekoloji problemlərinin olması və bunun narahatlıq yaratmasından təbii heç nə ola bilməz. Amma aparılan məqsədyönlü fəaliyyət nəticəsində bu gün Sumqayıt şəhərinin ekologiyası arzuolunan səviyyəyə çatıb.

Mübaliğəsiz demək olar ki, bu gün Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərlərindən biridir. Yeni sənaye müəssisələrinin müasir texnologiyalar əsasında fəaliyyət göstərməsi, ekoloji nəzarətin gücləndirilməsi öz nəticəsini verib. Cənab Prezident İlham Əliyev 2020-ci il aprel ayının 24-də Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışında çıxış edərək bildirdi ki, Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir: "Eyni zamanda son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək ilk növbədə insanların sağlamlığını nəzərə almışıq".

Cənab Prezident İlham Əliyevin göstərişi ilə 2016-cı ildə şəhərdə 5,2 km uzunluğunda 146 ha sahəsi olan bulvarın salınması ilə Ulu Öndər Heydər Əliyevin arzusu gerçəkləşdi.

2016-cı il sentyabrın 27-də Sumqayıtda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı Prezident İlham Əliyev yeni yaradılmış bulvar barədə demişdi: "Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir. Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar, hətta bir neçə il bundan əvvəl mənim üçün təqdimat da keçirilmişdi. Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq".

Sumqayıtda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı şəhid olmuş qəhrəman övladlarımızın xatirəsinə hər zaman böyük ehtiram və qayğı göstərilib. 1992-ci ildə salınan Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunub, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılıb. Yenidən qurulan Şəhidlər xiyabanında "Qalib Əsgər" abidəsi ucaldılıb, "Zəfər tağı" abidəsi yaradılıb. Yüzlərlə şəhid verən Sumqayıt həm də qəhrəmanlar şəhəridir. Sumqayıt şəhid və qazi ailələrinin sosial təminatında da fərqlənir.

Sumqayıtda hələ sovet dövründə təhsilə xüsusi önəm verilib. Hazırda Sumqayıtdakı orta məktəbləri bitirən şagirdlər qəbul imtahanlarında ən yüksək nəticələr göstərirlər.

Son illər Sumqayıtda Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə yeni müasir tipli məktəblər inşa olunub. Təsadüfi deyil ki, Sumqayıtı ziyalılar şəhəri də adlandırırlar. Şəhərdə 1 universitet, 3 kollec, 4 peşə məktəbi fəaliyyət göstərir.

Sumqayıt şəhərinin və 2 qəsəbənin içməli su ilə təminatı Şollar-Bakı Su Təchizatı və Ceyranbatan Sutəmizləyici Qurğuları hesabına həyata keçirilir. Ümumilikdə 100 kilometrdən çox içməli su və kanalizasiya xətləri çəkilmiş, Xəzər dənizinə axıdılan tullantı suların qarşısını almaq məqsədilə 15,2 kilometr uzunluğunda Novxanı-Sumqayıt kanalizasiya kollektoru inşa edilmiş, Xəzər dənizinə birbaşa çıxışı olan kanalizasiya xətləri bu kollektora birləşdirilmiş, 2 ədəd kanalizasiya nasos stansiyası tikilib istifadəyə verilmişdir. "Acı dərə" kanalının şəhər ərazisindən keçən 7,3 kilometr hissəsi qapalı sistemə keçirilmiş, kanal boyu bataqlıqlar təmizlənmişdir. Hazırda "Acı dərə" kanalının 3 mərhələ üzrə tam yenidən qurulması ilə əlaqədar layihə-smeta sənədlərinin hazırlanması davam etdirilir.

Sumqayıt gündən-günə böyüyür, bunun nəticəsində yeni yaşayış massivləri yaranır. Bu yaşayış massivlərinin şəhər qəsəbələri tipində müasir tələblərə uyğun yenidən qurulacağına inanırıq. Çünki Sumqayıt qurub-yaradan şəhərdir.

***Mehriban VƏLİYEVA,***
***Milli Məclisin deputatı***

COP29
Baku
Azerbaijan

# YAP Sədrinin müavini ICAPP-ın 12-ci Baş Assambleyasında iştirak edib

**Noyabrın 22-də Kamboca Xalq Partiyasının (KXP) evsahibliyi ilə ölkənin Pnompen şəhərində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyasının açılış mərasimi olub. "Sülh və barışıq axtarışı" mövzusunda keçirilən və 28 ölkədən 49 siyasi partiyanın qatıldığı 12-ci Baş Assambleyada Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da iştirak edib.**




Əvvəlcə Kamboca Xalq Partiyasının Prezidenti, ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen ilə nəzakət görüşü keçirilib.

ICAPP Daimi Komitəsi sədrinin müavini, KXP Xarici əlaqələr komissiyası sədrinin birinci müavini və Kamboca Krallığı Milli Assambleyasının Xarici işlər, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri Suos Yara, ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Euyonq, ICAPP-ın baş katibi Kvon Heseoq, ICAPP Daimi Komitəsinin həmsədri Müşahid Hüseyn Səid, Kamboca Krallığının baş naziri, Kamboca Xalq Partiyasının vitse-prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının prezidenti Hun Manet açılış nitqləri ilə çıxış ediblər. Çıxışlarda dünyada artan münaqişələrə, iqlim dəyişikliklərinə, sosial-iqtisadi ədalətsizliklərə və geosiyasi təhdidlərə qarşı mübarizədə siyasi partiyaların rolu və əməkdaşlığının əhəmiyyətindən bəhs olunub.

Ev sahibinin xüsusi qonaqlarının təbrik çıxışlarından öncə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciəti oxuyub.

Bundan sonra xüsusi qonaqlar qismində Laos Xalq Demokratik Respublikasının vitse-prezidenti xanım Pani Yatotou, Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının prezidenti cənab Tran Tan Man, Mərkəzçi Demokratlar İnternasionalı (CDI) prezidenti, Kolumbiyanın sabiq prezidenti cənab Andres Pastrana Aranqo, Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyası Sədrinin müavini cənab Zəfər Sırakaya çıxış ediblər. Açılış mərasimi Kamboca Xalq Partiyasının sədri, Baş Assambleyanın fəxri prezidenti cənab Hun Senin xüsusi müraciəti ilə yekunlaşıb.

Daha sonra birinci plenar sessiyada çıxış edən Tahir Budaqov Yeni Azərbaycan Partiyası adından tədbir iştirakçılarını salamlayıb, Kamboca Xalq Partiyasının evsahibliyi ilə keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının 12-ci Baş Assambleyasının işinə uğurlar arzulayıb. YAP Sədrinin müavini qeyd edib ki, "Sülh və barışıq axtarışı" mövzusunda təşkil olunan plenar sessiya nəinki burada təmsil olunan üzv ölkələr, eləcə də bəşəriyyət üçün olduqca aktual və taleyüklü bir məsələyə həsr olunmuşdur: "Müasir dövrdə dünyada olduqca mürəkkəb proseslər və sürətli dəyişikliklər baş verir. Böhran və qarşıdurmalarla müşayiət olunan siyasi kataklizmlər bir çox ölkələri əhatə etməkdədir. Yeni çağırışlarla qarşı-qarşıya olduğumuz belə bir mürəkkəb şəraitdə sülh və barışıq axtarışı mütləq zərurətə çevrilmişdir. Daim sülh, sabitlik və qarşılıqlı anlaşma tərəfdarı olan, ölkələrin milli maraqlarına hörmətlə yanaşmaq prinsipini dəstəkləyən Azərbaycan öz daxili və xarici siyasətində bu dəyərlərə sadiqliyini nümayiş etdirir".

Tahir Budaqov vurğulayıb ki, bu gün Azərbaycanda müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Onun sözlərinə görə, tolerantlıq ənənəsini və multikultural dəyərləri qoruyub yaşadan Azərbaycan zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir: "Azərbaycan Avrasiyanın mühüm geostrateji bölgəsindən olan Cənubi Qafqazın lider ölkəsi kimi regional sabitlik və əməkdaşlığa da olduqca mühüm töhfələr verir. 2020-ci ildə İkinci Qarabağ müharibəsi və 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində işğal faktına son qoyaraq öz ərazi bütövlüyü və suverenliyini təmin edən Azərbaycan bölgədə sülh və etimad quruculuğunu daim diqqət mərkəzində saxlayaraq yeni işbirliyi platforması və etibarlı təhlükəsizlik mühitinin təşəkkülü üçün önəmli təşəbbüslərlə çıxış edir".

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Azərbaycanın yaratdığı reallıqlar əsasında Cənubi Qafqazda sülh gündəliyi müəyyənləşib: "Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması, o cümlədən sərhədlərin delimitasiyası və demarkasiyası, kommunikasiyaların bərpası bu gündəliyin mühüm tərkib hissəsi kimi beynəlxalq ictimaiyyətin diqqətindədir. Azərbaycan sülhyaratma prosesi çərçivəsində siyasi iradə nümayiş etdirərək hüquq normalarına əsaslanan beş baza prinsipi əsasında müvafiq təkliflərini verib və Ermənistandan da eyni konstruktiv yanaşmanı gözləyir".

Sülh və barışığın Avropa ilə Asiyanın qovşağında - Cənubi Qafqazda yeni nizam və geosiyasi konfiqurasiyanın formalaşması baxımından olduqca əhəmiyyətli olduğunu bildirən Tahir Budaqov bunun həm bölgə xalqları və dövlətləri, həm də yeni reallıqlar fonunda tərəfdaşlıqda maraqlı olan ölkələr üçün tarixi şans və strateji fürsət olmaqla bərabər, rifah, inkişaf və parlaq perspektivlər vəd etdiyini diqqətə çatdırıb. YAP Sədrinin müavini qeyd edib ki, sülh və barışıq üçün birgə müzakirələrə və dialoqa ehtiyac duyulduğu indiki şəraitdə siyasi partiyaların da üzərinə böyük məsuliyyət və önəmli vəzifələr düşür.

"Asiyanın 350-dən artıq siyasi partiyasını öz sıralarında birləşdirən ICAPP bu kontekstdə faydalı fikir və təcrübə mübadiləsi üçün olduqca əhəmiyyətli platformadır. Nəzərə çatdırmaq istəyirəm ki, hazırda 700 mindən artıq üzvü olan hakim Yeni Azərbaycan Partiyası partiyalararası əlaqələrin inkişafını daim diqqət mərkəzində saxlamaqla dost ölkələrin siyasi partiyaları ilə işbirliyinin genişləndirilməsi, o cümlədən sülh və barışığa xidmət edən ideyaların təşviqi üçün məqsədyönlü fəaliyyət göstərir. Ümidvaram ki, bu mötəbər tədbir çərçivəsində aparılan müzakirələr, səsləndirilən ideyalar bəşəri əhəmiyyətli, qlobal xarakterli ortaq hədəflərin gerçəkləşdirilməsi baxımından səmərəli olacaq və bütövlükdə 12-ci Baş Assambleya məhsuldar nəticələrlə yadda qalacaqdır", - deyə Tahir Budaqov əlavə edib.

Sonra ICAPP-ın 12-ci Baş Assambleyası işini ikinci və üçüncü plenar sessiyalarla davam etdirib. Həmin gün Asiya, Afrika, Latın Amerikası və Karib dənizi, həmçinin Avropa siyasi partiyaları arasında "Siyasi partiyaların sülh və barışıq qurulmasında rolu" mövzusunda "dəyirmi masa" da keçirilib. "Dəyirmi masa"da irqçilik, ksenofobiya, dini və mədəni dözümsüzlüyün rədd edilməsi və mədəniyyətlərarası dialoqun təşviqi məsələləri müzakirə olunub.

12-ci Baş Assambleya çərçivəsində ICAPP ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament və ASEAN Parlamentlərarası Assambleyası arasında anlaşma memorandumları imzalanıb.

Günün sonunda iştirakçılar Kamboca Xalq Partiyasının Prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen adından verilən rəsmi ziyafətə qatılıblar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Sizə, İdarə Heyətinin üzvlərinə və Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə partiyanın yaradılmasının 32-ci ildönümü münasibətilə Laos Xalq İnqilab Partiyası adından və şəxsən öz adımdan ən xoş arzularımı çatdırıram.

Laos Xalq İnqilab Partiyası Yeni Azərbaycan Partiyasının Azərbaycanda, regionda və dünyada sabitlik və inkişafın təmin edilməsi yönündə göstərdiyi səylərdən xəbərdardır. Biz ortaq dəyərlərimizi, partiyalarımız və xalqlarımız arasında dostluq və əməkdaşlıq bağlarının möhkəmləndirilməsinə sadiqliyimizi yüksək qiymətləndiririk.

Bu önəmli gün münasibətilə Sizə, partiyanızın rəhbərliyinə və bütün üzvlərinə cansağlığı, böyük uğurlar arzulayıram. Laos Xalq İnqilabı Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında dostluq əlaqələri hər iki partiyanın, hər iki dövlətin, Laos və Azərbaycan xalqlarının inkişafı və rifahına xidmət edən sülh, dostluq və əməkdaşlıq naminə daim inkişaf etsin.

*Hörmətlə,*

***Bountonq ÇİTMANİ,***
***Laos Xalq İnqilab Partiyası Siyasi Bürosunun üzvü,***
***Mərkəzi Komitə Katibliyinin daimi katibi,***
***Laos Xalq Demokratik Respublikasının vitse-prezidenti***

## Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Yeni Azərbaycan Partiyasının yaradılmasının 32-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyevin şəxsində partiyanın bütün üzvlərinə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan bugünədək Azərbaycanın qabaqcıl siyasi partiyası olmuş, iqtisadiyyatın inkişafı, milli birliyin təmin olunması və beynəlxalq aləmdə güc əldə edilməsində önəmli rol oynamış və böyük uğurlara imza atmışdır.

Xüsusilə neft və təbii qaz mənbələrinin doğru bir şəkildə istifadə edilməsi, beynəlxalq investisiyalar və ölkənin infrastrukturunun gücləndirilməsi vüsət almışdır. YAP-ın idarəçiliyi dövründə Azərbaycan torpaqlarını işğaldan azad etmiş, regionun parlayan ulduzu və bütün türk dünyası üçün bir ilham qaynağı olmuşdur.

Bu əlamətdar gündə Yeni Azərbaycan Partiyasının uğurlarının davamını diləyir, Azərbaycanın daha parlaq bir gələcəyə doğru irəliləməsinə töhfələrinizin artaraq davam etməsini arzulayıram.

Dəyərli partiya üzvlərinə və qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah dolu bir gələcək diləyir, ən səmimi salamlarımı və ehtiramımı ifadə edirəm.

***Şamil AYRIM,***
***AK Parti İstanbul millət vəkili,***
***Türkiyə-Azərbaycan Parlamentlərarası***
***Dostluq qrupunun rəhbəri***

# *Baş nazirin müavini:* "Azərbaycan Qırğızıstanda Avrasiya bazarı üçün yüksək texnologiyalı məhsullar istehsal edə bilər"



**Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasındakı münasibətlər son illər keyfiyyətcə yüksəliş dövrünü yaşayır. İki türkdilli dövlət arasında ticari-iqtisadi və humanitar qarşılıqlı əlaqələr genişlənir, strateji əməkdaşlıq üçün yeni perspektivlər açılır.**

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Qırğız Respublikasının Nazirlər Kabinetinin sədr müavini Edil Baysalov "Report"a eksklüziv müsahibəsində iki ölkə arasındakı münasibətlərin hazırkı səviyyəsi ilə bağlı fikirlərini bölüşüb. O, qarşılıqlı ticarətin həcminin artırılmasından, Azərbaycan sərmayəsinin Qırğızıstan iqtisadiyyatının müxtəlif sahələrinə cəlb edilməsi məsələlərindən, eləcə də Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivlərindən danışıb.**

*- Qırğızıstanla Azərbaycan arasındakı ticari-iqtisadi əlaqələrin hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?*

- Müstəqilliyimizin ilk 30 ili çətin keçdi. Keçid iqtisadiyyatı şəraitində ciddi sosial-iqtisadi çətinliklərlə üzləşdik. Ona görə də keçmişdə Qırğızıstan Azərbaycanın ciddi ticarət tərəfdaşına çevrilə bilmədi. Amma son üç ildə Prezident Sadır Japarovun rəhbərliyi ilə biz iqtisadiyyatımızı xeyli gücləndirmişik. Dövlət gəlirləri üç dəfə, milli iqtisadiyyat isə iki dəfə artıb.

Bu gün liderlərimiz arasında əməkdaşlığın və intensiv təmasların artdığını görürük. Lakin bu nailiyyətlərə baxmayaraq, mövcud qarşılıqlı fəaliyyət səviyyəsi bizim potensialımızı tam əks etdirmir. Əminik ki, əməkdaşlığı genişləndirmək üçün yeni imkanlar axtarmaq lazımdır.

*- Qarşılıqlı ticarətin həcminin artırılması istiqamətində hansı addımlar atılır?*

- Son bir-iki il ərzində ölkələrimiz mühüm irəliləyiş əldə edib: nümayəndə heyətləri mübadiləsi aparılıb, birgə sərgilər təşkil olunub, memorandumlar imzalanıb. Azərbaycan Qırğızıstanı maraqlandıran çox sayda mal istehsal edir. Üstəlik, biz Azərbaycandan, xüsusən də kənd təsərrüfatı və sənaye sahəsində çox şey öyrənə bilərik.

*- Azərbaycanlı investorlar artıq Qırğızıstanda bir sıra layihələrdə, o cümlədən İssık-Kulda hotelin tikintisində iştirak edirlər. Azərbaycanlı investorlar üçün hər hansı üstünlük və ya güzəştlər varmı? Azərbaycan sərmayələri üçün turizmdən başqa Qırğızıstan iqtisadiyyatının hansı sahələrini tövsiyə edərdiniz?*

- Əlbəttə. Azad iqtisadi zonalardakı güzəştli rejimdən əlavə, biz hər bir konkret layihə üçün fərdi vergi şərtlərini və birbaşa maliyyə dəstəyinin digər formalarını müzakirə etməyə hazırıq.

Sərmayə qoyuluşu üçün perspektivli sahələrdən danışsaq, hidroenergetikanı xüsusi qeyd edərdim. Bizdə çoxlu çay var və su-elektrik stansiyalarının tikintisi üçün bəzi yerlər hələ də boşdur. Həmçinin bərpaolunan enerji mənbələri sahəsinə də diqqət yetirməyə dəyər. Məsələn, günəş-elektrik stansiyaları üçün dağlıq bölgələrimiz Yaxın Şərq səhraları kimi ənənəvi günəş bölgələrindən daha yüksək günəş radiasiya intensivliyi təmin edir. Külək stansiyalarının da böyük potensialı var.

Azərbaycanlı sahibkarlara energetika sahəsi ilə yanaşı, kütləvi istehlak mallarının, xüsusən də tekstil məmulatlarının istehsalı üçün ölkəmizə daha yaxından nəzər salmağı tövsiyə edirəm. Qırğızıstanın ixtisaslı işçi qüvvəsi var ki, bu da bu sahəni xüsusilə gəlirli edir. Bundan əlavə, bizim üzvü olduğumuz Avrasiya İqtisadi Birliyinin (AİB) bazarına yönəlmiş yüksək texnologiyalı məhsulların istehsalını təşkil etmək imkanımız var. Bu, AİB ölkələrinin böyük bazarlarına çıxış imkanı yaradır.

Kənd təsərrüfatı, logistika və energetika birgə müəssisələrin yaradılması üçün digər perspektivli sahələrdir. Biz əməkdaşlığa açığıq və istənilən investisiya təklifini müzakirə etməyə hazırıq.

*- İqlim dəyişiklikləri Qırğızıstanın turizm sektoruna necə təsir edir?*

- İqlim dəyişikliyi, şübhəsiz ki, ekosistemə ciddi təsir edir və çox vaxt onun deqradasiyasına səbəb olur. Lakin bəzi regionlar üçün bu dəyişikliklər yeni imkanlar yaradır və Qırğızıstan da istisna deyil.

Ölkəmizin daha əvvəllər kənd təsərrüfatı üçün yararsız hesab edilən bir çox sahələrində indi əvvəllər mümkün olmayan üzüm, pomidor kimi məhsullar uğurla becərilir. Eynilə iqlim dəyişikliyi turizmin inkişafına da öz töhfəsini verib.

Əgər əvvəllər Qırğızıstanın turizm sektoru Avropa və Amerikadan gələn qonaqlara yönəlik idisə, bu gün biz Yaxın Şərqdən turist axınının şahidi oluruq. Yay aylarında istinin 55 dərəcəyə çatdığı ölkələrində həddindən artıq yüksək temperaturla üzləşən ərəb ailələri tətil məkanı kimi getdikcə daha çox Qırğızıstanı seçirlər. Onlar böyük ailələri ilə gəlirlər və iqlimi daha mülayim olan dağlıq bölgələrdə kirayə ev tuturlar.

Bu ailələrin bəziləri 3-4 il ölkəyə səfər etdikdən sonra Qırğızıstanda mülk almağa başlayırlar. Oxşar tendensiyanı zəngin hindistanlılar arasında da müşahidə edirik. Bu tələbatı nəzərə alaraq, ölkədə xüsusi olaraq belə turistlərin və investorların ehtiyaclarına uyğunlaşdırılmış üç yeni şəhər salınır.

Beləliklə, iqlim dəyişikliyi ümumi mənfi təsirinə baxmayaraq, turizmin inkişafı və Qırğızıstana investorların cəlb edilməsi üçün yeni perspektivlər açıb.

## *Almaniyalı nazir:* "Plastikin istehsalı və utilizasiyası hər il 3 giqaton $CO_2$ emissiya edəcək"



**"Plastiklərin istehsalı və utilizasiyası 2050-ci ilə qədər hər il 3 giqaton $CO_2$ emissiya edəcək".**

"Report" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Almaniyanın ətraf mühit, təbiətin mühafizəsi, atom təhlükəsizliyi və istehlakçıların hüquqlarının müdafiəsi üzrə naziri Steffi Lemke bildirib.

O qeyd edib ki, plastiklərin istehsalı, istifadəsi, utilizasiyası zamanı əhəmiyyətli həcmdə istixana qazı emissiya olunur: "Bu problem qlobal səviyyədə təxirəsalınmaz tədbirlər tələb edir. Əgər mövcud tendensiyalar davam edərsə, iqlim dəyişikliyinə mənfi təsirlər daha da artacaq".

Nazir əlavə edib ki, resurslardan səmərəli istifadə və dövri iqtisadiyyat tədbirlərinin tətbiqi istixana qazı emissiyalarını azaltmaq üçün əsas şərtdir.

"Davamlı və qapalı dövriyyəli istehsal modellərinə keçid enerjiyə olan tələbatı azaltmaqla yanaşı, təbii resursların qorunmasını təmin edə bilər," - deyə o bildirib.

S.Lemke həmçinin Almaniya hökumətinin plastik çirklənməsi ilə mübarizədə beynəlxalq səyləri gücləndirməyə davam edəcəyini vurğulayıb. O qeyd edib ki, plastiklərlə bağlı hüquqi baxımdan məcburi beynəlxalq müqavilənin hazırlanması üçün Hökumətlərarası Danışıqlar Komitəsinin (INC-5) mühüm rolu olacaq.

COP29 Baku Azerbaijan

# COP29: keçmişdən gələcəyə şanlı keçid




















## Heydər Əliyev Fondunun "yaşıl töhfə"si

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Bakıda artıq öz işini uğurla yekunlaşdırmaq üzrədir. Noyabrın 11-dən etibarən iki həftəyə yaxın müddətdə Azərbaycanın paytaxtında qlobal iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması, onunla effektiv mübarizə aparılması üçün dünyanın dörd tərəfindən gəlmiş iştirakçılar tərəfindən mühüm təkliflər irəli sürüldü, effektiv qərarlar qəbul edildi.**

Azərbaycanın layiqli evsahibliyi etdiyi beynəlxalq iqlim konfransında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu da fəal iştirakı, yeni təşəbbüsləri ilə xüsusi diqqət çəkdi.

### Milli hədəf

Fəaliyyətində təbiətin mühafizəsini daim diqqətdə saxlayan birinci xanım Mehriban Əliyeva BMT-nin nüfuzlu tədbiri çərçivəsində "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda təşkil olunan konfransda etdiyi çıxışda "yaşıl dünya"nın vacibliyini irəli sürdü. Nitqində COP29-un əhəmiyyətini vurğulayan Birinci vitse-prezident söylədi ki, dünya biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzədir: "Bizim ölkəmiz də istisna deyil. Biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik".

Mehriban Əliyeva "yaşıl zona"da təşkil olunan sözügedən konfransda diqqətə çatdırdı ki, qlobal istixana tullantılarının 0,1 faizi Azərbaycanın payına düşür: "Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik".

COP29 tədbirinin keçirildiyi ərazidə yüzdən çox pavilyon fəaliyyət göstərirdi. Noyabrın 11-dən etibarən bu pavilyonlarda innovasiyalar, iqlim dəyişmələrinin yaratdığı fəsadlara qarşı mübarizə üzrə vacib həll yollarının təqdim edilməsinə dair müzakirələr, panel iclaslar həyata keçirildi, müxtəlif sərgilər təşkil olundu. Həmçinin "yaşıl zona"da yerləşən Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə yaratdıqları Həmrəylik Mərkəzi təbiətə həssas yanaşma çağırışları ilə xüsusi diqqət çəkdi. İki fond beynəlxalq tədbir zamanı davamlılıq və sosial inkişaf naminə səylərini birləşdirmişdilər. Bu pavilyonda Heydər Əliyev Fondunun ətraf mühitin qorunması üzrə təşəbbüsləri təqdim olunurdu. Belə ki, burada təhsil, səhiyyə və sosial sahələrdəki layihələrlə bağlı interaktiv zona yaradılmışdı.

Pavilyonun digər hissəsi isə sıfır atık layihəsinə həsr olunmuşdu.

### "Azərbaycan. Təbiətin sehrində"

COP29 çərçivəsində noyabrın 13-də Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşri təqdim edilib. "Azərbaycan. Təbiətin sehrində" (Azerbaijan. Inspired by Nature) kitabı Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihə çərçivəsində nəşr olunub. Nəşrdə Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillər, müvafiq məlumatlar yer alıb. Kitab oxucuları Azərbaycanın ecazkar təbiəti ilə tanış etməklə yanaşı, bu zənginliyin əhəmiyyətini, onun qorunub saxlanılmasının vacibliyini gündəmə gətirir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin (İB) təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə çıxış edərək kitabın hər kəsi təbiəti sevməyə və onu qorumağa səslədiyini bildirərək deyib: "Dünyada təbiət qədər dəyərli heç nə yoxdur. Biz hava ilə nəfəs alırıq. Susuz üç gün də yaşaya bilmərik. Torpaqdan, ağaclardan enerji alırıq, onunla qidalanırıq. Təəssüf ki, gün ərzində insan bunun haqqında çox az düşünür. İnanıram ki, bu kitabda toplanmış şəkillər Azərbaycanın gözəlliklərini təqdim edəcək, insanlara təbiəti sevməyi və qorumağı bir daha xatırladacaq".

IDEA İB və "Great Whale Conservancy" təşkilatının əməkdaşlığı çərçivəsində noyabrın 19-da COP29-da həyata keçirilən "Dəniz ekosisteminin sağlamlığında və iqlim dəyişikliyinin azaldılmasında dəniz məməlilərinin rolu" mövzusunda panel müzakirələrində iştirak edən Leyla Əliyeva çıxış edərək, dəniz canlılarının ekoloji balans və iqlim dayanıqlılığının təmin edilməsi baxımdan əhəmiyyətini vurğulayıb. IDEA tərəfindən ötən 13 il ərzində icra olunan fəaliyyətlərə toxunan Leyla Əliyeva gənclər və geniş auditoriya üçün həyata keçirilən məlumatlandırma tədbirləri, könüllülərin iştirakı ilə baş tutan sahilyanı ərazilərin təmizlənməsi aksiyaları, balıq körpələrinin suya buraxılması və Xəzər dənizinin unikal biomüxtəlifliyinin qorunmasına yönələn bir sıra digər tədbirləri qeyd edib.

Noyabrın 19-da Leyla Əliyeva COP29 çərçivəsində təşkil olunan balıq körpələrinin suya buraxılışında iştirak edib. "Yaşıl zona"da onlayn yayımlanan aksiya çərçivəsində 50 min nərə və Xəzər qızılbalığı körpələri suya buraxılıb. Aksiya Neftçalanın Yenikənd kəndində təşkil olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva noyabrın 20-də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi tərəfindən COP29-un "yaşıl zona"sındakı "Art Pavillion"da təqdim edilən sərgi ilə tanış olublar.

### Qlobal ekosistem və biomüxtəlifliyin qorunması

COP29 çərçivəsində noyabrın 21-də IDEA İctimai Birliyi və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) əməkdaşlığı ilə "Mühafizənin 60 ili: BTMİ-nin Qırmızı Siyahısı" mövzusunda panel müzakirələri təşkil olunub. Tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva nəsli kəsilməkdə olan bioloji növlərin mühafizəsinin qlobal ekosistem və biomüxtəlifliyin qorunmasında vacib rol oynadığını qeyd edib. Leyla Əliyeva vurğulayıb ki, canlı orqanizmlərin məhv olunmasının qarşısının alınması beynəlxalq həmrəylik və əməkdaşlıq mühitində birgə addımların atılmasını tələb edən qlobal çağırışdır.

IDEA İB tərəfindən 2011-ci ildən etibarən icra olunmuş fəaliyyətlərə toxunan Leyla Əliyeva bildirib ki, nadir canlıların qorunması, ölkəmizə xas olan unikal heyvan və bitki növlərinin mühafizəsi, eləcə də onların populyasiyasının bərpası təşkilatın əsas fəaliyyət istiqamətləri sırasında xüsusi yer tutur. IDEA İB-nin təsisçisi və rəhbəri BTMİ ilə əməkdaşlıq çərçivəsində 2012-ci ildə geniş ictimaiyyətə təqdim olunmuş Qafqazın "Böyük Beşliy"i layihəsini qeyd etdi. Bildirildi ki, Qafqaz bəbiri, ceyran, qonur ayı, boz canavar və imperator qartalının populyasiyasının qorunması və artırılması məqsədilə bir sıra addımlar atılıb.

Daha sonra Leyla Əliyeva qeyd edib ki, nəsli kəsilmiş zubrların populyasiyasının bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması məqsədilə 2017-ci ildən etibarən 46 zubr Avropanın müxtəlif ölkələrindən Şahdağ Milli Parkına gətirilib və 2028-ci ilədək zubrların sayının 100-ə çatdırılması nəzərdə tutulub. Eyni zamanda ceyranların reintroduksiyası layihəsi və digər müvafiq tədbirlər nəticəsində ölkə ərazisində ceyran populyasiyasının 8 minə çatdırıldığı, eləcə də yüz minlərlə nərə balığı körpəsinin Xəzər dənizi və Azərbaycanın digər su hövzələrinə buraxıldığı bildirilib.

### "Yaşıl dünya" naminə

Noyabrın 21-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, IDEA İB-nin və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində "Dəyişən iqlim şəraitində bəbirlərin mühafizəsi" mövzusunda panel müzakirələri təşkil olunub. IDEA İB-nin rəhbəri Leyla Əliyeva tədbirin açılışında çıxış edərək iqlim dəyişmələrinin və qlobal ekoloji sistemdə mənfi tendensiyaların müşahidə edilməsinin Qafqaz bəbirləri də daxil olmaqla, bir çox canlının populyasiyasını təhlükə altına qoyduğunu bildirib. Qeyd edib ki, temperaturun yüksəlməsi və digər çoxsaylı təbii kataklizm bəbirlərin təbiətdə sağ qalmasını çətinləşdirir.

Həmçinin noyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva COP29 sədrliyi, IDEA İB və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) birgə təşkilatçılığı ilə keçirilən "Qlobal liderlərin dialoqu: Təbiət üçün müsbət gələcəyə nail olmaq məqsədilə iqlim fəaliyyəti və biomüxtəlifliyin qorunması və Paris Sazişinin məqsədlərinə uyğunlaşdırılması" mövzusunda panel müzakirələrində iştirak edib.

COP29 çərçivəsində keçirilən tədbirin açılışında çıxış edən Leyla Əliyeva iqlim dəyişmələrinin və biomüxtəlifliyin itirilməsinin planetimizə vurduğu zərərin miqyaslarını vurğulayaraq, beynəlxalq ictimaiyyət tərəfindən təcili tədbirlərin görülməsinin zəruri olduğunu bildirib.

Hər zaman Heydər Əliyev Fondunun gündəliyində duran prioritet məsələlərdən biri təbiətin mühafizəsi ilə bağlı olub. Fondun 2007-ci ildən ətraf mühitin mühafizəsi və ekoloji durumun yaxşılaşdırılması məqsədilə "Hərəmiz bir ağac əkək!" aksiyasını həyata keçirməyə başlaması da buna misaldır.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu COP29-da da fəal iştirakı, səyləri, təşəbbüsləri və çağırışları ilə yaşıl dünya naminə həmrəylik nümayiş etdirdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*















COP29 Baku Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar

## Leyla Əliyevanın iştirakı ilə Bakıda növbəti ağacəkmə aksiyası keçirilib

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində noyabrın 22-də Bakıda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə növbəti ağacəkmə aksiyası həyata keçirilib.**

AZƏRTAC xəbər verir ki, IDEA könüllülərinin iştirakı ilə keçirilən budəfəki aksiya zamanı 1000 ədəd Eldar şamı əkilib və ərazidə müvafiq abadlıq işləri aparılıb. Sözügedən ərazidə ağacların effektiv sulanması və su israfının qarşısının alınması məqsədilə damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub.



Bu gün paytaxtımızda hava təbəqəsi avtomobil nəqliyyatı, istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir, havada olan toz və digər yad maddələr insan sağlamlığına, bütün ekoloji tarazlığa zərər verir. Meşə zolaqlarının salınması, yaşıllaşdırma fəaliyyətləri ekoloji tarazlığın bərpasına və havanın keyfiyyətinin artırılmasına müsbət təsir edir.




IDEA İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir. Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda şikayət və təkliflərini şəhər və ya mobil telefonlardan 1113 qaynar xətt vasitəsilə IDEA İctimai Birliyinə çatdıra bilərlər.



Qeyd edək ki, "1113 - Təbiətin təcili yardımı" qaynar xətti və mobil qrupu 2014-cü ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində yaradılıb. Sözügedən qaynar xəttə daxil olmuş minlərlə vətəndaş şikayəti üzrə tədbir görülüb.



## Leyla Əliyeva və Arzu Əliyeva Milli İncəsənət Muzeyində təşkil olunan sərgiləri ziyarət ediblər



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva noyabrın 21-də Azərbaycan Milli İncəsənət Muzeyində "Səttar Bəhlulzadə - təbiətin ecazkar nağılı", "1920-1980-ci illər Azərbaycan rəngkarlığı və qrafikası" və "Vəcihə Səmədova-100: sənətkar ömrünün səhifələri" adlı sərgilərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı Leyla Əliyevaya və Arzu Əliyevaya sərgilər haqqında ətraflı məlumat verilib.







COP29 Baku Azerbaijan

# Dünya Bakıda birləşib









## COP29 Azərbaycanın qlobal nüfuzunun göstəricisidir

### Bu, tədbirdə iştirak edən dünya liderlərinin ümumi fikridir











**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) dünya yüksək qiymətləndirir. Bunu ən çox COP29-da iştirak edən dövlət başçılarının, rəsmi şəxslərin və digər hörmətli qonaqlarımızın çıxışlarında, müsahibələrində, Prezident İlham Əliyevlə görüş və söhbətlərində aydın görürük.**

"Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük." Bu, Prezident İlham Əliyevin sözləridir. Dövlətimizin başçısı Liderlər Sammitinin açılış mərasimində çıxış edərkən həmçinin diqqətə çatdırmışdır ki, 196 ölkədən gəlmiş 72 min iştirakçı qeydiyyatdan keçib: "Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!"



İndi isə ali qonaqların fikir, rəy və ürək sözlərinə diqqət yetirək. BMT-nin Baş katibi Antonio Quterreş tədbirin tribunasından bütün dövlət nümayəndələrinə müraciət etdi: "Artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda, bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyirxah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır… COP29 yeni fərq yaratmalıdır və inkişaf edən ölkələr Bakını əliboş tərk etməməlidir". BMT-nin Baş katibi əmin olduğunu da bildirdi ki, buna birlikdə nail olunacaq.

Qardaş türk dövlətlərinin liderləri COP29-un yüksək səviyyədə təşkili və gedişindən məmnunluqlarını ifadə etdilər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına COP29-un uğurla keçirilməsi ilə bağlı təbriklərini çatdırdı və Azərbaycanın qısa müddət ərzində belə bir möhtəşəm tədbirə mükəmməl hazırlığını yüksək qiymətləndirildiyini bildirdi. Həmçinin vurğuladı ki, Prezident İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çox məzmunlu çıxış edib. Türkiyə Prezidenti tədbir çərçivəsində təşkil olunan mədəni təqdimatın da nəfis qaydada hazırlandığını diqqətə çatdırdı.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan, Qazaxıstan və Özbəkistanın dövlət başçılarının üçtərəfli görüşü zamanı dedi: "Əvvəlcə, Birləşmiş Millətlər Təşkilatının İqlim Sammitinin uğurla keçirilməsi münasibətilə hörmətli İlham Heydər oğlunu bir daha təbrik etmək istərdim. Biz hamımız gördük ki, bu, Azərbaycanın nüfuzunun tanınmasıdır. Regionumuzda ilk dəfədir ki, belə möhtəşəm tədbir keçirilir və bu, Azərbaycanın qlobal miqyasda ən yüksək nüfuzunun bariz göstəricisidir."

"Mən Azərbaycanı sülh naminə iqlim təşəbbüsünün bir hissəsi kimi qiymətləndirilən COP29-un prezidenti kimi görməkdən çox məmnunam". Bunu isə yaxın qonşumuz Gürcüstanın Baş naziri İrakli Kobaxidze deyib və COP29-u belə dəyərləndirib: "Bu tədbir əlamətdar hadisədir, çünki Cənubi Qafqaz regionu ölkəsi ilk dəfə olaraq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının İştirakçılarının Konfransına evsahibliyi edir. Azərbaycana bu istiqamətdə səmərəli və iddialı nəticələrin əldə edilməsində, danışıqlar prosesində əməkdaşlıq və konstruktiv dialoq ruhunun təşviqində uğurlar arzulamaq istərdim. Bu konfrans kritik bir vaxta təsadüf edir, çünki iqlim dəyişikliyi çağımızın ən aktual problemlərindən biri kimi ortaya çıxır və onun çoxşaxəli nəticələrini həll etmək üçün təcili qlobal fəaliyyət və əməkdaşlıq tələb edir".

Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərifin fikirləri də maraq doğurur . O, dövlətimizin başçısına müraciətlə demişdir: "Cənab Prezident, COP29-a Azərbaycanda, Bakıda evsahibliyi etdiyinizə görə təşəkkür edirəm. Siz həqiqətən də öz rəhbərliyiniz və liderliyinizlə hamını sülhün vacibliyinə inandırdınız. Sülh olmadan dayanıqlı inkişaf barədə danışmaq mümkün deyil. Dayanıqlı inkişaf olmadan da biz sülhü yarada bilmərik. Mən Azərbaycana Dayanıqlı İnkişaf Məqsədlərinə verdiyi töhfələrə görə təşəkkür edirəm".

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer Prezident İlham Əliyevi COP29-un Azərbaycanda keçirilməsi və ölkəmizin bu tədbirə sədrliyi münasibətilə təbrik edib. İqlim dəyişmələri məsələlərinin Britaniyanın gündəliyində vacib, prioritet məsələlərdən olduğunu deyən baş nazir Azərbaycan tərəfindən qlobal iqlim dəyişmələri ilə mübarizəyə verilən töhfənin təqdir olunduğunu vurğulayıb.

COP29-un plenar iclasında çıxış edən Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Bakıda iqlim sammitinin uğurla keçirilməsi münasibətilə "Əziz Qardaşım" deyə müraciət etdiyi Prezident İlham Əliyevə təbrikini çatdırıb. Baş nazir əminliklə bildirib ki, COP29 mütləq tarixə düşəcək.

Çex Respublikasının Baş naziri Petr Fiala da COP29-un yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb və bununla bağlı dövlətimizin başçısını təbrik edib. O, COP miqyasında tədbirin belə bir qısa müddətdə təşkil edilməsinin heç də asan olmadığını vurğulayıb və qeyd edib ki, tədbirin açılış mərasimində Azərbaycan mədəniyyətini əks etdirən çox gözəl təqdimat nümayiş olunub.

Bu rəylər siyahısını xeyli uzatmaq da mümkündür. Bununla yanaşı, qeyd edilməlidir ki, ən çox "ürəyi dolu olan" iqlim dəyişmələrindən daim əziyyət çəkən kiçik ada dövlətləridir. Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi Patrisia Skotlend həmin birliyin 56 üzvündən 25-nin inkişaf etməkdə olan ada dövləti olduğunu qeyd etdi: "Onlar böyük çağırışlarla üzləşir. Onlar iqlim dəyişmələrinin intensivləşməsinə yüksək dərəcədə həssasdırlar. Bu, fiziki baxımdan daha az ərazi deməkdir. Bununla belə qlobal maliyyə qaydaları onların işini daha da çətinləşdirir. Bütün bunlar onların müqavimət gücünü zəiflədir. Bu səbəbdən kiçik ada dövlətlərinə verilən prioritet birlik proqramımızın əsasını və beynəlxalq sistemdə fəaliyyətimizin özəyini təşkil edir".

Patrisia Skotlend COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək deyib: "COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açılmasını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq".

Əlavə edək ki, COP29 çərçivəsində iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətlərini dəstəkləmək məqsədilə "Kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair Bakı Bəyannaməsi" qəbul olunub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



















COP29 Baku Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb

## "İqlim probleminin həll olmasını istəyən hər kəs Bakıda olmalı idi"



**"Mən Qvineyadanam. COP29-dan gözləntimiz yeni iqlim maliyyəsinə çatmaqdır. COP29-da müzakirə edilən məsələlər burada ola bilməyən insanlar üçün bir ümiddir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında COP29-un qvineyalı iştirakçısı Əhmədou Sebori Ture söyləyib. Bildirib ki, iqlim probleminin həll olmasını istəyən hər kəs Bakıda olmalı idi: "Planetimizlə mübadilə etmək üçün B planımız yoxdur, bu gün həyata keçirə biləcəyimiz hərəkət bizə və gələcək nəsillərə fayda verəcək. Mən noyabrın 11-dən buradayam. Heydər Əliyev Beynəlxalq Aeroportundan qaldığımız hotelə qədər Azərbaycan xalqının mehribanlığına şad oldum. Konfransın təşkilatçılarını təbrik edirəm. Həqiqətən də çox uğurlu təşkil edilib".

## "Ümid edirik ki, COP30 da eyni səviyyədə yüksək təşkilatçılıqla seçiləcək"



**"COP29-un təşkili gözləntiləri aşdı. Nümayəndə heyətimiz həm təşkilatçılığa, həm də Bakı şəhərinə heyran qaldı. Tədbir, həqiqətən, yüksək səviyyədə təşkil olunub".**

Bu fikirləri Braziliyanın Azərbaycandakı səfiri Manuel Monteneqro bildirib.

Səfirin sözlərinə görə, Braziliya qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə, xüsusən də Amazon tropik meşələrinin qorunması və bərpasında mühüm rol oynayır.

"İqlim dəyişikliyi qlobal problemdir. Biz, bir inkişaf etmiş ölkə olaraq, emissiyalarımızı azaltmalıyıq. Həmçinin inkişaf etmiş ölkələr maliyyə öhdəliklərini yerinə yetirməlidirlər ki, danışıqlar prosesi davam etsin," - deyə o vurğulayıb.

Manuel Monteneqro əlavə edib ki, Azərbaycan COP29 çərçivəsində iştirakçı nümayəndə heyətləri üçün böyük işlər görüb.

"Tədbirə gələn qonaqlar Azərbaycanı böyük təəssüratlarla tərk etdilər. Ümid edirik ki, COP30 da eyni səviyyədə yüksək təşkilatçılıqla seçiləcək", - deyə səfir fikirlərini yekunlaşdırıb.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası (COP30) gələn il Braziliyada keçiriləcək.

## "İqlim maliyyələşməsi məsələsinin həlli dünyada geniş müzakirə olunur"



**"Rəhbəri olduğum şirkət ekoloji dayanıqlılıq məsələləri üzrə 13 ildir məsləhət xidməti göstərir. Biz bütün COP tədbirlərində iştirak edirik. Çox şadam ki, COP29 Bakıda keçirildi. Biz burada həm "mavi zona"da, həm də "yaşıl zona"da aparılan müzakirələri izlədik. Eyni zamanda Türkiyə pavilyonunda da çıxış etdik".**

Bunu Türkiyənin "Eskarus" konsultasiya firmasının rəhbəri Kubilay Kavak deyib.

Əvvəllər də COP konfranslarının iştirakçısı olan qonaq inkişaf etmiş ölkələrin "yaşıl enerji"yə keçid üçün birgə vəsait ayırmaları ilə bağlı böyük gözləntilərin olduğunu diqqətə çatdırıb. İqlim maliyyələşməsi məsələsində razılığın əldə olunmasının zəruriliyini xüsusi vurğulayan türk iştirakçı deyib: "İqlim maliyyələşməsinin həlli məsələsi hazırda dünya mətbuatında da geniş müzakirə olunur. Bu baxımdan həftəsonu keçiriləcək dinləmələr də böyük maraq doğurur. Digər tərəfdən, COP bütün dünya xalqlarının, QHT-lərin bir araya gəldiyi böyük platformadır. Məsələn, Şotlandiyanın Qlazqo şəhərində keçirilən COP tədbirində nüvə təşkilatlarının önə çıxması etirazlara səbəb olmuşdu. Ancaq Bakıda oxşar etirazlara rast gəlinmədi. Bundan əlavə, Bakıda COP-un tanıtımı şəhər daxilində də gözəl təşkil edilib. Paytaxtın hər yerində iqlim dəyişmələrinin əhəmiyyətini vurğulayan lövhələr quraşdırılıb. Bunları görməkdən çox məmnun olduq. Ümumilikdə deyə bilərəm ki, burada yeganə məsələ "yaşıl enerji"yə keçidlə bağlı maliyyələşdirmə məsələsində konsensusun əldə olunmasıdır".

## Azərbaycanın təşəbbüsü ilə ilk dəfə Qlobal Cənub QHT Platforması yaradılır

**Noyabrın 15-də COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərin Cənub-Cənub əməkdaşlığı üzrə beynəlxalq konfransı keçirilib.**



AZƏRTAC xəbər verir ki, "Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafı: QHT-lərin rolu" adlı beynəlxalq konfransda Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə Azərbaycanın mühüm qlobal təşəbbüslərə imza atması, iqlimlə bağlı fəaliyyət də daxil olmaqla, ölkələr arasında həmrəyliyin gücləndirilməsinə əhəmiyyətli töhfə verdiyi xüsusi vurğulanıb. Xarici QHT-lər Qlobal Cənubun aparıcı ölkələrindən biri olan Azərbaycan dövlətini COP29-u uğurla təşkil etdiyinə görə təbrik ediblər.

Beynəlxalq konfransın yekununda Qoşulmama Hərəkatı ölkələrini təmsil edən QHT-lər Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafında QHT-lərin roluna dair birgə bəyanat mətnini razılaşdırıb və bəyanata qoşulmağı bütün COP29-da iştirak edən QHT-lər üçün açıq elan edib.

Bəyanatda Azərbaycana güclü dəstək ifadə olunur, onun qlobal roluna diqqət çəkilir, COP29 çərçivəsində sülhün və kollektiv qlobal fəaliyyətin təşviqi üçün iqlim danışıqları zamanı müharibələrin dayandırılmasına yönəlmiş Azərbaycanın "COP Atəşkəs Çağırışı" təqdir edilir. Dünya dövlətləri iqlim dəyişmələrinin humanitar aspektlərinə, o cümlədən həssas icmaların müdafiəsinə, sosial ədalət və ekoloji böhranlara qarşı dayanıqlılığa üstünlük verməyə, öz hərəkətlərini "COP Atəşkəs Çağırışı"nın ruhuna uyğunlaşdırmağa dəvət olunur.

Sənəddə iqlimə davamlılıq və humanitar problemlərin həllində, Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunlaşdırılmış inklüziv siyasətlərin təşviqində QHT-lərin mühüm rola malik olması qabardılır, iqlim maliyyələşdirilməsini və yerli səviyyələrdə təşəbbüsləri dəstəkləmək üçün hökumətlər, maliyyə institutları və QHT-lər arasında əməkdaşlığın genişləndirilməsinin zəruriliyi ifadə olunur. Qlobal miqyasda QHT-lər Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlimlə bağlı fəaliyyətin təşviqində, xüsusilə regional iqlim problemlərini və icma əsaslı həlləri dəstəkləyən tərəfdaşlıqların təşviqində rollarını gücləndirməyə çağırılır.

Bəyanatda həmçinin ən yaxşı təcrübələri bölüşmək, dayanıqlı inkişafa təkan vermək üçün iqlim fəaliyyəti üzrə əməkdaşlıq şəbəkəsi kimi Azərbaycan Milli QHT Forumunun təşəbbüsünə dəstək olaraq, Qlobal Cənub QHT Platformasının yaradılmasının vaxtının çatdığı bildirilir.

COP29-da təmsil olunan vətəndaş cəmiyyəti üzvlərinə açıq olan bəyanata 137 ölkədən 1023 QHT təmsilçisi, ictimai fəal imza atıb.

Qeyd edək ki, dünya ölkələrinin 71 faizini əhatə edən regionlardan vətəndaş cəmiyyəti təsisatlarının Azərbaycan QHT-lərinin təşəbbüsünə dəstək ifadə etməsi ölkəmizin QHT tarixində ilk dəfə baş verir.

## *Ekologiya üzrə səfir:* "Əvvəlki COP təşkilatçılarının bacarmadıqları nailiyyətlərə görə Azərbaycanı təbrik etmək lazımdır"




***Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkənin "yaşıl enerji"yə keçidində, eləcə də bərpaolunan enerjinin inkişafı məqsədlərinə nail olunmasında mühüm rol oynayacaq. Şübhəsiz ki, bu beynəlxalq konfransda "yaşıl enerji"yə qlobal keçidlə bağlı mühüm qərarlar qəbul ediləcək. Azərbaycan gələcəkdə ölkənin iqtisadi inkişafına dəstək olacaq "yaşıl enerji"nin Avropaya ixracı ilə bağlı layihənin həyata keçirilməsi üçün əhəmiyyətli tərəfdaşlar cəlb edə biləcək. Nəzərə alsaq ki, Azərbaycanın alternativ enerji mənbələri üçün çox böyük potensialı var, belə mühüm layihələrin həyata keçirilməsi istiqamətində beynəlxalq maliyyə kanallarının açılması "yaşıl enerji"nin yeni dövrünün başlanğıcı olacaq.***

Mövzu ilə bağlı AZƏRTAC-ın suallarını Monteneqronun Radio və Televiziyasının Ətraf Mühit Redaksiyasının baş redaktoru, Monteneqronun Ekologiya üzrə səfiri və Davamlı İnkişaf üzrə Milli Şuranın üzvü Daniel Qariç cavablandırır.

*- COP29-un ilk günündə Paris Sazişinin 6.4-cü maddəsi üzrə razılıq əldə olunub. Bu, COP29-un əsas gözləntilərindən biridir. Bu nəticəni necə qiymətləndirirsiniz?*

- Bu, şübhəsiz ki, qlobal iqlim danışıqlarında mühüm qərardır. COP29 qlobal karbon bazarının əsasını qoyaraq, 6-cı maddə əsasında Paris Sazişinin mexanizmi üçün yeni əməliyyat standartlarını rəsmi olaraq qəbul etdi. 6-cı maddə əvvəlki COP-larda böyük maneə idi, bəzi ölkələr öz iqtisadiyyatları üçün riskdən qorxurdular. Hələlik danışıqlarda tam irəliləyiş əldə olunmayıb. 6-cı maddə ölkələr və şirkətlər üçün karbon kompensasiyası ilə ticarət etmək üçün iki yol təklif edir. Bu maddə onların iqlim fəaliyyət planlarında müəyyən edilmiş emissiyaların azaldılması hədəflərinə nail olmağı dəstəkləyir.

*- Emissiyaların monitorinqi üzrə standartlarla bağlı vəziyyət necədir?*

- Karbon kreditlərinin nə qədər daimi və etibarlı olması ilə bağlı fikir ayrılıqlarına görə əvvəllər danışıqlar dayandırılmışdı. Düşünürəm ki, əvvəlki prosedur maneələr indi aradan qaldırılır və nümayəndələr COP29-da digər mühüm məsələləri həll etməkdə daha asan vaxt əldə edəcəklər. Bununla belə vurğulamaq lazımdır ki, biz hələ də emissiyaların monitorinqi üçün dəqiq standartlara malik deyilik və bu, bazarın uzunmüddətli etibarlılığı üçün çox vacibdir.

*- Beynəlxalq maliyyə korporasiyaları və bank institutları artıq iqlim dəyişikliyinin nəticələri ilə mübarizə üçün maliyyə töhfələrini artıracaqlarını bəyan ediblər. Bütün bunlar yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmaya nail olmaq üçün mükəmməl mühit yaradır. Bu danışıqların nəticəsini necə görürsünüz?*

- Mən burada ehtiyatlı nikbinliyi ifadə edərdim. Təbii ki, bu, yaxşı və faydalı başlanğıcdır və bu, sıfır səviyyəsindən irəlilədiyimizi bildirir. İndi iqlim böhranını həll etmək üçün maliyyə mexanizmlərinə ehtiyacımız var. Bu nailiyyətə baxmayaraq, 6-cı maddənin əsas elementləri, xüsusən də ölkələr arasında ikitərəfli ticarəti tənzimləyən 6.2-ci maddə həll edilməmiş qalır. Aİ və ABŞ şəffaflıq tələbi ilə bağlı fikir ayrılığındadırlar, COP29-da danışıqlar davam etdikcə nə baş verəcəyini görəcəyik. Təbii ki, əvvəlki COP təşkilatçılarının bacarmadıqları nailiyyətlərə görə Azərbaycanı təbrik etmək lazımdır.

*- Niyə hələ də maliyyələşmə ilə bağlı konsensus əldə etmək mümkün olmayıb?*

- COP29-da maliyyələşdirmə gündəmin başındadır. Biz bilirik ki, bu günə qədər acgöz geosiyasi yarışa görə kifayət qədər pul ayrılmayıb. Artıq temperaturun əvvəlkindən 1,4 dərəcə yüksək olduğu bir şəraitdə təbii fəlakətlərlə mübarizə üçün gündə bir milyard dollardan çox vəsaitə ehtiyacımız var. Belə davam etsə, təsəvvür edə bilərsiniz ki, 5-10 ildən sonra bizə nə qədər pul lazım olacaq. Dünya Bankının 170 milyard dollarlıq iqlim maliyyəsi qərarı yaxşı əlamətdir. Ancaq bilməlisiniz ki, Dünya Bankının siyasəti Amerikanın siyasətindən asılıdır. Dünya Bankının prezidentini kimin təyin etdiyini bilirik.

*- Sizcə, ABŞ "yaşıl iqtisadiyyat"ı maliyyələşdirməkdən uzaqlaşa bilərmi?*

- Xatırlayaq ki, cəmi iki il əvvəl ABŞ Prezidenti Co Bayden qalıq yanacaqları maliyyələşdirdiyi və "yaşıl siyasət"lərə sərmayə qoymaq istəmədiyi üçün Dünya Bankının prezidenti Devid Malpassı işdən çıxarmışdı. İndi bizim Dünya Bankının yeni prezidenti var, o, 170 milyon ayırır. Amma bu yaxınlarda ABŞ-də "yaşıl siyasət"ə inanmayan yeni prezident seçildi. Yəni biz bilmirik ki, bu, Dünya Bankının, sadəcə, bir maliyyə inyeksiyasıdır, yoxsa uzunmüddətli öhdəlikdir? Tramp Dünya Bankının yeni prezidentini təyin edəcəkmi və qlobal iqlimin bərpası səylərinə sərmayə qoymağa hazır olacaqmı? Bütün bu suallar nəzərə alınmalıdır.

*- Azərbaycan "yaşıl enerjiyə" keçiddə Cənubi Qafqaz regionunda liderdir. Aİ və Azərbaycan bu istiqamətdə necə əməkdaşlıq edə bilər?*

- Hesab edirəm ki, Avropa İttifaqı Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır və Avropa İttifaqı Azərbaycana ən böyük investordur. Azərbaycan üçün ən vacibi Ümumdünya Ticarət Təşkilatına üzv olmaq üçün Aİ-nin təklif etdiyi yardımdan istifadə etməkdir. "Cənub qaz dəhlizi" Xəzər dənizindən qazın Avropa bazarlarına çatdırılması üçün strateji layihə hesab olunur. Ukraynadakı müharibədən sonra Avropa İttifaqı davamlı olaraq enerji böhranından danışır. O, bu dəhlizi Avropanın enerji təchizatının təhlükəsizliyinin yaxşılaşdırılması üçün vacib hesab edir. 2019-cu ildə Azərbaycan Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit Tərəfdaşlığına (E5P) qoşulub və enerji sektorunda, o cümlədən enerji səmərəliliyində Aİ-nin gələcək dəstəyi "EU4Energy" təşəbbüsü vasitəsilə təmin edilir. Bildiyimə görə, Azərbaycanla ətraf mühit və iqlim məqsədləri sahəsində də əməkdaşlıq mövcuddur. "Water+" təşəbbüsü, "EU4 Climate" və "EU4 Environment" kimi proqramlar var. Bu təşəbbüslər Azərbaycanın Paris Sazişinə Milli Müəyyənləşdirilmiş Töhfələri (NDC) yerinə yetirməsinə, eləcə də Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunmasına kömək edir.

*- "Yaşıl keçidi" sürətləndirmək üçün Azərbaycan hansı tədbirləri görməlidir?*

- Hesab edirəm ki, Azərbaycan "qalıq yanacaq ölkəsi" kimi mütərəqqi Avropa siyasətini izləməlidir. Brüssel yeganə qlobal oyunçudur ki, dəqiq müəyyən edilmiş məqsədləri var və onlara nail olur. Aİ 2025-ci ilə qədər ilk "karbon neytral" qitə olmaq istəyir. Bu, bütün tərəfdaşlarla, o cümlədən Azərbaycanla ticarət siyasətinə təsir edəcək. Əgər rəsmi Bakı enerji keçidini vaxtında başa çatdırmasa, mən qorxuram ki, onun Aİ ilə ticarəti risk altında ola bilər.

## "COP29-dan gözləntilərim, demək olar ki, özünü doğruldub"



**"Koreyanın qeyri-hökumət təşkilatının üzvü kimi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün gəlmişəm. İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi və milli iqlim büdcələri ilə əlaqəli danışıqlarda iştirak etmişəm".**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Koreya Respublikasının "Yaşıl ətraf mühit" qeyri-hökumət təşkilatının üzvü Myeonqju Kim deyib.

O, COP29-dan gözləntilərinin, demək olar ki, özünü doğrultduğunu bildirib: "Lakin İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi tədbirin son günü olmasına baxmayaraq, hələ də öz yerini tapmayıb. Biz maliyyələşmə haqqında konkret nəticə görmək istəyərdik. Buna görə də bir qədər məyusuq. Ölkələrimizin gələcəyi üçün inadla əzm göstərməliyik.

Müsahibimiz həmçinin Koreyanın da iqlim dəyişikliyi ilə bağlı bəzi həll edilməyin problemləri olduğunu bildirib.

## "Şimalda da insanlar iqlim dəyişikliyindən əziyyət çəkirlər"



**"Filippin inkişaf edən ölkə olduğu və qlobal cənubda yerləşdiyi üçün çox böyük iqlim fəsadları ilə qarşı-qarşıyadır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) maliyyə mövzusu əsas olduğu üçün böyük ümidlərimiz var idi".**

Bu fikirləri Filippinin iqlim ədaləti hərəkatının fəalı Bibiano Junior Rivera deyib. O bildirib ki, COP29-da ayrılan maliyyə planetimiz və onun sakinlərini qorumaq üçün lazımdır: "Şimalda da insanlar iqlim dəyişikliyindən əziyyət çəkirlər. Əgər 2025-ci ilə qədər bütün yanacaq enerji istehsalını və istehlakını dayandırmasaq, əsrin sonuna qədər temperatur hədəfinə çatmaq çox çətin olacaq".

## "Azərbaycan COP29 konfransının təşkilində yüksəksəviyyəli yanaşma nümayiş etdirir"



**"COP29-un yüksək səviyyədə təşkili, Azərbaycanda göstərilən qonaqpərvərlik valehedicidir. Bakıda bu iqlim konfransına qatıldığım ilk gündən planlaşdırmanın nə qədər mükəmməl olmasına heyran qaldım. Tədbir çox yüksək səviyyədə təşkil edilib, konfrans məkanında könüllülərdən lazımi dəstək ala bilirik. Belə yüksək təşkilatçılığa görə Azərbaycan xalqına təşəkkür edirəm".**

Bu sözləri COP29-da iştirak edən keniyalı yerli icma nümayəndəsi Steysi Çesok söyləyib.

Keniyalı qonaq iqlim dəyişikliyi ilə mübarizədə yerli icmaların roluna diqqət çəkərək bildirib ki, tədbir çərçivəsində yerli biliklərin və təcrübələrin nəzərə alınması vacibdir: "Yerli xalqlar ətraf mühitin qorunması və enerji sərfiyyatı olmadan qida ehtiyatlarının saxlanılması ilə bağlı uzun müddət sınaqdan keçmiş bilik və bacarıqlara malikdir. Elektrik enerjisi qaz emissiyası yaradan əsas amillərdən biridir. Yerli icmaların nümayəndələrinin bu sahədə bilik və təcrübələri bölüşülüb tətbiq edilərsə, düşünürəm ki, iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində ciddi irəliləyiş əldə oluna bilər".



COP29 Baku Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır








## "Yaşıl dünya" naminə inklüzivlik









**Cəmiyyətin bütün təbəqələrinin üzvlərinə, o cümlədən sağlamlıq məhdudiyyətləri olan şəxslərə diqqət və qayğı hər zaman dövlətimizin prioritet məsələlərindən olub. İnklüzivlik və əlçatanlığın təmin edilməsi COP29 konfransının təşkili prosesində də vacib amil kimi nəzərə alınıb. Belə ki, inklüziv mühitin yaradılması, hər kəs üçün əlçatanlığın təmin edilməsi məqsədilə tədbir məkanında bir sıra müvafiq həllər tətbiq edilib.**

### COP tarixində ilk

COP29-da iştirak edəcək fiziki imkanları məhdud şəxslərə dəstək olmaq və inklüziv mühiti təşviq etmək üçün könüllülərə, müxtəlif xidmət sahələrinin əməkdaşlarına təlimlər keçirilib, iştirakçılara tədbir məkanına gediş-gəlişi asanlaşdırmaq üçün müvafiq nəqliyyat xidmətləri təqdim edilib.

Konfransın plenar iclas zalında eşitmə və nitq məhdudiyyətli şəxslər üçün işarət dilinə tərcümə və audio induksiya sistemi xidmət göstərib. Sessiya və panelləri əlçatan etmək üçün işarət dili üzrə surdotərcüməçilər təqdim edilib.

Tədbir məkanının dizaynı zamanı müvafiq zona və zallar görmə məhdudiyyətli şəxslər üçün kontrast nəzərə alınmaqla tərtib edilib. Onların tədbirin keçirildiyi məkanda rahat hərəkət etmələri üçün Brayl əlifbası ilə hazırlanan qapı lövhələr, məlumat nişanları, məkan xəritələri və müxtəlif broşürlərdən istifadə olunub. Qeyd etmək lazımdır ki, bu materialların əksəriyyəti ölkəmizdə yaşayan görmə məhdudiyyətli şəxslər tərəfindən hazırlanıb.

Konfransın keçirildiyi ərazidə inklüziv çıxışı təmin etmək məqsədilə informasiya məntəqəsi yaradılıb. Burada əlilliyi görünməyən iştirakçılar üçün istəyə görə günəbaxan simvollu lentlər təqdim olunub, Brayl əlifbası ilə hazırlanmış tədbir məkanı xəritəsi təmin edilib, eləcə də yoxlama və ilkin texniki dəstəyi özündə ehtiva edən təkərli oturacaqların təmiri xidməti və elektrikli təkərli oturacaqlar üçün enerji doldurma məntəqəsi fəaliyyət göstərib.



Bunlarla birlikdə, ərazidə yerdəyişməni asanlaşdırmaq məqsədilə fiziki imkanları məhdud olan şəxslər üçün müvafiq pandus və liftlər quraşdırılıb, eləcə də xüsusi parklanma yerləri və sanitar qovşaqları hazırlanıb, habelə COP tədbirləri tarixində ilk dəfə "mavi" və "yaşıl" zonaların girişində taktil xəritələr yerləşdirilib.

### İnklüzivliyin və bərabərliyin əhəmiyyəti

COP29 çərçivəsində iqlim dəyişikliyinin xüsusi qayğıya ehtiyacı olan insanlara təsirinə, iqlim dəyişikliyi ilə mübarizədə göstərilən qlobal səylərdən heç kimin kənarda qalmamasını təmin etmək üçün dayanıqlı təşəbbüslər, inklüziv siyasət və təcrübələrin iqlim fəaliyyətinə inteqrasiyasına dair plenar iclaslar, müzakirələr və sərgilər keçirilib.

Noyabrın 20-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi tərəfindən COP29-un "yaşıl zona"sındakı "Art Pavillion"da təqdim edilən sərgi ilə tanış olublar. Sərgidə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi və "DOST Evi" filialının həssas əhali qruplarına aid benefisiarları və təlimçilərinin 50-dən çox əl işi nümayiş etdirilib.

Sərgiyə gələn qonaqlara sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi üçün aparılan işlər barədə məlumat verilib. Əl işləri arasında "yaşıl dünya"ya, ətraf mühitin mühafizəsinin, təbiəti qorumağın vacibliyinə həsr olunmuş sənət nümunələri də yer alıb. Leyla Əliyeva və Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin əlilliyi olan şəxslərdən ibarət benefisiarlarının ifasında təqdim edilən konsert proqramını da izləyiblər.

Müslüm Müslümzadə, Səbinə Əsgərova, Xaliq Şərifov, Səməd Novruzov, Nurlan Əhmədov, Fərid Abdullayev tərəfindən Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri ifa olunub. Təqdim edilən sərgi və konsert proqramı böyük maraqla qarşılanıb.

Həmin gün konfrans çərçivəsində Azərbaycan Əlil Təşkilatları İttifaqının, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə inklüzivlik" mövzusunda plenar müzakirə də keçirilib, mövcud problemlərin həllində qanunvericiliyin təkmilləşdirilməsi və əlilliyi olan şəxslərin hüquqlarının təmin olunması istiqamətində həyata keçirilən və planlaşdırılan tədbirlər barədə fikirlər bildirilib. Habelə, iqlim dəyişikliklərinin törətdiyi fəsadların əlilliyi olan şəxslərə təsiri, riskli vəziyyətlərdə xilasetmə tədbirləri, mövcud problemlərin həlli yolları və bu sahədə toplanmış təcrübə ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Tədbirdə iqlim ədalətinin təmin edilməsi üçün iqlim dəyişikliklərinin doğurduğu problemlərə qarşı bütün dövlətlərin və əlilliyi olan şəxslərin təşkilatlarının birgə mübarizə aparmasının vacibliyi xüsusi vurğulanıb.

COP29 konfransı çərçivəsində bu kimi tədbirlərin keçirilməsinin əsas məqsədi inklüzivliyin və bərabərliyin əhəmiyyətini vurğulamaq, gənclərin yaradıcı potensialını önə çıxarmaq və iqlim dəyişikliyinə qarşı mübarizədə cəmiyyətin bütün təbəqələrinin birgə iştiraka çağırışını təmin etməkdir. Dövlətimiz tərəfindən inklüziv cəmiyyətin qurulmasına verilən dəstək iqlim konfransında da özünü aydın şəkildə göstərdi.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

















COP29 Baku Azerbaijan

# Dünya mediası COP29-dan yazır

# "Ümidlər Bakıyadır"

**Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) uğurla evsahibliyi etdi. COP29-un Bakıda keçirilməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun günbəgün artdığını bir daha sübut etdi. Azərbaycanın belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura və təhlükəsizliyə malik olmasını dünya ictimaiyyəti növbəti dəfə müşahidə etdi.**




Azərbaycanın COP29-a uğurla evsahibliyi etməsi dünya mediasının da diqqət mərkəzindədir. Bir sıra beynəlxalq mətbuatda yayımlanan məqalələr və reportajlarda qeyd olunub ki, Bakıda keçirilən tədbir qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək xüsusi hadisələr və təşəbbüslərlə yadda qalıb. Onlardan bəzilərini diqqətə çatdırırıq.

Dünyaca məşhur **"Euronews" telekanalı** hazırladığı süjeti "Bakıda COP29: İnkişaf etməkdə olan ölkələr üçün maliyyələşdirmə və özəl sektor" başlığı ilə təqdim edib. Qeyd edilib ki, dünyanın hər yerindən gələn nümayəndələr qlobal temperaturun yüksəlməsinin qarşısını almaq yollarını tapmaq və Paris Sazişi çərçivəsində verilən vədləri yerinə yetirmək ümidi ilə Azərbaycan paytaxtında toplaşıblar. Hazırkı sammit "maliyyə COP-u" adlandırılır, çünki 15 ildə ilk dəfə olaraq inkişaf etməkdə olan ölkələr üçün iqlim fəaliyyətinə dəstək məqsədilə maliyyələşdirmənin həcmi və strukturu araşdırılacaq.

Süjetdə qeyd edilib ki, ölkələr həmçinin atmosferə zərərli emissiyaları məhdudlaşdırmaq üçün daha effektiv milli planların işlənib hazırlanması üçün zəmin yaratmağa təşviq edilir. Ambisiyaları fəaliyyətə çevirmək əsas prioritet olaraq qalır. Bəs bu məqsədə necə çatmaq olar? Bu məsələ ilə bağlı COP29-un prezidenti Muxtar Babayev "Euronews" telekanalına deyib: "Biz bütün ölkələrin səylərini birləşdirməliyik, çünki yalnız konsolidasiya, bütün iştirakçıların yaxşı motivasiyası ilə uğur qazanmaq şansımız var. Hesab edirəm ki, Bakıda keçirilən tədbirin əsas rolu inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında, Cənubla Şimal arasında, Şərqlə Qərb arasında əlaqə yaratmaqdır".

İtaliyanın **"La Repubblica" qəzetinin** yazısında Ciorcia Meloninin Azərbaycanı sülh naminə iqlim təşəbbüsünün bir hissəsi kimi qiymətləndirilən COP29-un sədrliyi kimi görməkdən məmnunluğunu ifadə etdiyi bildirilib. Baş nazirin İtaliyanın təkcə bərpaolunan mənbələrə deyil, həm də təbii qaz, bioyanacaq, hidrogen və karbonun tutulması və saxlanmasına diqqət yetirdiyini qeyd edib. Ciorcia Meloni COP29-da yeni iqlim maliyyəsi hədəfini qəbul etməyin əhəmiyyətini bildirib: "Ümidlər Bakıyadır. İnkişaf etmiş ölkələrin iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində götürdükləri maliyyə öhdəliklərini yerinə yetirmələri gözlənilir. İnkişaf etməkdə olan ölkələr, xüsusilə də adaptasiya prioritetləri olan ölkələr layihələrini həyata keçirmək üçün maliyyə dəstəyinə ehtiyac duyurlar".

COP29 ilə bağlı mövzular Malayziya mediasında da geniş işıqlandırılıb. **"Bernama" milli xəbər agentliyi** Azərbaycan Prezidenti İlham Əliyevin Kuala Lumpur şəhərinin merini qəbul etməsi barədə məlumat yayıb. Bu barədə xəbər Malayziyanın digər media qurumlarının səhifələrində də yer alıb.

**"Astro Awani International" televiziya kanalı** Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə geniş müsahibə əsasında proqram yayımlayıb. Bundan başqa, Hikmət Hacıyevin Azərbaycanın "COP atəşkəsi" təşəbbüsü ilə bağlı məqaləsi "Astro Awani International" nəşrinin internet səhifəsində yerləşdirilib.

Ölkəmizin "COP atəşkəsi" təşəbbüsü ilə bağlı məlumatlar **"New Straits Times" qəzetində** də işıqlandırılıb. Qeyd edilib ki, COP29 iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş siyasətlərin müzakirəsi və həyata keçirilməsi üçün əvəzsiz platformadır. Bakı konfransının iştirakçıları iki həftə ərzində qlobal dekarbonizasiya hədəfi üçün yeni maliyyə resursları barədə müzakirə aparıblar. COP29-un əsas məqsədləri sırasında istixana qazlarının emissiyalarının azaldılması, qlobal istiləşmənin dramatik təsirlərinə uyğunlaşmaqda ən həssas ölkələrə dəstək olmaq üçün yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması var. Konfrans bir çox bölgələrdə təbii fəlakətlərə təkan verən qlobal temperaturun həyəcanverici artımına cavab vermək üçün unikal fürsət kimi qiymətləndirilib.

Yazılarda BMT-nin Baş katibi Antonio Quterreşin bu yaxınlarda qlobal istiləşmə və iqlim dəyişikliyi ilə bağlı dərhal hərəkətə keçmək üçün yeni çağırış etdiyi vurğulanıb. Qeyd edilib ki, ətraf mühit təşkilatları iqlim böhranı ilə mübarizənin həmişəkindən daha çox aktual olduğunu bildirirlər.

Moldovanın **"Noi.md" xəbər portalında** rus və rumın dillərində nəşr edilən "Moldova Prezidenti və Bakıda keçirilən COP29-un digər iştirakçıları Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə ideyalarını dəstəkləyirlər" sərlövhəli məqalədə nüfuzlu beynəlxalq konfransın təşkili, müzakirə olunan strateji mövzular barədə məlumat verilib. Məqalədə bildirilir ki, Bakıda ilk günlərdə COP29-un iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının sammiti baş tutub və burada Moldova Prezidenti Maya Sandu da çıxış edib. Sandu qlobal ekoloji problemlərin həllində inkişaf etməkdə olan ölkələrə dəstək verilməsinin zəruriliyi ilə bağlı sessiyanın əsas doktrinasını alqışlayıb. "Yaşıl zona" ərazisində bütün maraqlı tərəflərin - fəallardan və özəl təşəbbüslərin tərəfdarlarından tutmuş iri biznes və dövlət qurumlarının nümayəndələrinə qədər çoxşaxəli ünsiyyəti təşkil olunur. "Mavi zona"da sessiyalar, görüşlər və sammitlər keçirilir.

Yazıda daha sonra qeyd olunub ki, müxtəlif ölkələrin onlarla prezident və digər yüksəkvəzifəli şəxslərinin iştirak etdiyi tədbirdə Afrika, Latın Amerikası və xüsusilə kiçik ada dövlətlərindən olan ölkələr geniş nümayəndə ilə təmsil olunub. COP29-a evsahibliyi edən tərəfin əsas diqqəti ekoloji bərabərlik məsələsinə yönəlib. Forumun məqsədinə görə, həm karbohidrogenlərin istehlakında, həm də zərərli emissiyaların istehsalında lider olan inkişaf etmiş ölkələr iqlimə təzyiqə görə məsuliyyəti öz üzərinə götürməli və təbiətə dəyən zərərin ödənilməsində daha zəif ölkələrə kömək etməlidirlər.

Əslində, bütün COP konfranslarının məqsədi sənayedən əvvəlki dövrdə və 2015-ci il Paris Sazişinin tələb etdiyi kimi, karbon qazının miqdarını və qlobal temperatur artımını 1,5 dərəcə selsi ilə məhdudlaşdırmaqdır. Eyni zamanda, dövlət başçılarının, ətraf mühit fəallarının və ekspertlərin bəyanatlarına görə, COP29-dan bu problemin həlli istiqamətində konkret addımlar gözlənilir.

Almaniyanın bir sıra aparıcı media orqanı Bakının evsahibliyi etdiyi COP29-u geniş işıqlandırıb. **"Bild", "ZDF Heute", "Deutsche Welle", "Tagesschau", "Freitag", "Sueddeutsche" və digər media qurumları** Bakıda keçirilən dünya iqlim konfransına geniş yer ayırıb.

Türkiyənin "Şeni Şafak", "Akşam" qəzetlərində, "TRT Haber" telekanalında yayımlanan məqalə və reportajlarda COP29-un hazırda dünyada geniş münaqişə və böhranların, ciddi iqlim dəyişmələrinin yaşandığı dövrdə keçirilməsi xüsusi vurğulanıb. Dünyanın 200-ə yaxın ölkəsindən alim və siyasətçilərin bir araya gələrək qlobal istiləşmənin 1,5 dərəcənin altında saxlanması, iqlim dəyişmələrinə qarşı daha səmərəli mübarizənin aparılması ilə bağlı ciddi müzakirələr apardığı qeyd edilib.

İordaniyanın aparıcı media qurumları da Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) aid çoxlu sayda xəbər və videomaterial yayımlayıb. Ölkənin **"Petra" Dövlət İnformasiya Agentliyi, "The Jordan Times", "Al-Rai", "Əd-Dustur", "Ammon News", "Jordan News", "Roya News", "Al-Mamlaka" qəzet və saytlarında, eləcə də "Jordan Tv", "Roya Tv" və "Mamlaka Tv" televiziya kanallarında** COP29 ilə bağlı silsilə məqalə və videomateriallar dərc edilib. Xəbərlərdə COP29 çərçivəsində keçirilən Liderlər Sammitində İordaniya Kralı II Abdullahı təmsil edən Vəliəhd Şahzadə II Əl-Hüseyn bin Abdullahın tədbirdəki çıxışı, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə məlumat verilib.

Bundan əlavə, COP29-un Bakıda yüksək səviyyədə təşkil edilməsi, iqlim dəyişmələrinə dair danışıqların uğurla nəticələnməsi və COP29-la bağlı təşəbbüslərin dəstəklənməsi ilə bağlı müsbət rəylər oxuculara təqdim olunub. Azərbaycanın dünyanın prioritet qəbul etdiyi "yaşıl enerji" layihələri ilə bağlı məlumat verilib, ölkəmizin bu sahədə təcrübəsinin dünyaya çatdırılması məsələləri geniş işıqlandırılıb.

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Azərbaycanın "yaşıl təşəbbüsləri"nə qlobal dəstək






## Xarici investorların Azərbaycana marağı artıb

### Ölkəmiz nüfuzlu xarici şirkətlərlə bərpaolunan enerji layihələri ilə bağlı əməkdaşlıq edir








**COP29 bəşəriyyət ilə təbiət arasında sülhün bərqərar edilməsi üçün keçirilən möhtəşəm qlobal tədbirdir. Belə bir tədbirin ölkəmizdə keçirilməsi müasir Azərbaycanın tarixində unudulmaz hadisədir.**

Azərbaycanın əraziləri 30 ilə yaxın Ermənistanın işğalı altında qaldığı dövrdə həmin torpaqlarda ekologiyanın, biomüxtəlifliyin, yaşıllıqların vəhşicəsinə məhv edilməsi, yandırılması, təbii sərvətlərimizin talan olunması dünya ictimaiyyətinə bəllidir. Ermənistanın ölkəmizə təcavüzü zamanı transsərhəd çayların qarşısının alınması və çirkləndirilməsi, su anbarlarının baxımsızlıqdan qəzalı vəziyyətə düşməsi ilə ətraf rayonlarda yaşayış məntəqələrinin və yüz minlərlə əhalinin sudan məhrum edilməsi ekoloji terror idi.

Otuz ildən sonra Azərbaycan ərazilərini erməni işğalından azad etməklə, təcavüzkar ölkənin davamlı ekoloji terroruna da son qoydu. Bu inkaredilməz fakt qarşısında qalan, hətta Azərbaycanla dost münasibətdə olmayan ölkələr belə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər tədbirin ölkəmizdə keçirilməsi ilə əlaqədar yekdil qərar qəbul etdilər. Verilən qərar beynəlxalq ictimaiyyətin Azərbaycana böyük hörmət və etimadının, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının ən yaxşı nümunəsidir.

Özünün enerji müstəqilliyini tam təmin edən Azərbaycan, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçılarından birinə çevrilib. Planetin xəritəsinə diqqət etsək görərik ki, dünyada zəngin enerji ehtiyatları olan ölkələrin sayı heç də az deyil. Məsələ burasındadır ki, onların əksəriyyəti bu təbii sərvətdən heç də inkişaf naminə yararlana bilməyib, əksinə, təbii sərvətləri əsl baş bəlalarına çevrilib. Azərbaycan isə neft-qaz ehtiyatlarından səmərəli istifadə etməklə dünyada uğurlu bir nümunənin əsasını qoyaraq neft kapitalını insan kapitalına müvəffəqiyyətlə çevirməyi bacaran bir ölkə statusunu qazanıb.

Hazırda ölkəmiz zəngin təbii ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan biridir. Azərbaycan milli maraqları ehtiva edən müstəqil siyasəti sayəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Azərbaycanın neft-qaz ölkəsi kimi inkişafı, "yaşıl enerji" ilə bağlı layihələrin həyata keçirilməsinə, "yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqlinə geniş imkanlar açır. COP29-un Azərbaycanda keçirilməsi həm ölkədə "yaşıl enerji" layihələrinə uğurlu xarici investisiyaların cəlb edilməsinə, həm də BMT-nin dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına bir addım da yaxınlaşdırır. "Yaşıl iqtisadiyyat"a keçid və "yaşıl enerji" təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi isə bu istiqamətdə təşəbbüsləri stimullaşdıran başlıca amildir.

Azərbaycanın külək və günəş resursları və biokütlə, geotermal və su-elektrik enerjisinin istehsalı üçün böyük potensialı var. Əsasən, neft-qaz sektorunun inkişafı hesabına sürətlə böyüyən iqtisadiyyata malik olan və enerji istehsalının 90 faizdən çoxu yanacaq mənşəli olan ölkəmizin "yaşıl enerji"yə keçid etməsi perspektivdə iqlim dəyişikliyi ilə mübarizəyə önəmli töhfə olacaq.

Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20,2 MVt gücündə 4 su-elektrik stansiyası artıq istismara verilib. Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt "Xudafərin", 40 MVt "Qız qalası") olmaqla iki su-elektrik stansiyasının tikintisi davam etdirilir. Həmçinin Laçın-Kəlbəcər ərazisində təxmini olaraq 100 MVt gücündə tikintisi planlaşdırılan külək-elektrik stansiyası layihəsinin reallaşdırılması işğaldan azad edilmiş ərazilərdə "Yaşıl Enerji Zonası"nın yaradılmasına əlavə töhfə verəcək.

2020-ci ildən Azərbaycan "Masdar", "ACWA Power", BP, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", Total Energies, "Nobel Energy", "A-Z Czech Engineering" və "Baltech" şirkətləri ilə bərpaolunan enerji layihələri ilə bağlı əməkdaşlıq edir. 2023-cü il oktyabrın 26-da BƏƏ-nin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyası olan 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib və ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kVt - saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azalacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb.

2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sazişə əsasən, Xəzər dənizində istehsal olunacaq "yaşıl enerji"nin Avropaya ixracı nəzərdə tutulur. 2023-cü il iyunun 1-də Energetika Nazirliyi ilə Çinin "China Gezhouba Group Overseas Investment" şirkəti arasında Azərbaycanda 2 QVt gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair anlaşma memorandumu imzalanıb. Naxçıvanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı "Nobel Energy Management", "TotalEnergies" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 1000 MVt-dan çox olan "yaşıl enerji" layihələri ilə əlaqədar müqavilələr imzalanıb.

Energetika naziri Pərviz Şahbazov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunmuş "Nüvə enerjisi də daxil olmaqla aşağı karbon texnologiyasının maliyyələşdirilməsi" adlı tədbirdə çıxışı zamanı qeyd edib ki, "COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin dünyaya yeni rakursda təqdimatı fürsəti yaradır. Qətiyyətlə deyə bilərik ki, ölkəmiz yaxın gələcəkdə beynəlxalq aləmdə yalnız neft və qaz ixracatçısı kimi yox, həm də "yaşıl enerji" ixracatçısı kimi özünü təsdiq edəcək".

Ölkəmizdə bərpaolunan enerji resursları üzrə konkret layihələrin qısa müddətdə həyata keçirilməsi üçün bütün imkanlar səfərbər edilib. Azərbaycanın enerji ehtiyatları ilə zəngin ölkə olduğunu deyən nazir qeyd edib ki, ölkəmiz öz enerji ehtiyatlarını beynəlxalq bazara çıxarmaqda davam edir: "Biz bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsinə də çox diqqət yetirmişik. Biz 2030-cu ilə qədər enerji istehsalımızda bərpaolunan mənbələrin payını 30,5 faizə çatdırmağı və bunu daha da artırmağı hədəfləyirik".

Ölkəmizdə bərpaolunan enerji istehsalı ailəsinə "Qobustan" Günəş-Elektrik Stansiyasının adını da sala bilərik. COP29 çərçivəsində Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) dəstəyi ilə həyata keçirilən 100 MVt gücündə "Qobustan" Günəş-Elektrik Stansiyasının tikintisi üzrə hərracın qalibi elan olunub. Hər kilovat-saat elektrik enerjisi üçün ən aşağı təklif verən "Universal International Holdings Limited" şirkəti hərracda qalib gəlib. 2027-ci ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il təxminən 260 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 57 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 124 min ton azaltmağa imkan verəcək.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, "100 MVt gücündə "Qobustan" Günəş-Elektrik Stansiyası üzrə hərracın uğurla başa çatması Azərbaycanın bərpaolunan enerji sektorunda daha bir mühüm nailiyyətidir. Çinin "Universal International Holdings Limited" şirkətinin qalib gəlməsi, ölkəmizin "yaşıl enerji" layihələrinə beynəlxalq investorların artan marağını və inamını bir daha təsdiq edir. AYİB-in dəstəyi ilə həyata keçirilən və nəticələri COP29 çərçivəsində elan olunan bu hərrac, Azərbaycanın beynəlxalq əməkdaşlığa, davamlı inkişaf məqsədlərinə və "yaşıl enerji" potensialının reallaşdırılmasına sadiqliyini nümayiş etdirir. Bu uğur, enerji keçidi prosesimizi sürətləndirməklə yanaşı, qlobal iqlim hədəflərinə töhfəmizi daha da gücləndirəcək".

Avropa Yenidənqurma və İnkişaf Bankının Qafqaz üzrə regional rəhbəri Alkis Vryenios Drakinos isə bildirib: "Azərbaycanın ilk bərpa olunan enerji hərracının uğurla başa çatması bizim üçün böyük nailiyyətdir. AYİB olaraq, "yaşıl enerji" layihələrinin maliyyələşdirilməsi və bu istiqamətdə siyasətlərin dəstəklənməsi üzrə uzun illər davam edən işlərimizin nəticəsini görməkdən məmnunuq. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəfləri təbrik edirik".

Qeyd edək ki, hərrac Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli fərmanı ilə təsdiq edilmiş "Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"na uyğun olaraq keçirilib.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin sədri Cavid Abdullayev COP29 çərçivəsində jurnalistlərə açıqlamasında xüsusi olaraq vurğulayıb ki, Azərbaycanda ilk bərpa olunan enerji hərracında iştirak üçün 130-dan çox şirkətə dəvət göndərilib. Hərrac prosesi iki mərhələdən ibarət olub və ümumilikdə 6 saat davam edib. Şirkətlər tərəfindən təqdim edilən sənədlərin, eyni zamanda məlumatların qiymətləndirilməsi aparılıb və təkliflər sorğusu mərhələsində iştirak edəcək hərrac iştirakçıları müəyyənləşdirilib. 8 şirkət ixtisas uyğunluğu tələblərinə uyğun hesab edilərək növbəti mərhələyə (RFP) keçib. Təkliflərin təqdim edilmə tarixi bəzi iddiaçıların müraciətləri əsasında 21 oktyabr 2024-cü il tarixindən 28 oktyabr 2024-cü il tarixinə qədər uzadıldı. 13 noyabr tarixində siyahıya alınmış iddiaçılar elan edilib. Hərracın dinamik hissəsi 20 noyabr tarixində keçirilib. Altı saat davam edən hərracda hər kilovat-saat elektrik enerjisi üçün ən aşağı təklif verən (1 kVts üçün 3,540 ABŞ/sent) "Universal International Holdings Limited" şirkəti qalib gəlib. 2024-cü il noyabrın 21-də COP29 tədbiri çərçivəsində qalib şirkətlə müvafiq sənəd imzalanıb.

C. Abdullayev əlavə edib ki, 20-25 gün ərzində müqavilələr tam yekunlaşacaq və elektrik stansiyasının daha dəqiq istismara verilmə tarixi məlum olacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*






COP29 Baku Azerbaijan

# Bakıdan dünyaya ədalət çağırışı










## İsveç COP29 iqlim sammitində tənqidə məruz qalıb

**Bakıda keçirilən COP29 iqlim sammitində İsveçin iqlim və ətraf mühit naziri Romina Purmohtari ölkə şirkətlərinin dayanıqlı inkişafa keçiddə digərləri üçün tərəfdaş kimi təşviqinə yönəlmiş yeni strategiyanı təqdim edib. O vurğulayıb ki, "yaşıl enerji" və davamlı istehsal kimi sahələrdə İsveç innovasiyaları iqlim dəyişikliyi ilə mübarizədə əsas rol oynaya bilər.**

AZƏRTAC xəbər verir ki, biznesə önəm verilməsi fəalların və ekoloji təşkilatların tənqidinə səbəb olub.

Nepallı iqlim fəalı Omkar Subedi, İsveçi iqlim fəlakətlərindən əziyyət çəkən ölkələrdən məkan oğurlamaqda ittiham edərək, iqlim böhranının artıq ölüm-dirim məsələsinə çevrildiyini qeyd edib.

"Biz fəlakətlər nəticəsində milyonlarla dollar və minlərlə insan həyatını itiririk. Siz isə gözəl şirkətlərinizi gətirib dəbdəbəli pavilyonlarda sərgiləyirsiniz", - deyə O.Subedi bildirib.

Stokholm İsveç Təbiəti Mühafizə Cəmiyyətin baş katibi Karin Leksen bildirib ki, ölkə diqqəti kommersiya mənfəəti əldə etməyə yönəldib.

Eyni zamanda İsveç əvvəllər lider mövqelərini tutduğu "Climate Change Performance Index" (CCPI) qlobal iqlim reytinqində mövqelərini itirməkdə davam edir. Səbəb kimi iqlim siyasətindəki dəyişikliklər, məsələn, elektromobillər üçün bonusların və hava nəqliyyatına verginin ləğvi olub.

Bu dəyişikliklərdən narahat olan Avropa Parlamentinin üzvü Emma Visner hökumətin iqlim siyasətindən imtina etdiyini, onu araşdırmalarla əvəz etdiyini və heç kimin bunun fərqinə varmayacağını düşündüyünü qeyd edib.

Nazir Romina Purmohtari iqtisadi artım və iqlim məsuliyyəti arasındakı əlaqəni vurğulayan yeni strategiya ilə fəxr etdiyini bildirib.

"Biz zəngin ailələr üçün yeni avtomobillərin alınmasını maliyyələşdirən elektrik avtomobilləri üçün bonusları ləğv etdik", - deyə o, İsveç şirkətlərinin emissiyaları azaltmaqla yanaşı, digər ölkələrin rifahına da töhfə verə biləcəyini vurğulayıb.

Bununla belə, tənqidçilər bu yanaşmanın İsveçin iqlim siyasəti üzrə liderliyinə xələl gətirərək onu beynəlxalq səhnədə daha az iddialı oyunçuya çevrilməsindən qorxurlar.

## Fəallar qalıq yanacaqlardan imtinaya və iqlim ədalətinə çağırış ediblər

**İctimai təşkilatların nümayəndələri və iqlim fəalları qlobal istiləşmə ilə mübarizə üçün ambisiyalı qərarların olmamasından və ölkələrin qalıq yanacaqlardan imtina üzrə yeni plan hazırlaması tələbindən narazılıqlarını bildiriblər.**

"Report" xəbər verir ki, bunu "Earth Island Institute" nümayəndələri COP29 çərçivəsində keçirilən mətbuat konfransında bildiriblər.

İştirakçılar vurğulayıblar ki, əhəmiyyətli maliyyə və qətiyyətli addımlar olmadıqca dünyanı ekoloji fəlakət gözləyir.

Qalıq yanacaqların yayılmaması haqqında müqavilənin qlobal qaşılıqlı fəaliyyət üzrə direktoru Harcit Singh bildirib ki, inkişaf etmiş ölkələr öz öhdəliklərindən yayınırlar.

Botsvanalı iqlim ədaləti fəalı Tato Gubaytsi iqlim böhranının artıq milyonlarla insanın həyatını necə məhv etdiyindən danışıb: "Qlobal Şimalın bir çox ölkələri üçün iqlim böhranı uzaq təhlükə kimi görünə bilər, amma bizim üçün bu reallıqdır. Bizə kreditlər şəklində deyil, icmalarımızı qorumağa imkan verəcək qrantlar şəklində maliyyə lazımdır".

Onun sözlərinə görə, zəngin ölkələrin öhdəliklərini yerinə yetirməkdən imtina etməsi təkcə Afrika ölkələrinə deyil, Paris Sazişinin ruhuna da xəyanətdir.

"Sakit Okean İqlim Döyüşçüləri" hərəkatının nümayəndəsi Cozef Sekulu danışıqlardakı disbalansı qeyd edib: "COP29-da korporasiyaların maraqlarını müdafiə edən 1773 qalıq yanacaq lobbisti görürük. Neft və qaz lobbisinin real gücünü əks etdirən belə rəqəmlər olduğu halda biz necə ambisiyalara ümid edə bilərik? Biz hər il 1 trilyon dollar qrant tələb edirik. Bu, xeyriyyəçilik deyil - bu, varlı ölkələrin qaytarmalı olduğu borcdur".

"Fridays for Future" hərəkatının fəalı Ayşka Nacib alim, fəal və s. tərəfindən imzalanmış açıq məktub təqdim edib. "Biz liderlərə xatırlatmaq üçün məktub kampaniyası başlatdıq: biz uçurumun kənarındayıq. İqlim ədalətsizliyi aradan qaldırılmalıdır".

## "İqlim dəyişikliyi ilə mübarizəyə ayrılan vəsaitlər düzgün xərclənilmir"

"İqlim dəyişikliyi ilə mübarizədə ayrılan vəsaitlər lazımi yerə xərclənilmir".

Bunu Filippindən olan proqram məsləhətçisi Tetet Lauron COP29 çərçivəsində təşkil edilmiş tədbirdə bildirib.

Onun sözlərinə görə, artıq iqlim dəyişikliyi ilə mübarizə aparan icmaları dəstəkləmək üçün dövlət vəsaitlərinə ehtiyac var: "Bununla yanaşı, inkişaf etmiş ölkələr bizə borcludur. Burada xeyriyyəçilik üçün toplaşmışıq, amma həm də iqliminiz üçün tarixi ekoloji borcumuzu toplamaq üçün buradayıq. İnkişaf etmiş ölkələr 100 milyard ABŞ dolları ilə bağlı mesajını heç bir şəkildə müsbət qarşılamadılar. COP29-un bitməsinə saatlar qalıb. Ölkələr iqlim dəyişikliyi ilə mübarizədə öz öhdəliklərini yerinə yetirməlidirlər".








# Lüksemburq Deputatlar Palatasının Fransa niyyətli qətnaməsi

**COP29-a ev sahibi seçilməsi ölkəmizin dünya miqyasında nüfuzunun günbəgün daha artmasının, eləcə də qlobal əhəmiyyətli məsələlərin həllində hər zaman yaxından iştirak etməsinin nəticəsi idi.**

Dünyanın 200-dək ölkəsini təmsil edən nümayəndələrin iştirakı ilə keçirilən Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ilk günündən ev sahibinin - Azərbaycanın yüksək təşkilatçılıq bacarığı nümayiş etdirməsi seçimin çox düzgün edildiyini təsdiqlədi.

Azərbaycan indiyədək də bir çox böyük və əhəmiyyətli beynəlxalq tədbirlərin keçirildiyi məkan olmuşdu. Bu sahədə geniş təcrübəyə malik idi. Lakin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyası dünyada çox böyük və ən mötəbər tədbir hesab olunur. COP-un məqsədi bütün dünya üçün olduqca əhəmiyyətlidir. Bəşəriyyətin gələcəyi üçün təhdidə çevrilmiş iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılması, qlobal problemin həlli istiqamətində əməkdaşlığın genişləndirilməsi, birlikdə çıxış yollarının aranması və digər mühüm mövzular bu beynəlxalq tədbirin keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini deməyə əsas verir. Odur ki, hər bir dövlət üzərinə düşən məsuliyyəti nəzərə almalı, iqlim dəyişikliyinin yaratdığı problemlərin həllinə öz töhfələrini verməlidir.

Ancaq təəssüf ki, belə bir həssas və vacib məsələdə də qərəzkarlığını, fitnəkarlığını nümayiş etdirənlər oldu.

Ölkəmizin dünyada gündən-günə yüksələn nüfuzunu, Cənubi Qafqazın aparıcı dövlətinə çevrilməsini gözü götürməyənlər yenə də suyu bulandırmağa cəhd etdilər. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərindən sonra işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi genişmiqyaslı tikinti-bərpa, quruculuq işlərindən, Ermənistanla sülhün real görünməsindən əndişələnən, planları boşa çıxan Fransa BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirə evsahibliyi edən Azərbaycanın əleyhinə aparılan çirkin kampaniyada xüsusi fəallıq göstərir.

Lakin Cənubi Qafqazda müharibə alovunu körükləmək üçün Ermənistandan istifadə etməyə çalışan Fransanın mənfur planlarının əksinə olaraq, Azərbaycandan dünyaya sülh və əmin-amanlıq içərisində əməkdaşlıq etmək, birlikdə bəşəriyyəti təhlükələrdən qorumaq çağırışları səslənir.

Bütün bunlar yalnız öz mənafeyini güdən, məqsədi gərginlik yaratmaq olan Emmanuel Makron hökumətini qeyzləndirdi. Ancaq bu dəfə də hiddəti, qəzəbi, qərəzi ilə Azərbaycanın xeyirxah əməllərinin qarşısını ala, xoş niyyətinin həyata keçirməsinə maneçilik törədə bilmədi.

Ölkəmiz əleyhinə səfərbər olan bu riyakar qüvvələrə Prezident İlham Əliyev noyabrın 12-də COP29-un Liderlər Sammitinin açılış mərasimində və noyabrın 13-də COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində çıxışları zamanı bir daha əsaslı şəkildə cavab verdi.

Noyabrın 20-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırıldı. Görüş zamanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəfə alınmasına etiraz edildi. Bu xüsusda, Azərbaycanın evsahibliyi etdiyi BMT-nin bu mötəbər tədbirinin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa Fransa tərəfindən təşviq edilməsinin, eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulunun qəbuledilməz olduğu bildirildi.

Eyni zamanda Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu diqqətə çatdırıldı. Azərbaycanı hədəfə alan, həmçinin normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb edildi.

Ərazi bütövlüyünü və suverenliyini bərpa edərək erməni separatizminə son qoyan, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını öz gücü hesabına yerinə yetirən ölkəmizin müstəqil siyasət yürütməsi, prinsipial mövqeyi Fransa başda olmaqla erməni lobbisinin sözçüsünə çevrilənlərin əsl simalarını ortaya çıxarır.

Emmanuel Makron hökumətinin və erməni lobbisinin anti-Azərbaycan sərsəmləmələrinin səngimədiyi, erməni separatizminə son qoymuş ölkəmizə qarşı hər vasitədən istifadə etməyə səy göstərdiyi məlumdur. Dünyada heç bir mövqeyə və nüfuza malik olmayan "cırtdan" dövləti - Lüksemburqu da bu kampaniyaya qoşublar. Ermənistanın əsas havadarı olan Fransanın əlaltısına çevrilmiş, diktəsi ilə hərəkət edən Lüksemburqun Azərbaycana qərəzli münasibətinin səbəbi budur.

İkili standartları rəhbər tutan Lüksemburq Deputatlar Palatasında bu il noyabrın 20-də Qarabağda separatçı hərəkətlərə yol verən, Azərbaycan torpaqlarında terror aktlarına imza atan şəxslərin azad olunmasını tələb edən "qətnamə" qəbul edilib. Heç bir hüquqi əsası olmayan bu qətnamə, sadəcə, ölkəmizə qarşı yönəlmiş siyasi riyakarlığın bariz nümunəsidir.

Qəbul edilən "qətnamə"də Azərbaycan Xarici İşlər Nazirliyinin 26 avqust 2024-cü il tarixli qərarı ilə lüksemburqlu deputatlar Oktav Moder və İv Kruxteni də daxil olmaqla AŞPA-nın 76 deputatını "arzuolunmaz şəxs" (persona non grata) elan etməsinə qarşı bənd də salınıb. Rəsmi Bakıdan bu şəxslərə qarşı tətbiq etdiyi qadağaları götürmək tələb olunub.

Əslində, bu qətnamədəki böhtanla, qərəzlə Lüksemburq parlamentariləri ilk dəfə deyil ki, mövqelərini sərgiləyirlər. Lüksemburqda anti-Azərbaycan əhvali-ruhiyyə çoxdan hiss olunur. Hələ bu ilin mayında Ermənistana səfər edən Lüksemburqun Deputatlar Palatasının sədri də bu ölkənin parlamentində çıxışı zamanı Azərbaycanın ünvanına əsassız ittihamlar səsləndirib. Şübhəsiz ki, həmin səfər də Fransanın göstərişi ilə baş tutmuşdu.

Bir faktı da diqqətə çatdıraq ki, Lüksemburqda fransız dili əsas dil kimi qəbul edilib. Palatanın separatizmə və terrorizmə dəstək verən qətnaməsinin kimlərin təsiri ilə verildiyini təsdiq edən faktlardan biri də budur. Bu "qətnamə"də erməni lobbisinin, Emmanuel Makron hökumətinin təşviqi açıq-aydın görünür. Lüksemburq parlamentariləri növbəti dəfə ikiüzlü siyasət yürütdüklərini, maliyyə dəstəyi və Fransanın buyruğu ilə hərəkət etdiklərini bir daha təsdiqlədilər.

Görünür, Ermənistanın Azərbaycan ərazilərini uzun illər işğalı altında saxlamasına, azərbaycanlılara qarşı qırğınlar, soyqırımları törətməsinə, doğma yurdlarından didərgin salmasına laqeyd qalan Lüksemburq Deputatlar Palatasının üzvləri də erməni lobbisindən daha çox maliyyə yardımı almaq uğrunda özlərini oda-közə vurublar.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# COP-ların ən mükəmməli 29-cusu oldu

















## COP29 uğurlu təcrübə kimi tarixə düşəcək




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi ölkəmizin növbəti diplomatik və siyasi uğuru oldu. Bu həm də Azərbaycanın yüksək nüfuzunun göstəricisinə çevrildi.**

Azərbaycan bundan əvvəl bir çox mötəbər beynəlxalq tədbirlərə, müxtəlif idman yarışlarına yüksək səviyyədə evsahibliyi edib. Bu mənada COP29 da istisna deyil. Xatırladaq ki, COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar ötən ilin sonunda Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib və dövlətimizin başçısı bütün lazımi tapşırıqları verdikdən sonra BMT tədbirinə hazırlıq işlərinə başlanıb.

Bu, mürəkkəb və yüksək texnoloji proses olsa da, bütün işlər davamlılıq, əlçatanlıq və inklüzivlik prinsipləri nəzərə alınmaqla həyata keçirilib. COP İqlim Sammiti tarixində ilk dəfə olaraq həm texniki, həm də kollektiv məsələləri dəstəkləmək üçün Əməliyyat Şirkəti tərəfindən yaradılmış xüsusi mərkəz də BMT tərəfindən təsdiq edilib.

Beynəlxalq ekspertlər qeyd edirlər ki, Azərbaycan tədbirə evsahibliyi edən əvvəlki ölkələrdən fərqlənir. Belə ki, ölkəmizin iqlim dəyişikliyi ilə bağlı qərarların qəbul ediləcəyi COP29-a hazırlaşmaq üçün bir ildən az vaxtı olub. Məhdud vaxta baxmayaraq, Azərbaycan ev sahibi olan ölkə kimi hazırlıq prosesində bütün aspektlərdə ciddi irəliləyiş əldə edib. Konfransda uğurlu nəticələrin əldə olunması üçün təşkil olunan tədbirlər də yüksək səviyyədə keçirilib.

COP29-un sədrliyi İqlim Şəffaflığı üzrə Bakı Qlobal Platformasını təqdim edib və ikiillik şəffaflıq hesabatının hazırlanmasında digər tərəflərə nümunə olmağı öhdəsinə götürüb. Əsas prioritetlər istiləşmənin 1,5 dərəcə hədəfinə nail olmaq, qlobal istiləşməni məhdudlaşdırmaq və investisiya planlarının gedişindən asılı olaraq davamlı inkişaf məqsədlərini həyata keçirməkdir.

Noyabrın 11-22-də sessiyada iştirak edən bütün tərəflər perspektivli həll yolları təklif ediblər. Bakıda iqlim dəyişikliyi ilə mübarizəyə ayrılan vəsaitin həcminin artırılması yolları, adaptasiya, itki və zərərin ödənilməsi üçün fondun fəaliyyətinin davam etdirilməsi kimi mühüm məsələlər ətrafında müzakirələr aparılıb. Əsas diqqət "yaşıl texnologiya"ların yayılmasına, yaxşı idarəetmənin inkişaf etdirilməsi və ictimai xidmətlərin ətraf mühitə və sosial davamlılığa uyğunlaşdırılmasında beynəlxalq əməkdaşlığın əhəmiyyətinə yönəldilib.

COP29 çərçivəsində ilk dəfə olaraq Su üzrə İqlim Fəaliyyəti Bəyannaməsi qəbul edilib. Bəyannaməni COP29 prezidenti Muxtar Babayev və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen imzalayıblar.

"Bakı Su Dialoqu" platforması iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması, çirklənmə və səhralaşma ilə mübarizədə qlobal əməkdaşlığı genişləndirmək məqsədi daşıyır. Qəbul edilən Su Bəyannaməsi bu istiqamətdə yeni tərəfdaşlıqların qurulmasına və siyasət tədbirlərinin gücləndirilməsinə töhfə verəcək.

COP29 çərçivəsində Beynəlxalq Maliyyə Korporasiyası (IFC) Respublika Bankını dəstəkləmiş və Azərbaycanda "yaşıl layihə"lərin maliyyələşdirilməsinə böyük məbləğdə kredit ayırmışdır. Müqaviləyə əsasən, beynəlxalq maliyyə institutu banka 4 il müddətinə 20 milyon ABŞ dolları məbləğində kredit verəcək. Kredit vəsaitləri mikro, kiçik və orta sahibkarlıq subyektlərinin, ekoloji cəhətdən təmiz texnologiyalar və istehsal üsullarını tətbiq edən aztəminatlı ailə bizneslərinin dəstəklənməsi üçün istifadə olunacaq.

Bu, yeni iş yerləri yaradacaq, sosial dayanıqlığı yaxşılaşdıracaq və "yaşıl texnologiya"ların daha geniş əhali üçün əlçatan olmasını təmin edəcək. Bu cür təşəbbüslərin dəstəklənməsi davamlı iqtisadi artıma töhfə verəcək və regionların inkişafına təkan verəcək, onların qlobal ekoloji transformasiya proseslərinə inteqrasiyasını təmin edəcək.

Bakı COP29-un təşkilinə və evsahibliyinə yaxşı hazırlaşıb və bu gün haqlı olaraq öz əməyinin bəhrəsini görür. Azərbaycan paytaxtına ilk dəfə gələn qonaqlar ölkəmiz, tariximiz, adət-ənənələrimiz və mədəniyyətimiz ilə tanış olmaq üçün unikal imkan əldə ediblər. Bakıda qurulan yeni əlaqələr isə gələcəkdə ya biznes layihələrinə çevrilə, ya da mədəniyyətlərarası dialoq amillərini gücləndirə bilər.

BMT-nin Baş katibi Antonio Quterreş vurğulayıb ki, Bakıda yeni iddialı iqlim maliyyəsi sazişi bağlanmalıdır: "Bütün mübahisəli məsələlər üzrə iddialı və balanslaşdırılmış paketin yaradılması üçün hər cür səy göstərilməlidir. Uğursuzluq yolverilməzdir. Ötən həftə beynəlxalq inkişaf bankları aşağı və orta gəlirli ölkələr üçün iqlim maliyyəsinin əhəmiyyətli dərəcədə artdığını açıqladı. Bu məbləğ 120 milyard dollara çatacaq. 2030-cu ilə qədər hər il özəl sektordan daha 65 milyard dollar cəlb ediləcək".

COP29 baş icraçı Direktoru Elnur Soltanovun dediyinə əsasən, əsas nailiyyət Paris Sazişinin 6-cı maddəsi üzrə razılaşma olub: "Mövcud dinamikanı nəzərə alsaq, biz inanırıq ki, karbon bazarları 2025-ci ildə fəaliyyətə başlaya bilər. Bu, həm də iqlim maliyyələşdirməsinin mühüm hissəsidir. Karbon bazarlarından əldə olunan gəlirin bir hissəsi adaptasiya proseslərinə sərf olunacaq".

"COP29-da iştirak etmək üçün 77 mindən çox insan qeydiyyatdan keçib. Onların 70 faizi aktiv şəkildə COP29-da iştirak ediblər". Bunu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası təşkilatının katibliyinin (UNFCCC) proqramların koordinasiyası üzrə meneceri Niklas Svenningsen "Gələcəyin qurulması: Azərbaycanda və dünyada COP29-un mirası" mövzusunda keçirilən tədbirdə deyib. "Hesab edirəm ki, Dubayda keçirilən COP28-dən sonra ikinci ən böyük COP tədbiri Bakıda baş tutdu. Bundan əvvəlki COP təşkilatçılarının tədbirə hazırlaşmaq üçün 2-3 il vaxtları olub. Lakin Azərbaycanın COP tədbirinə hazırlaşmaq üçün 10 ay vaxtı olub. Bu kiçik zaman ərzində ərsəyə gələn tədbir heyrətamizdir. Bunun üçün Azərbaycan hökumətini təbrik edirəm. COP29-da 400-ə yaxın müşahidəçi, 200-ə yaxın təşkilat iştirak edib", - deyə o bildirib. Niklas Svenningsenin sözlərinə görə, COP29-un yekunlarına dair qərarlar ancaq yekdilliklə qəbul edilə bilər: "Hesab edirəm ki, biz qısa müddət ərzində - sabaha qədər, bəlkə də daha uzun müddətə razılığa gələ biləcəyik. Ancaq ümid edirəm ki, bu günü başa vuracağıq".

"Bu COP tədbiri son deyil, başlanğıcdır". Bunu isə "GLOBE International" şirkətinin baş direktoru Malini Mehra "Gələcəyin qurulması: Azərbaycanda və dünyada COP29-un mirası" mövzusunda keçirilən tədbirdə deyib. O bildirib ki, COP29-da bir çox məsələ müzakirələr olunub: "Azərbaycan bu tədbirlə bağlı öz səriştəsini göstərdi. 10 ayı əhatə edən təşkilatçılıq və baş tutan uğurlu tədbir həm də bütün cəmiyyətin göstərdiyi səylərin nəticəsidir. Mən burada könüllülərin fəaliyyətini də izlədim. Bunu ilk dəfə Pekində, Çində görmüşdüm. Gənclərin belə qlobal tədbirlərə cəlb edilməsini vacib hesab edirəm. Eyni zamanda əlçatanlıq baxımından da COP29 digərlərindən fərqlənirdi. Britaniyada baş tutmuş COP tədbirində əlçatanlıqla bağlı müəyyən problemlər var idi. Azərbaycanda isə təşkilatçılıq yüksək səviyyədə idi. Ümumilikdə danışıqların yaxşı keçdiyini hesab edirəm".

Təəssüf ki, ölkəmizin qazandığı böyük uğurlar bəzi bədxah qüvvələri narahat edir. Azərbaycanın COP29-a evsahibliyi etməsi ilə bağlı bəzi dövlətlər və onların təsiri altındakı qruplar tərəfindən qarayaxma kampaniyası başladıldı. Özünü müstəqil QHT adlandıran bəzi təşkilatlar və siyasətçilər ölkəmiz haqqında iftira və böhtan məlumatların yayılması üçün sanki bir-biri ilə yarışırdılar. Amma bu cür cəhdlər heç bir nəticə vermədi, Azərbaycanı və onun dünya səhnəsindəki mövqeyini zəiflədə bilmədi.

Azərbaycan yüksək səviyyədə təşkil edilən COP29-da bir tərəfdən qlobal iqlim problemlərinin həllinə dair konkret addımlar atır, digər tərəfdən dünya xalqlarına dövlətimizin sülhsevər və inkişaf yolundakı məqsədlərini nümayiş etdirir. Bütün bu fəaliyyətlər ölkəmizin bu mühüm tədbirin təşkilindəki rolunu möhkəmləndirir.

Ölkəmiz bu təşəbbüslə yalnız iqlim dəyişikliyinə qarşı mübarizəyə deyil, həm də qlobal sülh və təhlükəsizliyə dəstək vermiş oldu. Prezident İlham Əliyev bu cür mənfur kampaniyalara qarşı verdiyi cavablarda bəyan edib ki, COP29-a qarşı yönəlmiş boykot çağırışlarına baxmayaraq, tədbirə 196 ölkədən 77 min nəfər iştirakçı qeydiyyatdan keçib. Onların arasında 80-dən çox prezident, vitse-prezident və baş nazir də olub. Bu, Azərbaycanın qlobal səviyyədəki əhəmiyyətini bir daha nümayiş etdirib.

Ümumilikdə, COP29 Azərbaycana dünya miqyasında yüksək hörmət qazandırmaqla yanaşı, ölkəmizin iqlim siyasətindəki fəallığını və beynəlxalq arenada güclü mövqeyini bir daha göstərib. Bu tədbir iqlim dəyişikliyi ilə mübarizəyə dair dünya liderlərinin bir araya gəlməsi üçün vacib bir platforma olmaqla yanaşı, həm də Azərbaycanın dünya miqyasında artan nüfuzunun təntənəsidir.

Əminliklə deyə bilərik ki, COP29 Azərbaycanın təşkil etdiyi genişmiqyaslı və çoxtərəfli proses kimi sonrakı oxşar platformalar üçün uğurlu təcrübə nümunəsi olaraq tarixə düşəcək.

Bakıda keçirilən bu mötəbər qlobal tədbir 196 ölkədən 77 min nümayəndəni bir araya gətirərək Azərbaycan tarixində ən böyük hadisələrdən birinə çevrildi. İndi Braziliya estafeti öz üzərinə götürür və ölkəmizin təcrübəsindən də yararlanaraq eyni dərəcədə genişmiqyaslı və əlamətdar tədbirə evsahibliyi etməyi planlaşdırır. COP30 bu dövlətin Belen şəhərində keçiriləcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*















COP29 Baku Azerbaijan

# Qarabağ Zəfərindən qlobal "yaşıl həmrəyliy"ədək

## "Zəfərimiz kimi COP29-un da əks-sədası uzun illər kəsilməyəcək"

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) yekunlaşmaq üzrə olsa da, "yaşıl zona" insanlarla dolu idi. Burada 196 ölkədən gəlmiş müxtəlif irqli, müxtəlif dilli, müxtəlif xarakterli insan qələbəliyi vardı. Bir yanda panel müzakirələr gedir, o biri yanda əyləncəli-musiqili proqram nümayiş olunur, başqa bir tərəfdə hansısa ölkənin nümayəndəsi mətbuata müsahibə verirdi. Sakit bir guşədə oturub kitab oxuyan, yaxud telefonla danışanlar da az deyildi.**



Səssiz bir guşədə oturub əlindəki kağıza nə isə yazan bir xanımdan təəssüratlarını bizimlə bölüşməyi xahiş etdik. Azərbaycan Tibb Universitetinin dosenti **Fəridə Əli** Qidalanma və tibbi ekologiya kafedrasının müdiridir. Ekoloji savadı, tibbi biliyi ilə söhbətimizi arzuladığımız istiqamətə yönləndirən Fəridə xanım dedi: "COP29-un ölkəmizdə keçirilməsi bir vətəndaş olaraq mənim üçün çox qürurvericidir. Ulu Öndər Heydər Əliyevin dediyi "Azərbaycan dünyaya Günəş kimi doğacaq" fikrinin həqiqət olduğunu bu tədbirdə aydın görmək mümkündür. Hazırda ətraf mühitdə təxminən 60-70 min müxtəlif kimyəvi birləşmə mövcuddur və onların sırasına hər il 1000-ə yaxın yenisi əlavə olunur. Zəhərli və kanserogen birləşmələrin toplanması ekosistemlərin ümumi sabitliyinin pozulması ilə əlaqələndirilir. Eyni zamanda insanlarda çoxsaylı patologiyalara səbəb kimi də ətraf mühitin təsiri böyükdür. COP29-un təşkili və pavilyonların möhtəşəmliyi, həqiqətən, qürurvericidir. Mən özüm tədbirin ilk günündə "yaşıl zona"dakı Milli QHT Forumunun pavilyonunda "İqlim böhranında QHT-lərin rolunun gücləndirilməsi: kənd təsərrüfatının davamlılığı, su idarəçiliyi və qida təhlükəsizliyinə dair əməkdaşlıq yanaşmaları" adlı panel müzakirəsinə qatılmışam. Noyabrın 15-də isə dəvət olunduğum BAMF və "Sülhün Kökləri" təşkilatının təşkilatçılığı ilə "Sülhün, torpağın və ekosistemlərin minatəmizləmə və kənd təsərrüfatı vasitəsilə bərpası" mövzusunda panel müzakirəsində isə çıxış etmişəm. İştirak etdiyim müzakirələrdən və hər iki tədbirdən çox yeniliklər öyrəndik. Tədbir iştirakçıları ətraf mühitin əhəmiyyətli dərəcədə insan sağlamlığına və onun rifah halına təsirinə dair düzgün qərarlar verdilər. Bu gün atmosferə buraxılan işlənmiş qazların insan sağlamlığına, eləcə də ətraf mühitə, biomüxtəlifliyə təsiri məsələsi aktual olduğu üçün COP29-da bu məsələlərin əhəmiyyəti bir daha dünya ölkələrinin diqqətinə çatdırıldı. İnkişaf etməkdə olan və kiçik ada olkələrdən gələn nümayəndələrin COP29-dan gözləntiləri böyükdür. Onlarla tanış olub fikirlərini dinlədikcə bir daha qürur hissi keçirirsən ki, qonaqlar ölkəmizin inkişafından, Bakının gözəlliyindən, tədbirin mükəmməl təşkilatçılığından necə heyranlıqla və az qala həsədlə danışırlar. Qatıldığım panel müzakirələrində xüsusən keniyalı səfir xanımın şəhərimiz, eləcə də tədbirin keçirilməsində yüksək bacarıq nümayiş etdirən Azərbaycan xalqı barədə necə səvə-səvə və həyəcanla danışması çox xoş təsir bağışladı".



**Məcid Əlizadə** COP29-a ikiyaşlı oğlu ilə gəlmişdi. Balaca Nazim ətrafa heyrətlə baxır, nümayiş olunan məhsullara, əşyalara əlini toxundurmağa çalışırdı. Atası ilə söhbət edərkən məlum oldu ki, o, tədbirə ikinci dəfədir gəlib. Çex dili üzrə mütəxəssisdir, SOCAR-da çalışır. Tədbirlərlə bağlı təəssüratlarını söyləyərkən dedi: "COP29-a ev sahibliyi etmək səlahiyyətinin Azərbaycana verilməsi ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsidir. Azərbaycan təkcə coğrafi deyil, enerji, ticarət və nəqliyyat qovşağı olması baxımından da böyük önəmə sahibdir. Hələ onu demirəm ki, Azərbaycanın həyata keçirdiyi nəhəng enerji və nəqliyyat layihələrinin Avrasiyanın enerji təhlükəsizliyinin təminatında müəyyən rolu var. Bu dediklərim iştirak etdiyim, şahidi olduğum bir çox panel iclaslarında xüsusi vurğulandı. COP29 sübut etdi ki, biz neft-qaz ölkəsi olsaq da, "yaşıl enerji"yə daha çox üstünlük veririk".



Müəllimə **Xəyalə Məmmədova** təsdiqlədi ki, COP29 çox yüksək səviyyədə keçir. Azərbaycan dövlətinin aylardı həyata keçirdiyi hazırlıqlar bu gün bəhrəsini verdi. Əslində, tədbirə hər birimiz hazırlaşırdıq. Mən şagirdlərimə COP29-un nə olduğunu, onun məqsədini və əhəmiyyətini öyrədir, sabah hansı müsbət nəticə verəcəyini izah edirdim. Flora və faunanı qorumağın, ətraf mühiti çirkləndirməməyin nə qədər vacib olduğunu, bunun insan sağlamlığına çox böyük fayda verdiyini başa salırdım. Şagirdlərə söyləyirdim ki, dövlətimiz COP29-u dünyada tayı-bərabəri olmayacaq səviyyədə keçirəcək. Elə də oldu. COP29-a bileti onun hazır olduğunun elan edildiyi gün aldım . Hər şeyi öz gözlərimlə görmək üçün indi buradayam - "yaşıl zona"da. Gördüklərimdən sevinməmək, qürur hissi keçirməmək mümkün deyil. Xüsusilə də Azərbaycan pavilyonu hər kəsin diqqətini cəlb edir. İkinci dəfədir gəlirəm. Bu dəfə qızımı da gətirmişəm. Bura onun üçün o qədər maraqlıdır ki, hətta nəyisə öyrənmək üçün mənə sual da vermir. Özü yazılanları oxuyub anlamağa çalışır".



**Fatimə Əhmədzadə** ilə söhbətimiz də maraqlı oldu. Onun bura gəlməsinin səbəbini soruşduq. "Zəngi" liseyinin 6-cı sinfində oxuyan Fatimə dedi ki, Bakının gözəlliklərini görmək, tanımadığı yerlərə qiyabi səyahət etməkdən ötrü bu məkanı görmək istəyib. "Yaşıl zona" qeyri-adi məkan kimi yaddaşına hopacaq: "Burada gördüklərimi sinif yoldaşlarımla paylaşacam, tədbirin sonuncu günündə də olsa gəlib bu gözəllikləri görmələrinə tələsdirəcəm. Bakımızı çox sevirəm. Nümayiş olunan fotostendlərdəki hər şəkil mənim üçün maraqlıdır. Bilmədiklərimi anamdan soruşuram, o mənə hər şeyi başa salır. COP29-un nə olduğunu burada bir daha anladım".



Azərbaycan pavilyonunu ziyarət edən, buradakı milli dəyərlərə maraqla baxan **Rövşən Rəhimov**a yaxınlaşıb tədbir haqqında fikirlərini söyləməsini xahiş etdik: "İxtisasca iqtisadçıyam, auditlə məşğulam. Bununla belə, Azərbaycanın milli-mənəvi dəyərlərinə çox üstünlük verirəm, xalqımızın adət-ənənələrinin min illərlə yaşamasının tərəfdarıyam. Bu məkanda söylədiyim məqamlar artıqlaması ilə sərgilənir. Azərbaycan pavilyonunu ziyarət edən əcnəbilər bizim qədim məişət əşyalarımıza maraq göstərirlər. Qlobal tədbir olaraq burada elə bir sistem qurulub ki, ziyarətçilər heç bir əziyyət çəkmir, hər şey əlçatandır, inklüzivlik yüksək səviyyədədir. Başda Prezident İlham Əliyev olmaqla bütün təşkilatçılara təşəkkür edirəm. Əminəm ki, COP29 iqlim dəyişmələri istiqamətində gözləntiləri doğruldub. Ona da inanıram ki, tədbirə qatılan 70 mindən cox xarici ölkə vətəndaşı Azərbaycandan xoş təəssüratla gedəcək, Bakıda keçirdikləri iki həftə onların taleyində unudulmaz iz qoyacaq. Yeri gəlmişkən deyim ki, dörd il əvvələ qədər Azərbaycanı Avropanın bəzi yerlərində tanıyan-bilən yox idi. Amma 44 günlük müharibədə qazanılan Zəfərdən sonra bütün dünya vətənimizi tanıyır. İndi biz qalib ölkənin vətəndaşı kimi dünyada rahat gəzib-dolana bilirik. Zəfərimiz kimi COP29-un da əks-sədası uzun illər kəsilməyəcək".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*


















### "Həssas icmalar üçün iqlim maliyyəsində irəliləyişə ümid edirik"



**"Biz oxşar düşüncəli qanunvericilərlə dialoq qurub əlaqələr yaratmaq imkanı əldə etdiyimiz üçün minnətdarıq. İnanırıq ki, bu sahədə, xüsusilə də ikitərəfli əməkdaşlıq sahəsində daha çox irəliləyiş əldə edəcəyik".**

Bunu Filippin Parlamentinin Nümayəndələr Palatasının üzvü, deputat Anna Viktoriya Tuazon AZƏRTAC-a açıqlamasında deyib.

Qlobal iqlim dəyişikliyi ilə mübarizədə maliyyə mexanizmlərinin vacibliyini vurğulayan filippinli deputat əlavə edib: "Maliyyə məsələlərində irəliləyişin əldə olunacağına ümid edirik. Çünki itkilər və zərərlər trilyonlarla ölçülür və ehtiyacın böyüklüyünü nəzərə alaraq, bu sahəni genişləndirmək və daha çox konkret işlər görmək niyyətindəyik. Xüsusilə Filippindəki kimi həssas icmalar üçün".

A.V.Tuazon Filippindəki əsas iqlim problemləri haqqında da danışıb: "Biz son bir ay ərzində ölkəmizdə dörd tayfunun baş verdiyini gördük. Daha şiddətli fırtınalar tez-tez baş verir. Bu da onu göstərir ki, biz artıq adaptasiya və yumşaltma mərhələsini keçmişik. İndi uzunmüddətli planlaşdırma mərhələsinə keçməliyik və bunu xüsusilə itki və zərər maliyyəsi vasitəsilə həyata keçirməyə ümid edirik".

Azərbaycan və COP29 tədbirinin təşkilatçılığı barədə təəssüratlarını bölüşən Anna Viktoriya Tuazon Bakını "xoş sürpriz" adlandırıb: "Azərbaycana ilk səfərimdir və çox təsirləndim. Köhnə şəhəri görmək, həm müasir, həm də qədim elementlərin ahəngini izləmək, bu irsi necə qoruduğunuzu görmək çox təsirli idi. Tədbir çox səmərəli təşkil olunub".

### "COP29-un təşkilati işləri çox yüksək səviyyədə aparılıb"



**"Azərbaycan çox təmiz və gözəl bir ölkədir. Buradakı insanlar çox mehribandır. COP29-un təşkilati işləri çox yüksək səviyyədə aparılıb. Könüllülər, təhlükəsizlik, təmizlik işləri, eləcə də ümumi logistika çox yaxşı idarə olunur. Dövlətin bu tədbiri uğurla həyata keçirmək üçün ciddi öhdəliklər götürdüyü aşkar hiss olunur".**

Bu sözləri COP29 çərçivəsində ölkəmizə gələn Qvineya Respublikasının Ətraf Mühit və Dayanıqlı İnkişaf Nazirliyinin və Adaptasiya Fondunun məsul şəxsi xanım Fatoumata Sangare söyləyib.

Azərbaycana ilk dəfə gəldiyini diqqətə çatdıran nümayəndə bu səfəri haqqında müsbət təəssüratlarını paylaşıb. O, Azərbaycan dövlətinə və təşkilatçılara bu cür mötəbər konfransı ən yüksək səviyyədə təşkil etdiklərinə görə təşəkkürlərini bildirib.

Fatoumata Sangare həmçinin COP29-dan əsas gözləntilərini də dilə gətirib: "İnkişaf etmiş ölkələrin iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində götürdükləri maliyyə öhdəliklərini yerinə yetirmələrini gözləyirik. İnkişaf etməkdə olan ölkələr, xüsusilə də adaptasiya prioritetləri olan ölkələr layihələrini həyata keçirmək üçün maliyyə dəstəyinə ehtiyac duyurlar".

### "COP29-da maliyyə razılaşmalarının həll olunmasını gözləyirəm"



**"Mənim COP29-dan gözləntim burada olan hökumətlərin, tərəflərin hansısa nəticələrə nail olmasıdır. Bura gündəlik həyatlarında iqlim dəyişikliyini hiss edən insanlar üçün iqlim ədalətini önə çıxaran məsələlər də daxildir".**

Bu sözləri "Church World Service" təşkilatının təmsilçisi Endryu Cozef Fuys söyləyib. Bildirib ki, COP29-da iqlim dəyişmələrinin təsirlərin azaldılmasının, itki və ziyanı təmin edə biləcək maliyyə razılaşmalarının həll olunmasını gözləyir.

### "COP29-dan gənclərin səsinin eşidilməsini gözləyirəm"



**"Bu, mənim iştirak etdiyim ilk COP-dur. Burada olduğum üçün çox şadam. Azərbaycanın qonaqpərvərliyini, bizi mehriban qarşılamasını, təmizliyini və sakitliyini çox sevdim".**

Bu sözləri COP29-un uqandalı iştirakçısı Allen Muhire söyləyib.

"COP29-dan gənclərin səsinin eşidilməsini gözləyirəm. Mən ölkələrin, QHT-lərin, liderlərin, danışıqlar aparanların bütün maddələrlə razılaşaraq konsensusa gələcəklərinə ümid edirəm", - deyə o əlavə edib.

### "COP29-dan gözləntimiz odur ki, qəbul olunan qərarlar tezliklə reallaşsın"



**"COP29 yaxşı təşkil olunub, xüsusilə iştirakçılara yaradılan şərait, texniki dəstək baxımından hər şey yüksək səviyyədədir".**

Bunu Mbororo Sosial və Mədəni İnkişafı Assosiasiyasının əməkdaşı Musa Usman Mdamba deyib.

COP29-da iqlim maliyyəsinin ayrılması məsələsində əhəmiyyətli irəliləyiş əldə ediləcəyini düşünən nümayəndə deyib: "COP29-dan gözləntimiz odur ki, qəbul olunan qərarlar tezliklə reallaşsın".

O həmçinin qeyd edib ki, Azərbaycanda insanlar çox qonaqpərvərdirlər. "Bu tədbirdən sonra da Azərbaycan xalqı ilə əlaqələrimiz davam edəcək", - deyə bildirib.

### "COP29-da alternativ enerji mənbələri ilə bağlı digər ölkələrin təcrübəsini öyrənmək istəyirik"



**"Mən ilk dəfədir ki, COP konfransında iştirak edirəm. Burada olmağımın əsas səbəbi yeni təcrübələr qazanmaqdır".**

Bunu zambiyalı iştirakçı Syuzan Siamundele bildirib.

Zambiyalı iştirakçı ölkəsindəki iqlim problemlərindən danışaraq bildirib ki, ötən il güclü quraqlıqla üzləşiblər. Onun sözlərinə görə, bu təbiət hadisəsi ölkədə bir çox iqtisadi sahəyə ziyan vurub.

"Quraqlıq səbəbindən kənd təsərrüfatı və qida sənayesi ciddi təhlükə ilə qarşılaşdı. Məlum faktdır ki, Zambiyanın qida sənayesi birbaşa yağışlardan asılıdır. Çünki bizim inkişaf etmiş irriqasiya sistemlərimiz yoxdur. Enerji sektoruna gəlincə, Zambiyanın enerji resursları hidroenerji mənbələrindən asılıdır. Ötən il güclü quraqlıq səbəbindən çaylarımızda suyun səviyyəsi aşağı endi və oktyabr-noyabr aylarında əhaliyə hər gün cəmi 3 saat elektrik enerjisi verilib. Təbii ki, bu, bizim ticarət sektoruna ciddi təsir göstərdi. Buna baxmayaraq, Zambiyada müxtəlif alternativ enerji mənbələri də mövcuddur və biz COP29-da iştirak edərək bu sahədə digər ölkələrin təcrübəsini öyrənmək istəyirik", - deyə o qeyd edib.

Zambiyalı qonaq ölkəmizlə bağlı təəssüratlarını da bildirib: "Azərbaycan çox gözəl ölkədir və ümid edirəm ki, ölkənizi gəzəcəm".

COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq















## COP29 günlərində Azərbaycan həm də multikultural ölkə olduğunu bəşəriyyətə nümayiş etdirdi

**İki həftədir davam edən, bütün dünyanın diqqətini özünə cəlb edən COP29 tədbirləri artıq yekunlaşmaq üzrədir. Müstəqil Azərbaycanın dünyaca böyük nüfuzundan xəbər verən bu beynəlxalq tədbirdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çıxışı, habelə həyatın bütün sahələrinə nüfuz edən iqlim dəyişmələrinə dair qarşıya qoyulan məsələlər ölkə ictimaiyyətində qürur hissi və məmnunluq yaratmışdır.**

Bu barədə Azərbaycan Tibb Universitetinin dosenti, tibb elmləri üzrə fəlsəfə doktoru Şöhrət Qasımov müxbirimizlə söhbətində demişdir:

- Ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) beynəlxalq əməkdaşlığın genişləndirilməsində, yeni tərəfdaşlıq əlaqələrinin qurulmasında mühüm rol oynadığı kimi, dünyanın gələcəyinə, siyasi, iqtisadi, ekoloji problemlərin araşdırılması və həlli yollarına da işıq salmışdır. Bu tədbir bəşəriyyətin sağlam gələcəyinə, iqtisadi, sosial-mədəni tərəqqiyə yönəliklə yanaşı, səhiyyə sisteminin inkişaf coğrafiyasını da dünyaya tanıtdı.

Düşünürəm ki, COP29 platforması yeni bir sivilizasiyaya yaşıl işıqdır. Bu qlobal tədbirin respublikamızda keçirilməsi Prezident İlham Əliyevin apardığı böyük siyasətin uğurlu nəticəsidir. Bu tədbirdə dünyanın 196 ölkəsindən 72000 insan, prezident, vitse-prezident, baş nazir və digər hökumət və dövlət adamları iştirak edirdi. Dövlətimizin başçısı İlham Əliyev çıxışında ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək şərəfinin verildiyinə görə təşəkkürlərini bildirərək dedi: "Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük".

Bu, sadəcə, etiket deyil, həm də çox böyük effekt idi.

Prezident çıxışında iştirakçılara gəzin, görün, öyrənin, tanıyın Azərbaycanı - deməklə, dünyaya kim olduğumuzu xatırlatmağı lazım bildi. Biz o xalq, o ölkə, o dövlətik ki: "Dörd il öncə İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik, o ölkə, o dövlət, o



millətik ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik".

Azərbaycan Prezidentinin "Azərbaycan dövləti dörd il əvvəl 44 günlük Vətən müharibəsində və bir il öncə birgünlük antiterror əməliyyatında tam müstəqilliyini, suverenliyini bərpa etməklə, təkcə öz adımızı yox, BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə haqq qazandırdıq" fikri, qətiyyət hissi və böyük şəstlə "Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq..." deməsi, nəinki mənim çalışdığım Azərbaycan Tibb Universitetinin professor və müəllim heyətində, ürəyi Azərbaycanın tarixi Zəfər qələbəsi ilə döyünən hər bir ziyalıda, hər bir gəncdə qürur hissi doğurdu.

Azərbaycan sülh, barış, əmin-amanlıq istəyən ölkədir. Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari, səhiyyə və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib... COP günlərində bizi məmnun edən həm də o oldu ki, Azərbaycan bütün dünyaya xalqların, millətlərin, dövlətlərin bir araya gəldiyi, görüşüb-anlaşdığı mədəniyyət körpüsü, multikultural ölkə olduğunu bəşəriyyətə nümayiş etdirdi.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

### "Mən buradakı pavilyonların müxtəlifliyinə, bolluğuna və rəngarəngliyinə heyranam"

**"Mən COP tədbirlərində ilk dəfə iştirak edirəm. Buradakı eksponatların, pavilyonların müxtəlifliyinə, bolluğuna və rəngarəngliyinə heyranam".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Monqolustanın "Ticarət və İnkişaf Bankı"nın sədri Randolph Koppa söyləyib: "İqlimlə mübarizədə Monqolustan nümayəndə heyətinin də bir sıra təklifləri oldu. Biz burada "yaşıl enerji"ni və iqtisadiyyatda digər transformasiya fəaliyyətlərini təşviq etmək üçün bir sıra müzakirələr apardıq".

### "COP29-da təşkilatçılıq yüksək səviyyədədir"

**"Afrika danışıqlar qrupu ixracat dəstəyi" şirkəti olaraq COP29 çərçivəsində bir neçə kənar görüşlərdə iştirak etdik.**

Bunu "Afrika danışıqlar qrupu ixracat dəstəyi" şirkətinin təmsilçisi Lanqat Çeruyot Festus deyib. COP29-da təşkilati baxımdan hər şeyin çox yüksək səviyyədə təşkil olunduğunu söyləyən Lanqat Çeruyot danışıqlar mərhələsində bir qədər çətinliklər olduğunu bildirib.

O, Azərbaycan haqqında da təəssüratlarını bölüşüb: "Bir çox yerlərə səyahət etsəm də Azərbaycanın ən gözəl ölkələrdən biri olduğunu hesab edirəm. Burada insanlar olduqca mehribandır".

### "COP29-un əsas mövzusu maliyyə olduğu üçün danışıqlar məni daha çox maraqlandırır"

**"Bu, mənim iştirak etdiyim sayca üçüncü COP-dur. Azərbaycan COP29-u çox yaxşı və planlı bir şəkildə təşkil edib. COP29-un əsas mövzusu maliyyə olduğu üçün danışıqlar məni daha çox maraqlandırır".**

Bu sözləri COP29-da iştirak edən Misirin İqtisadiyyat və Siyasi Elmlər Universitetinin müəllim assistenti Hania Səlim deyib. O bildirib ki, Misir hazırda ən həssas ölkələri dəstəkləmək üçün çox şey edir. "Bizim urbanizasiya ilə bağlı çoxlu təşəbbüsümüz var. İndi daha təmiz nəqliyyatdan istifadə edirik", - deyə o qeyd edib.

Hania Səlimin sözlərinə görə, Misirdə bərpaolunan enerji üçün bütün mənbələr var: "Ancaq bərpaolunan enerjidən istifadə edərkən qarşımızda duran ən böyük problem, kifayət qədər texniki kadrımızın və eyni zamanda kifayət qədər maliyyə vəsaitimizin olmamasıdır. Bildiyiniz kimi, bərpaolunan enerjinin həyata keçirilməsi çox baha başa gəlir". O əlavə edib ki, Misirdə eyni zamanda su qıtlığı var. "Biz su qıtlığı ilə üz-üzəyik. Su qıtlığı yaşadığımız üçün ərzaq təhlükəsizliyi problemimiz var", - deyə o fikirlərini yekunlaşdırıb.

### "Əvvəlkilərlə müqayisədə COP29 kifayət qədər yüksək səviyyədə təşkil olunub"

**"COP29 əvvəlki COP-larla müqayisədə kifayət qədər yüksək səviyyədə təşkil olunub. Məkan çox geniş və rahatdır".**

Bu sözləri COP29-da iştirak edən Qlobal Yaşıl İnkişaf İnstitutunun aparıcı meneceri Tiaqo Çaqas deyib. Onun sözlərinə görə COP29 qlobal səviyyədə iqlim məsələlərini həll etmək üçün yeganə yoldur. İştirakçı bildirib ki, COP29-da ölkələr tezliklə razılığa gəlməlidir. Həmçinin o, Azərbaycanın təşkilatçılığını yüksək qiymətləndirib.

"Azərbaycan çox yaxşı ev sahibidir. COP29-un təşkilatçılığı əla alınıb. Bunun üçün ev sahibi Azərbaycanı alqışlayıram", - deyə qonaq vurğulayıb.

### "COP29-da öz texnologiyalarımızı nümayiş etdirmək şərəfdir"

**"Yaponiyanın "Hitaçi" şirkəti olaraq biz artıq 4-cü dəfədir ki, COP konfranslarında iştirak edirik. İlk dəfə biz COP26-da - Qlazqoda iştirak etmişik".**

Bunu Yaponiyanın "Hitaçi" şirkətinin nümayəndəsi Naoki Yoşida bildirib. N.Yoşida COP konfranslarında iştirak etməyinin səbəbini də açıqlayıb: "Çoxlu sayda texnologiyalar istehsal edirik ki, bu da iqlim dəyişikliyi problemlərinin həllinə təkan verə bilər. Bizim üçün Azərbaycanda, COP29-da öz texnologiyalarımızı nümayiş etdirmək böyük bir şərəfdir. Biz növbəti COP konfranslarında da iştirak edib texnologiyalarımızı dünya ictimaiyyətinə nümayiş etdirəcəyik".

### "COP29-da təşkilatçı ölkə olan Azərbaycanı çox bəyəndim"

**"İsveç bir neçə inkişaf etməkdə olan ölkəyə iqlim fəaliyyətində dəstək olur. Qlobal Şimal qütbündə artıq bəzi dəyişikliklər baş verir. Yay fəsli olduqca quru, yağışlar isə güclü olmağa başlayıb. Qış fəsli gec gəlsə də, yeni kənd təsərrüfatı sistemi üzrə fəsillər nəzərə alınmalıdır".**

Bu fikirləri İsveç Beynəlxalq Əməkdaşlıq və İnkişaf Agentliyinin nümayəndəsi Nayoka Marsiel Martinez deyib. O bildirib ki, İsveç təmsilçisi olaraq COP29-da keçirilən müzakirələrin yekun nəticəsini gözləyirlər.

"Təşkilatçı ölkə olan Azərbaycanı çox bəyəndim. Bakının çox gözəl memarlıq abidələri var. Burada hava çox təmiz, şəhər olduqca gözəldir", - deyə qonaq bildirib.















COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi





















## "COP29 digər ölkələrlə əməkdaşlıq edə biləcəyimiz mühüm konfransdır"



**"COP29-da iştirak etməkdən olduqca məmnunam. Üzləşdiyimiz iqlim problemlərini müzakirə etmək üçün COP29 vacib platforma oldu. Eyni zamanda COP29 yerli icmalarla, yerli QHT-lərlə və bu tədbirdə iştirak edən digər ölkələrlə əməkdaşlıq edə biləcəyimiz mühüm konfransdır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Konqo Demokratik Respublikasından olan Afrika üzrə Urban tərəfdaşlığının ölkə direktoru Ngabu dz bo Jastin söyləyib.

"Biz iqlim dəyişikliyini müzakirə etmək üçün bir sıra ölkələrlə fikirlərimizi bölüşür, çıxış yolları tapmağa çalışırıq. Bizim COP29-da iştirakımızın əsas məqsədi tərəfdaşlıq, harmoniya və rifahdır", - deyə o bildirib.

## "Məqsədlərə çatmaq istəyiriksə, maliyyə dəstəyini artırmalıyıq"



**"İqlim böhranı ilə mübarizədə maliyyələşmənin vəziyyəti hələ də ciddi problem olaraq qalır. Ümid edirik ki, COP29-da bu istiqamətdə yeni maliyyə mənbələri təmin ediləcək".**

Bu fikirləri COP29-un iştirakçısı, Meksikada fəaliyyət göstərən "Politica y Legislacion Ambiental A.C." (POLEA) təşkilatının icraçı direktoru Andres Emilio Avila Akerberg bildirib.

Əgər Paris Sazişinin məqsədlərinə çatmaq istəyiriksə, maliyyə dəstəyini artırmalıyıq deyən icraçı direktor vurğulayıb: "Biz həssas ölkələrdən biriyik və iki böyük okeanımızla, geniş sahilyanı ərazilərimizlə təbii fəlakətlərə, ekstremal hava şəraitinə, su qıtlığına və temperatur artımına qarşı daha çox həssasıq. İnkişaf etməkdə olan ölkə olaraq biz fərqli vəziyyətlərdən əziyyət çəkirik. Bizim ölkədə başqalarından daha həssas olan insanlar var".

O, həmçinin bildirib ki, 29 ildir qlobal iqlim böhranı ilə bağlı bir araya gəlinir, amma səmərəli nəticələr əldə edilmədiyi üçün vəziyyət daha da pisləşir. "Tarix bizdən yana deyil, çünki qlobal istiləşmənin qarşısını almaq hələ də mümkün olmayıb. Buna görə də daha çox ambisiyalı olmaq və bütün ölkələrin kollektiv şəkildə öz töhfələrini verməsi vacibdir", - deyə o əlavə edib.

## "COP29 biomüxtəlifliyin qorunması üsullarını müzakirə etmək üçün imkan yaratdı"

**"Bu, mənim iştirak etdiyim ilk COP-dur. Etiraf etməliyəm ki, COP29 mənim gözlədiyimdən də əhatəli oldu".**

Bunu İngiltərənin Lester Universitetinin professoru Con Seymur Heslop-Harrison jurnalistlərə müsahibəsində deyib.



Professorun sözlərinə görə, biomüxtəlifliyə malik sahələrin qorunması yolu ilə kənd təsərrüfatını daha da genişləndirmək üçün gözəl imkanlar var. COP29 kənd təsərrüfatı genetikasını, bu sahə üzrə ali təhsil verən universitetlərin rolunu, biomüxtəlifliyin qorunub saxlanılması üsullarını müzakirə etmək, gələcək nəslə iqlim dəyişikliyi və onun təsirlərini azaltmaq yollarını aşılamaq üçün real fürsət yaratdı.

## "Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizədə yerli bitkilərin təşviqi vacibdir"



**"Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizədə torpaq sağlamlığının qorunması və yerli bitkilərin təşviqi mühüm əhəmiyyət daşıyır".**

Bunu "Report"a açıqlamasında dünyanın müxtəlif ölkələrində insanların rifahı üçün layihələr həyata keçirən Almaniyanın ADRA təşkilatının xüsusi nümayəndəsi Karina Rolli deyib.

Onun sözlərinə görə, dünyanın müxtəlif ölkələrində insanların rifahı üçün layihələr həyata keçirən ADRA hazırda 21 ölkədə 38 layihə reallaşdırır.

"ADRA əsasən torpaq sağlamlığının bərpası, iqlimə davamlı kənd təsərrüfatı təşəbbüsləri və qida təhlükəsizliyinin təmin edilməsi sahələrində fəaliyyət göstərir. Bununla yanaşı, dayanıqlı inkişafı təşviq edərək yerli icmaların iqlim dəyişikliklərinə uyğunlaşma qabiliyyətini artırmağa yönəlmiş proqramlar həyata keçirir. Azərbaycanda da iqlim dəyişikliyi ilə mübarizə üçün bu cür layihələrə ciddi ehtiyac var", - deyə K. Rolli qeyd edib.

O vurğulayıb ki, sağlam torpaqlar təkcə kənd təsərrüfatı məhsuldarlığını artırmaqla kifayətlənmir, həm də iqlim dəyişikliklərinin təsirini azaltmaqda mühüm rol oynayan karbon anbarı funksiyasını yerinə yetirir:

"Bundan əlavə, unudulmuş qidalar - xüsusilə iqlimə davamlı olan yerli bitkilər - ərzaq sistemlərinin şaxələndirilməsi, qida və qidalanma təhlükəsizliyinin artırılması, eləcə də həssas icmalarda dayanıqlığın gücləndirilməsi üçün böyük potensiala malikdir".

K.Rolli əlavə edib ki, torpaq sağlamlığının bərpası və unudulmuş bitkilərin təşviqi iqlim dəyişikliyinə qarşı mübarizə və uyğunlaşma proseslərinə əhəmiyyətli töhfə verə bilər.

"Xüsusilə iqlim dəyişikliyindən ən çox təsirlənən bölgələrdə bu cür təşəbbüslərin həyata keçirilməsi, davamlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi, dayanıqlı ərzaq sistemlərinin qurulması və torpaqla bitki müxtəlifliyinin iqlim strategiyalarına inteqrasiyası çox vacib addımlardır", - deyə o bildirib.

## "Ümid edirik ki, COP29-dan sonra daha çox ölkə iqlimlə bağlı maliyyə ayıracaq"

**"Bu, mənim qatıldığım ikinci COP tədbiridir. Daha əvvəl COP28-də iştirak etmişəm. Lakin Azərbaycana ilk dəfədir gəlirəm".**

Bu fikirləri COP29-un seneqallı iştirakçısı, "CorpAfrica"nın nümayəndəsi Malamine Badiane söyləyib.



O, əvvəlcə konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə və xalqına təşəkkür edib. "Builki COP29-u təşkil etdiyi üçün Azərbaycan dövlətinə təşəkkür edirik. Konfransın keçirildiyi məkandan tutmuş nəqliyyat sisteminə qədər hər şey çox yaxşıdır. Bu, iştirakçılara konfrans məkanında və şəhər daxilində rahat hərəkət etməyə imkan verir. Azərbaycanın qonaqpərvər xalqına da xüsusi təşəkkürlərim var", - deyə o əlavə edib.

"CorpAfrica"nın nümayəndəsi COP29-un əsas diqqət mərkəzində iqlim maliyyəsinin dayandığını qeyd edib və bu istiqamətdə bəzi çatışmazlıqların olduğunu bildirərək deyib: "Biz ümid edirik ki, COP29-dan sonra daha çox ölkə İqlim Maliyyəsi Fondu, Adaptasiya Fondu və İtki və Zərərə Cavab Fondu üçün maliyyə ayıracaq. Həmçinin bu vəsaitlərin Afrikada və dünyanın digər hissələrində yaşayan insanlara çatdırılmasını təmin etmək vacibdir".

O, Seneqaldakı əsas problemlərdən də bəhs edərək iqlim dəyişikliyinin təsirlərini vurğulayıb. "Bizim əsas problemimiz kənd təsərrüfatı ilə bağlıdır. İnsanlar qeyri-sabit yağıntılar və torpağın münbitliyinin azalması ilə üzləşirlər", - deyən Malamine Badiane bütün gəncləri bu problemlərin həllində iştirak etməyə çağırıb. O deyib: "Biz gəncləri yerli icmalara kömək üçün həll yollarında iştirak etməyə çağırırıq. Çünki yalnız biz onların həyatını xilas edə bilərik".

## "Şimal liderləri inadkarlığı buraxsınlar və haqqımız olan iqlim maliyyəsini təmin etsinlər"



**"Afrika milyardlar deyil, trilyonlarla iqlim maliyyəsi tələb edir".**

Bunu Namibiyadan olan "Fridays for Future Africa" təşkilatının iqlim fəalı Mariya Şikanqo deyib. O, qlobal iqlim böhranı ilə mübarizədə inkişaf etməkdə olan ölkələrin üzləşdiyi çətinliklərə diqqət çəkib. Bildirib ki, Afrikada, xüsusilə Namibiyada əhalinin 50 faizindən çoxu quraqlıqdan əziyyət çəkir: "Bizim üçün iqlim maliyyəsi çox vacibdir, çünki adaptasiya və yumşaltma tədbirləri üzərində işləməliyik. Amma təəssüf ki, bu maliyyənin çox ləng təmin olunması bir problem olaraq qalır. Afrika daha gözləyə bilməz. Biz milyardlar deyil, trilyonlar tələb edirik, çünki iqlim böhranının məsuliyyətini daşıyan qlobal Şimaldır", - deyə o bildirib.

İqlim fəalı diqqətə çatdırıb ki, qlobal Şimal ölkələri ilə bu məsələlərdə razılığa gəlmək çox çətindir. O, həmçinin qeyd edib ki, afrikalılar artıq kolonializmin təsirlərindən yorulublar və qlobal Şimalın iqlim böhranında öz məsuliyyətini dərk edib maliyyə təmin etməsini gözləyirlər.

"Biz afrikalılar, qlobal Cənubun nümayəndələri olaraq istəyirik ki, Şimal liderləri inadkarlığı dayandırsınlar, nəhayət, haqqımız olan iqlim maliyyəsini təmin etsinlər. Bu, milyardlarla deyil, trilyonlarla olmalıdır", - deyə o əlavə edib.

Azərbaycan barədə təəssüratlarını da bölüşən iqlim fəalı ölkə xalqının mehribanlığını yüksək qiymətləndirib: "Azərbaycan xalqını çox sevdim. Onlar çox səmimi və qonaqpərvərdirlər. COP29-dakı görüşlər və tədbirlər çox səmimi keçdi".









COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi








## "COP29-u təşkilati səviyyə baxımından ən yaxşı təcrübələrdən biri hesab etmək olar"



**"Bu mənim Azərbaycana ilk səfərimdir. Tədbir təhlükəsizlik baxımından indiyə qədər gördüyüm ən yüksəksəviyyəli təşkilatçılığa malikdir. Mən özüm təhlükəsizlik sahəsində çalışıram və deyə bilərəm ki, Bakıdakı təhlükəsizlik tədbirləri ən yüksək standartlara cavab verir. Bundan əlavə, könüllülər və qonaqlara istiqamət verən əməkdaşlar da çox peşəkarcasına çalışırlar. İnsanlar isə sizi gülümsəyərək qarşılayır və "Azərbaycana xoş gəlmisiniz" deyir. Burada özümü evimdəki kimi hiss edirəm".**

Bu fikirləri AZƏRTAC-a COP29 çərçivəsində ölkəmizə gələn "VolCare Foundation"un layihə direktoru, "Lowe Consult" şirkətinin CEO-su Qanadan olan nümayəndə Justine Akpene Egbenya açıqlamasında söyləyib.

İştirakçının sözlərinə görə, onun əsas gözləntisi konfransda uşaqların ehtiyaclarına daha çox diqqət yetirilməsi və bu mövzuda maarifləndirmədir: "İqlim dəyişikliyi uşaqlara və gənclərə ciddi təsir edir. Biz elə işlər görməliyik ki, təbiəti gələcək nəsillər üçün qoruyaq və onları təbiəti sevməyə, qorumağa təşviq edək".

Konfrans zamanı biomüxtəlifliyin qorunması ilə bağlı suallar ünvanlayan J.A.Egbenya heyvanlar aləminə qarşı təhdidlərin aradan qaldırılması ilə bağlı müzakirələrin əhəmiyyətini vurğulayıb: "İştirak etdiyim panel müzakirədə iştirakçılar sualıma çox ətraflı cavab verdilər. Bu müzakirələr mənim üçün çox faydalı oldu".

Qanalı ekspert COP sammitlərinin artıq üçüncü dəfə iştirakçısı olsa da, Bakıda keçirilən tədbiri təşkilati səviyyə baxımından ən yaxşı təcrübələrdən biri kimi qiymətləndirib.

## Türkiyə "Yaşıl Hidrogen" İstehsalçıları Assosiasiyasının rəhbəri iqlim investisiyalarını artırmağa çağırıb



**"Qlobal istiləşmə təkcə son 10 ildə qlobal iqtisadiyyata 3,5 trilyon dollar ziyan vurub. Üstəlik, 2023-cü ildə birbaşa olaraq ətraf mühitdən iqtisadi itkilərin həcmi 700 milyard dollar həcmində qiymətləndirilir. Vəziyyətdən çıxış yolu "yaşıl transformasiya" kimi görünür".**

Bunu jurnalistlərə açıqlamasında Türkiyənin "Yaşıl Hidrogen" İstehsalçıları Assosiasiyasının (H2DER) rəhbəri Yusuf Günay BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının əhəmiyyətini şərh edərkən deyib.

Y. Günay iqlim dəyişikliyi nəticəsində dünyanın müxtəlif yerlərində təbii fəlakətlərin sayının artmasına diqqət çəkib.

H2DER rəhbəri 2030-cu ilə qədər dünyada bərpaolunan enerji mənbələri (RES) obyektlərinin gücünün üç dəfə artırılması ilə bağlı bəyan edilmiş hədəfi xatırladıb. "Düşünürəm ki, bu kifayət etməyəcək. Bərpaolunan enerji obyektlərinin gücü ən azı beş dəfə artmalıdır", - deyə H2DER rəhbəri qeyd edib.

Onun sözlərinə görə, Türkiyə son onilliklər ərzində "yaşıl enerji" sahəsində də əhəmiyyətli irəliləyişlər əldə edib.

Y.Günay xatırladıb ki, hələ 2001-ci ildə Türkiyədə bərpaolunan enerji obyektlərinin ümumi quraşdırılmış gücü cəmi 30 min MVt idisə, hazırda bu rəqəm dəfələrlə artıb.

"Bərpaolunan enerji obyektlərinə ilkin investisiyalar yüksək olsa da, xərclər tezliklə özünü doğruldur. Ona görə də bu sahəyə, xüsusilə günəş və külək enerjisinə investisiyaların artırılması lazımdır. Bundan əlavə, elektroliz yolu ilə istehsal olunan və zərərli istixana qazları buraxmayan "yaşıl hidrogen"ə diqqət yetirmək vacibdir", - deyə türk assosiasiyasının rəhbəri bildirib.

Onun fikrincə, "yaşıl hidrogen" xüsusilə yüksək temperatur şəraiti tələb edən sənayelərdə fəal şəkildə istifadə olunarsa, iqlim dəyişikliyi ilə mübarizə daha effektli olar.

## "İnanıram ki, COP29 doğru bir yol olacaq"



**"Təmsil etdiyim təşkilatın nöqteyi-nəzərindən, siyasi səviyyədə gedən danışıqlara münasibətdə iqlim fəaliyyətinə nail olmaq üçün şəbəkə qurmaq və beynəlxalq standartların dəyərini nümayiş etdirmək üçün Bakıda keçirilən COP29-da olmaq çox vacibdir. İnanıram ki, COP29 doğru yol olacaq".**

Bu sözləri İsveçrənin Beynəlxalq Elektrotexniki Komissiyasının xarici əlaqələr mütəxəssisi Boris Inderbitzin deyib.

O qeyd edib ki, COP29-da nəzərəçarpan, operativ və həqiqətən də təsirli ambisiyalar ifadə olunur.

"Biz beynəlxalq təşkilatıq, elektrik enerjisi və elektrotexnika enerjisinə çıxış sahəsində beynəlxalq standartları inkişaf etdiririk. Elektrotexnika enerjiyə çıxış, elektrikləşdirmə, davamlılıq və iqlim fəaliyyətinin çox vacib hissəsidir. Bizim təşkilatımız dünya səviyyəsində qəbul edilən həllər əsasında iqlimlə bağlı fəaliyyətin qlobal səviyyədə həyata keçirilməsinə kömək etmək üçün standartlar hazırlamaq gücündədir", - deyə o bildirib.

## "COP29 çərçivəsində keçirilən tədbirlər iqlim müzakirələrini daha da inkişaf etdirməyə töhfələr verir"



**"COP29 çərçivəsində keçirilən panellər və aparılan müzakirələr iqlim dəyişikliyi ilə mübarizəmizi gücləndirir. Burada dünyanın müxtəlif ölkələrindən olan gənclər təcrübələrini, gördükləri işləri və iqlim dəyişikliyinə qarşı mübarizə üsullarını paylaşırlar".**

Bunu COP29-un Konqo Demokratik Respublikasından olan iştirakçısı Guillaume Kayembe deyib.

O, keçirilən tədbirlərin cəmiyyətlərdə iqlim müzakirələrini daha da inkişaf etdirməyə töhfə verdiyini deyib. Konqo Demokratik Respublikasının iqlim dəyişikliyindən ən çox əziyyət çəkən ölkələrdən olduğunu vurğulayan G.Kayembe bildirib: "Ölkəmizdə fəsillərin pozulması ən çox kənd təsərrüfatı sektorunu məhv edir. Hazırda 30 milyondan çox vətəndaşımız ərzaq çatışmazlığı problemi ilə üzləşir. İqlim ədalətsizliyi də böyük problemdir. Konqo Demokratik Respublikası elektrikli avtomobillər, smartfonlar və günəş panelləri üçün lazım olan mineralların 70 faizini təmin edir. Amma bu resursları təmin edən ölkə özü çox əziyyət çəkir".

Ölkəsində uşaq əməyinin istismarının da geniş yayıldığını diqqətə çatdıran qonaq qeyd edib: "18 yaşından, hətta 10 yaşından da kiçik uşaqlar mədənlərdə işləyirlər. Onlar məktəbdə olmaq əvəzinə, ağır iş şəraitində işləməyə məcbur edilirlər. Üstəlik, Konqonun şərqində davam edən münaqişələr milyonlarla uşağın təhsilini yarımçıq qoymasına səbəb olur".

Konqonun dünyada əhəmiyyətinə görə ikinci böyük yağış meşəsinə sahib olduğunu xatırladan G.Kayembe bu meşələrin də təhlükə altında qaldığını deyib: "Meşələrin ətrafında yaşayan icmaların elektrik enerjisinə çıxışları olmadığı üçün odun kömüründən istifadə edirlər. Bu da meşələrin qırılmasına gətirib çıxarır. Bu proses təkcə Konqo üçün deyil, bütün Mərkəzi Afrika və dünya üçün təhlükə yaradır".

## "Nəhəng dövlətlər müharibələri maliyyələşdirir, buna son qoyulmalıdır"



**"Bu mənim iştirak etdiyim ilk COP-dur. Burada eyni anda bir çox istiqamətdə fəaliyyətlərə şahid oluram".**

Bu fikirləri Yaponiyanın Davamlı Enerji Siyasətləri İnstitutunun tələbəsi Asumi İmaoka deyib.

O bildirib ki, dünyada gedən proseslərlə bağlı ən mühüm arzusu etnik təmizləmələrə son qoyulmasıdır: "Hər kəs üçün ədalət istəyirəm. Xüsusən nəhəng dövlətlər müharibələri maliyyələşdirir. Fikrimcə, buna son qoyulmalıdır".

## "Burada iştirak etdiyim üçün özümü çox şanslı hiss edirəm"



**"COP29-da qurulan pavilyonlar heyrətamizdir. Azərbaycan pavilyonu da möhtəşəmdir. Burada iştirak etdiyim üçün özümü çox şanslı hiss edirəm".**

Bu fikirləri COP29-un nigeriyalı iştirakçısı Nafatali Akudun bildirib.

"Mən Nigeriyadanam. Biz təşkilatlara və bizneslərə Ətraf mühit, Sosial və İdarəetmə (ESG) strategiyalarını inkişaf etdirməkdə kömək edirik. Bildiyiniz kimi, Afrika qlobal emissiyanın 3 faizdən azını buraxır. Qitə olaraq daha az emissiya edirik və bu, davamlı şəkildə fəaliyyət göstərmək üçün imkan yaradır. Lakin enerji çatışmazlığı, tullantıların idarə edilməsi və digər problemlərimiz var. Bizi dəstəkləməyə və bu problemləri həll etmək üçün birgə çalışmağa çağırırıq", - deyə Nafatali Akudun vurğulayıb.

## "Burada aparılan müzakirələr nəticəsində iqlim probleminin öhdəsindən gəlmək mümkündür"



**"COP29-da özümüzü evimizdəki kimi hiss edirik. Buradakı insanlar çox istiqanlı və mehribandırlar. Bakının gözəlliyinə heyran olmuşam. COP29-da pavilyonlar çox yaradıcıdır. Azərbaycanın pavilyonunu xüsusi qeyd etməliyəm".**

Bu sözləri COP29-un Böyük Britaniyadan olan iştirakçısı Vomba Njolomba söyləyib.

O, Londonda iqlim dəyişikliyi ilə bağlı əsas problemin səhralaşma olduğunu deyib. "Biz yağışla mübarizə aparırıq, buna görə də fermerlər əziyyət çəkirlər. Bu iqlim problemi məhsuldarlığa və ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir. Düşünürəm ki, COP29-da aparılan müzakirələr nəticəsində iqlim probleminin öhdəsindən gəlmək mümkündür", - deyə o əlavə edib.














COP29 Baku Azerbaijan

# Danışır yazır göstərir BAKI



COP29 Baku Azerbaijan

# Daşkəsəndə bitən nadir bitkilərə ikinci həyat verilir



**"AzerGold" QSC "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" layihəsi çərçivəsində Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmiş nadir, nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin "Çovdar" qızıl mədəni ətrafında çoxaldılması üçün əkin işlərinə start vermişdir.**



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən növbəti aksiya zamanı ərazidə Zəngəzur itburnu, Nizami itburnu, Qafqaz dağdağanı, adi nar, iriyarpaq kövrək mürdəşər, Trautvetter ağcaqayını, adi şabalıd, dəmirağac, şabalıdyarpaq palıd və atşabalıdı kimi nadir ağac və bitki növlərinin kütləvi əkininə başlanılmışdır. Layihəyə əsasən, "AzerGold" QSC Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu əməkdaşlarının iştirakı ilə "Çovdar" mədəninin ətrafındakı dağlardan nəsli kəsilmək təhlükəsində olan ağac və bitkiləri aşkar edərək toxumlarını yığmış və həmin toxumları çeşidləmiş və müvafiq dərman vasitələri ilə qurudaraq aqrotexniki qaydada təcrübə sahəsində yetişdirməyə start vermişdir.

Qeyd edək ki, hər ilin oktyabr-noyabr aylarında nadir, nəsli kəsilmək təhlükəsində olan ağac tingi və bitki kolları tarixən yetişdiyi ərazilərdən biri kimi Daşkəsən rayonunda - "Çovdar" mədəninin ətrafında ayrılmış geniş ərazidə əkilərək çoxaldılır. Builki aksiya zamanı isə təbii şəkildə digər bölgələrdə yayılmış nadir ağac və bitki növlərinin də "Çovdar" qızıl mədəni ətrafında kütləvi əkini aparılıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Yardımlıda 7 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun əsaslı təmiri başa çatıb

**Prezidentin sərəncamının icrası çərçivəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) Yardımlının 5 min nəfərin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Masallı-Yardımlı (44 kilometr)-Sırıq-Əfçədulan-Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolunun əsaslı təmirini başa çatdırıb.**





Uzunluğu 23,5 kilometr olan avtomobil yolu xeyli müddət təmir olunmadığından yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən əsaslı şəkildə yenidən qurulmasına və bərpasına ehtiyac yaranmışdı.

Əsaslı təmirdən sonra 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilən yolların eni 10 metrə qədər genişləndirilib. Təmir zamanı AAYDA tərəfindən "İnşaat Norma və Qaydaları"nın tələblərinə uyğun olaraq, yolboyu torpaq işləri, qazma, yolun normativ eninin alınması üçün genişləndirmə və yol əsasının tikintisi işləri həyata keçirilib. Sonra yeni asfalt-beton örtüyünün döşənməsi işləri görülüb. Bundan başqa, yolboyu suların ötürülməsi üçün zəruri yerlərdə suötürücü boruların tikintisi işləri icra olunub. Layihə üzrə yolun Sırıq, Keçələkəran və Zəngələ hissələrində 3 yeni avtomobil körpüsü də inşa edilib. Layihənin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yol nişanlarının quraşdırılması, yolcizgi və yolgöstərici xətlərinin çəkilməsi işləri aparılıb.

Aparılan yenidənqurma işləri yerli sakinlərin hərəkətinin təhlükəsizliyinə zəmin yaratmaqla yanaşı, yolboyu rahat gediş-gəlişi təmin edib, yük və sərnişin daşımasını asanlaşdırıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



# Ömrünü hüquq elminin inkişafına həsr etmiş fədakar alim

**Hər bir xalqı dünyada tanıdan onun elmi, mədəniyyəti və milli dəyərləridir. Bir deyim də var: o xalq böyükdür ki, yetirdiyi şəxsiyyətləri, görkəmli elm xadimləri, ziyalıları ilə tanınır. Müasir dövrümüzdə də həyatımızın sürətlə dəyişdiyi reallıqda cəmiyyətdəki çəkisi və bütövlükdə elmin səviyyəsi həmin toplumun dünyadakı yerini müəyyən edən mühüm amillərdən birinə çevrilmişdir.**



Hüquq elmləri doktoru elmi dərəcəsi almış ilk azərbaycanlı qadın, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar hüquqşünas, professor Məsumə Məlikova haqqında yazarkən, müxtəlif materialları oxuyarkən həmişə bir fikir bu dəyərli insanın xarakterinə aydınlıq gətirir: o inanırdı ki, düzgünlüyə, haqqa-ədalətə tapınanların nəsibi sonsuz rəğbət və sevgidir. Özünə münasibətdə də hər yerdə bunu görürdü. Məsumə xanım hüquqşünas, müəllim, alim ömrü yaşamağın məsuliyyəti ilə çalışırdı. Qazandığı uğurlar, fəxri adlar onun uzun illik gərgin zəhmətinin, elmi araşdırmalarının bəhrəsi idi. Və bir də heç zaman işlərinin çoxluğunu qayğılardan qaçmaq üçün bəhanəyə çevirmirdi. Laqeydlik, biganəlik ona yad idi. Tələbələri Məsumə Məlikovanın simasında elmdə, təhsildə güzəştə getməyən gözəl alim, tələbkar olduğu qədər də qayğıkeş müəllim, yurduna böyük məhəbbətlə bağlı bir insan tanıyırdılar.

Tarix boyu elm insan həyatını dəyişdirən ən mühüm amillərdən biri, bəlkə də birincisi olub. Bəşəriyyətin ən böyük zəfəri də elmdir. Dahi Nəsirəddin Tusiyə görə, alimdə bir neçə xüsusiyyətin olması vacibdir. Bunların sırasında zəka, zehin aydınlığı, dərk surəti, ağıl gözəlliyi və hafizənin əhəmiyyəti böyük rol oynayır. Azərbaycan elminin görkəmli nümayəndəsi, həyatını elmə, təhsilə və pedaqoji fəaliyyətə həsr etmiş, milli hüquq elmində yeni istiqamətlərin əsasını qoymuş və bütöv bir məktəb yaratmış Məsumə Fazil qızı Məlikova özündə bütün bu keyfiyyətləri birləşdirən əsl ziyalıdır.

Dünya üzrə qadın alimlər elm adamlarının ümumi sayının cəmi üç faizini təşkil edirlər. Müasir dünyada elmin inkişafı, gender bərabərliyinin bəşəriyyətimizin mütərəqqi nailiyyəti kimi daha böyük kütlələr tərəfindən qəbul edilməsi və qadının cəmiyyətdəki yerinin mahiyyəti elmdə onun rolu prosesinə də özünün pozitiv təsirini göstərir. Qadın elm adamlarının sırasında təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da tanınan M.Məlikovanın da olması Azərbaycan elminin parlaq nailiyyətlərindən biridir.

Məsumə xanım Azərbaycanda milli hüquq elminin yaradıcılarından biri, xalqımızın tarixini, dahi şəxsiyyətlərinin dünya və cəmiyyət, hüquq və ədalət barədə görüşlərini araşdıraraq hüququn fərqli istiqamətlərinin, siyasi-hüquqi təlimlər tarixinin, milli hüquq məktəbimizin bünövrəsini, özülünü yaradan işıqlı zəka sahibidir.

Azərbaycanda hüquq elminin öyrənilməsi və inkişafında misilsiz xidmətləri, milli hüquq elmində əvəzedilməz yeri və rolu olan, peşəkar fəaliyyəti sayəsində ən yüksək zirvələri fəth etmiş ilk hüquqşünas qadın alimimiz professor M.Məlikovanın haqqa və ədalətə xüsusi marağı və sevgisi hüquq elminə müraciətinin əsas səbəbidir. Hüquqşünaslığa meyil M.Məlikovanın bərabərliyə, ədalətə həssaslığı ilə yanaşı, həm də onun bu elm sahəsindəki çoxsaylı tədqiqat və çalışmalarını bütövlükdə milli hüququn inkişafına, vətəni Azərbaycanda yeni-yeni hüquqşünaslar nəslinin yetişməsi missiyasına töhfə vermək istəyindən irəli gəlmişdir.

Professor Məsumə Məlikova zəhmətkeş ailədə doğulsa da, elmə üz tutmasında ailəsinin təhsilə verdiyi dəyərin böyük rolu olmuşdur. Azərbaycanlı qadının ideal nümunəsi olan anası Mürqüzər xanım həyatını ailəsinə həsr etməklə beş övlad böyütmüş və onların hər birinə uşaq çağlarından təhsilə, biliyə, daim öyrənməyə marağın formalaşdırılması üçün böyük zəhmət sərf etmişdir. Belə bir mütərəqqi və yaradıcı mühit övladların hər birinin müxtəlif sahələrə yönəlmələrinə səbəb olmuşdur. Ailənin üçüncü övladı M.Məlikova isə xüsusi prinsipiallıq tələb edən hüquq sahəsini seçmişdir.

22 noyabr 1929-cu ildə Bakıda dünyaya göz açan Məsumə Məlikova 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirmiş və "Dövlət hüququ" kafedrasında elmi-pedaqoji fəaliyyət məqsədilə müəllim vəzifəsində saxlanılmışdır. 1953-cü ildə aspiranturaya qəbul olunan gənc hüquqşünas M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə ezam edilmiş və üç il sonra həyatının elm və təhsil alma mərhələsinin bu dövrünü də başa vurmuşdur. Həmin illərin mövcud konyunkturasına görə, ciddi elmi fəaliyyətlə məşğul olacaq mütəxəssis bu yolu mütləq keçməli idi. M.Məlikovanın Lomonosov adına Moskva Dövlət Universitetində aspirantura pilləsini bitirməsi yalnız onun öz peşəkar karyerası üçün deyil, həm də bütün respublika adına böyük uğur, Azərbaycan elmi və təhsili üçün ölçüyəgəlməz nailiyyət idi. Çünki Məsumə xanım Moskvada ölkənin ən nüfuzlu elm və təhsil ocağında bütöv bir xalqı təmsil edirdi. O, ittifaq paytaxtında Azərbaycanın hüquq elminin carçısı olmaqla yanaşı, həm də bir gənc xanım olaraq azərbaycanlı qadının elmdəki obrazının təcəssümü idi...

M.Məlikovanın xalqının milli ruhuna, tarixi və mənəvi köklərinə bağlılığı təhsil aldığı illərdə olduğu kimi, sonrakı elmi fəaliyyətində də büruzə verir. Onun üzərində çalışdığı tədqiqat mövzularının böyük əksəriyyəti Azərbaycanda hüququn bir elm kimi təşəkkül tapması tarixinə, xalqımızın ictimai-siyasi həyatında əhəmiyyətinin miqyasına görə ölçüyəgəlməz çəkisi olan və gələcək müqəddəratımızda, bir xalq olaraq formalaşma prosesinə mütərəqqi təsir göstərmiş mütəfəkkirlərin dünyagörüşlərinin, hüquq və ədalətə baxışlarının öyrənilməsinə həsr olunmuşdur. Məsumə xanım müasir hüquq sahəsində araşdırmalar aparmaqla, elmi əsərlərin müəllifi olmaqla yanaşı, Azərbaycan xalqının hüquqi təsəvvürlərinə dair ilkin mənbə və işartılar qismində çıxış edən zəngin yaradıcılığını da unutmamışdır ki, bu da onun müəllifi olduğu elmi monoqrafiyalarında və əsərlərində əks olunmuşdur.

Görkəmli hüquqşünas alimin müəllifi olduğu elmi əsərlər, kitablar, monoqrafiya və dərs vəsaitlərinin adlarına baxmaq qənaətimizi təsdiqləmək üçün yetərlidir: "M.F.Axundovun ictimai-siyasi baxışları", "Nizami Gəncəvi və Azərbaycan maarifçiliyi", "XIX-XX əsrin əvvəllərində Azərbaycanda siyasi-hüquqi təlimlər tarixi", "Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi", "Kitabi-Dədə Qorqud"da ictimai-siyasi və hüquqi ideyalar" və sairə. Göründüyü kimi, xanım alimin elmi yaradıcılığında toxunduğu mövzular Azərbaycanda yalnız hüquq elmi deyil, eyni zamanda siyasi fikrin, ötən əsrin 50-60-cı illərindən etibarən Qərbdə artıq geniş şəkildə öyrənilməyə başlanmış politologiya və siyasi nəzəriyyənin inkişafı prosesinə güclü təkan hesab edilməlidir. Xüsusilə xalqımızın ictimai-siyasi fikir tarixinə əsaslı diqqətin ayrılması Məsumə xanımın elmi-pedaqoji karyerasının ilk illərini əhatə edən dövr üçün olduqca cəsur fədakarlıq tələb edən addım idi.

M.Məlikovanın elmi fəaliyyəti hüquqşünaslığın əsasən iki mühüm sahəsinə - ümumi dövlət və hüquq nəzəriyyəsinin və siyasi-hüquqi təlimlər tarixinin aktual problemlərinə həsr edilmişdir. O, Azərbaycanın milli hüquqi və siyasi təlimlər tarixinin banisi olmaqla yanaşı, həm də hüquq elmində yenilik sayılan bu məktəbin əsasını qoymuşdur. Bu, hüquqşünaslıqda tamamilə yeni bir istiqamətin təməli, bünövrəsi deməkdir. Professor M.Məlikovanın xalqımızın tarixində əvəzsiz yeri olan mütəfəkkirlərin, filosof və fikir adamlarının ideyalarını öyrənməsi bu görkəmli şəxsiyyətlərin Azərbaycan xalqının təmsilçiləri olaraq dünya ictimai-siyasi və hüquqi fikir tarixində haqlı və layiqli yerə malik olduqlarının nümayişidir. Bu amil şübhəsiz ki, vətənimiz Azərbaycanın müstəqillik dövründə hüquq, politologiya, ictimai-siyasi tarix sahələrində ərsəyə gəlmiş elmi araşdırmalar, əsər və dərsliklərin, habelə yeni nəsil hüquqşünasların və politoloqların formalaşması və yetişməsində misilsiz əhəmiyyətə malikdir.

Görkəmli alimin zəngin elmi-pedaqoji fəaliyyəti və peşəkar karyerasının ən mühüm özəlliyi məhsuldarlıqdır. O, hüquq cameəsində məhz bu keyfiyyətinə görə xüsusən seçilir və dərin hörmətə malikdir. Məsumə xanım 200-dən artıq elmi monoqrafiya, əsər və kitabın, dərslik və dərs vəsaitinin müəllifidir.

M.Məlikova keçmiş ittifaq miqyasında hüquq elmi sahəsində elə bir böyük hörmətə malik olmuşdur ki, ona verilən bu yüksək dəyər özünü mütəmadi olaraq Moskvada təşkil edilən tədbirlərə dəvət edilməsində göstərmişdir. Azərbaycanlı qadın alim ittifaq çaplı monoqrafiya və dərsliklərin hazırlanması üzrə Moskva alimlərinin kollektivinin daimi üzvlərindən olub. Alimin Azərbaycanda hüquq elminin inkişafı istiqamətindəki fəaliyyəti ilə yanaşı, keçmiş SSRİ-nin elmi dairələrində yüksək qiymətləndirilməsi özünü onun elmi araşdırmalarının təkcə Azərbaycan deyil, həmçinin rus dilində çap edilməsində də göstərir. M.Məlikova "История государства и права", "Международное право и сравнительное право" jurnallarının redaksiya heyətlərinin üzvü olmuşdur. Eyni zamanda onun ölkəmizdə "AMEA-nın Xəbərləri" jurnalının tarix və hüquq elmləri seriyasının, "Hüquqi dövlət və qanun", "Dövlət və hüquq", "Hüquq və gənclik" jurnallarının, AMEA-nın "M.F.Axundzadə ensiklopediyası"nın ərsəyə gəlməsində misilsiz xidmətləri var. O, 30 ildən artıqdır ki, Bakı Dövlət Universitetinin xəbərlərinin sosial-siyasi elmlər seriyasının redaktorudur.

M.Məlikova ölkəmizdə, keçmiş SSRİ-nin bir çox şəhərlərində və xarici ölkələrdə keçirilən beynəlxalq konfransların da fəal iştirakçısı olmuşdur. Belə ki, o, 1976-cı ildə Şotlandiya-İngiltərədə keçirilmiş Beynəlxalq Siyasi Elmlər Assosiasiyasının X konqresində Siyasi Elmlər Assosiasiyası İcraiyyə Komitəsinin üzvü kimi iştirak etmiş və "Zaman amili və Azərbaycanda milli dövlət quruculuğunun nailiyyətləri" mövzusunda məruzə ilə çıxış etmişdir. 1986-cı ildə ABŞ-də - Kanadada Amerika və sovet hüquqşünaslarının seminar müşavirəsində sovet hüquqşünaslarının assosiasiyasının xüsusi qrup iştirakçısı 1991-ci ildə Türkiyədə Azərbaycan Respublikasının Qadınlar Cəmiyyətinin nümayəndəsi kimi iştirak etmişdir.

Görkəmli alimin yalnız Azərbaycan deyil, həm də xarici ölkələr üçün yüksəkixtisaslı elmi kadrların hazırlanmasında xüsusi xidmətləri olmuşdur. Onun rəhbərliyi altında 30-dan artıq, o cümlədən Suriya, İordaniya, Fələstin, Vyetnam və digər ölkələr üçün çoxlu sayda hüquq üzrə fəlsəfə doktoru və hüquq üzrə elmlər doktoru dissertasiya işi müvəffəqiyyətlə müdafiə edilmişdir. Hazırda hüquq üzrə fəlsəfə doktoru və hüquq elmləri doktoru proqramı üzrə elmi rəhbərliyi davam edir.

Böyük hüquqşünas alim həyatı boyu özünü Azərbaycan cəmiyyətinin bir parçası olaraq qəbul etmiş, ölkəmizdə baş verən ictimai-siyasi proseslərlə yaxından maraqlanmış, ictimaiyyətin ayrılmaz hissəsi, xalqını və dövlətini sevən vətəndaş olaraq baş verən hər hansı ümummilli xarakterli hadisəyə öz münasibətini bildirmişdir. Məsumə xanım hələ sovet dönəminin son illərində, Azərbaycanda torpaqlarımızın qəsb edilməsi və xalqımızın zorla deportasiyasına yönəlmiş erməni separatçılığı meyilləri baş qaldıranda Moskvanın ən yüksək kürsülərindən tarixi saxtalaşdırma və Azərbaycan xalqına qarşı dözümsüzlük üzərində bərqərar olmuş erməni milliyyətçiliyi və bölücülüyünə qarşı öz haqq səsini, etirazını ucaltmışdır. O, Sov.İKP MK-nın üzvü kimi partiyanın XXVIII qurultayının tribunasından çıxış edərək ermənilərin Azərbaycana qarşı məkrli təcavüz niyyətlərini ifşa etmiş, keçmiş SSRİ-nin subyektlərinin ölkənin konstitusiyası ilə təsbit olunmuş bütövlüyü prinsipinə hörmət edilməsi tələbini irəli sürmüşdür.

M.Məlikova Azərbaycan Respublikası qanunvericiliyinin işlənib hazırlanmasında da fəal iştirak etmişdir. Belə ki, o, "Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında" 23 sentyabr 1989-cu il tarixli Azərbaycan SSR-in Konstitusiya Qanununun hazırlanmasında iştirakçılardan biri, Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi 1978-ci il Azərbaycan SSR Konstitusiyasının və 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının hazırlanması üzrə komissiyanın üzvü olmuş, eləcə də Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun layihələrinin müzakirələrində fəal iştirak etmişdir.

M.Məlikova professional elmi və pedaqoji fəaliyyəti illərində Sovet Siyasi Elmlər Assosiasiyası İcraiyyə Komitəsinin, SSRİ və Azərbaycan SSR Təhsil Nazirliklərinin hüquq elmləri üzrə tədris-metodiki şuralarının üzvü, Azərbaycan SSR Təhsil Nazirliyinin elmi-metodik şurasının elmi katibi, AAK-ın 1998-ci ilədək iqtisadi, fəlsəfə və hüquq elmləri üzrə Ekspert Komissiyasının sədri, AMEA-nın nəzdində Hüquq Elmləri üzrə Problem Şurasının sədri, AMEA-nın humanitar və ictimai elmlər bölməsinin bürosunun və AMEA-nın Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının hüquqşünaslıq bölməsinin, Respublika Prokurorluğu yanında Elmi-məsləhət Şurasının və Respublika Ali Məhkəməsinin analoji şurasının üzvü olmuş, BDU-nun nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya Şurasının üzvüdür. Görkəmli elm xadimi M.Məlikovanın Azərbaycan elmi qarşısındakı xidmətləri xalqımız və dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, dövlət orqanları və ictimai təşkilatlar tərəfindən çoxsaylı mükafata layiq görülmüşdür. 1969-cu ildə "Azərbaycan Respublikasının Əməkdar hüquqşünası" fəxri adı, 1976-cı ildə "Şərəf nişanı" ordeni, 2000-ci ildə "Şöhrət" ordeni, 2019-cu ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 2024-cü ildə "Heydər Əliyevin 100 illiyi yubiley medalı" ilə təltif edilmişdir. Məsumə xanımın zəngin fəxri adları və təltifləri sırasında Bakı Dövlət Universitetinin 75 illiyi münasibətilə "Xatirə medalı" (1994-cü il), Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Xatirə" medalı (2009-cu il), Təhsil Nazirliyinin "Fərqlənməyə görə" döş nişanı (2009-cu il), Təhsil Nazirliyinin "Bakı Dövlət Universitetinin 100 illiyi" yubiley medalını, habelə elm və dövlət orqanları tərəfindən layiq görülmüş çoxsaylı fəxri adlarını qeyd etmək olar. 2009-cu ildə Prezident İlham Əliyevin sərəncamı ilə M.Məlikovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

Məsuma Məlikova Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin parlaq uğurlarını yüksək dəyərləndirir. "Azərbaycan öz yüksəlişi ilə dünyanı təəccübləndirməyi bacardı. Müəllifi olduğu uğurlara diqqəti cəlb etdi və heyrət doğurdu. Ərazi bütövlüyümüz bərpa edildi, suverenliyimizə nail olduq. 44 günlük Vətən müharibəsindəki böyük qələbəmizdən sonra Azərbaycanın əsas arzusu məhz sülhə nail olmaqdır. Hər hansı iddiaları, aqressiv meyilləri kənara qoyub regionun inkişafı barədə düşünməkdir", - deyir M.Məlikova.

Milli hüquq elminin iftixarı olan böyük alim Məsumə Məlikova ömrünü Azərbaycan xalqının gələcəyinə həsr etmişdir. Onun hüquq kimi mürəkkəb sahədəki tədqiqatları və elmi yeniliklərinin tarixi əhəmiyyəti ondan ibarətdir ki, bu illər ərzində ərsəyə gəlmiş, dövlət orqanları, elmi müəssisələr və ali məktəblərdə şərəfli vəzifələrin icraçısı olmuş vətən övladları Məsumə xanımın zəngin fəaliyyətindən bəhrələnmişlər. Professor M.Məlikova hüquq elminin müasir tələblər və çağırışlar şəraitindəki inkişafına, gənc kadrların yetişməsinə, bütövlükdə ölkənin ictimai həyatına, demokratik quruculuq prosesinə əvəzsiz töhfələr vermişdir. Onun bu missiyasının kökündə insanlara dərin sevgi, həyat eşqi, nəciblik və xeyirxahlıq amalları durur.

***Alış QASIMOV,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, hüquq elmləri doktoru, professor***

COP29 Baku Azerbaijan

# COP29 və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində beynəlxalq elmi konfrans keçirilib






**Azərbaycan Respublikası Gənclər Fondunun qrant müsabiqəsi çərçivəsində "ELM" İctimai Birliyinin sədri Səbuhi Abdullayevin rəhbərliyi ilə "Yaşıl Şuşa-Yaşıl dünya gənc alimlərin elmi tədqiqatlarında" adlı konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, layihə sentyabrdan başlayaraq 3 ay müddətində davam edib.

Layihədə 70-dən çox alim və tədqiqatçının tezislərindən ibarət konfrans materialları çap edilib. Tezislərin arasında mühüm araşdırma tələb edən, eləcə də süni intellektə əsaslanan bir çox elmi iş yer alıb.

Tədbirdə həmçinin rənglərin, incəsənətin ekologiyada oynadığı rolla bağlı təqdimatlarda çıxışlar dinlənilib. Konfrans çərçivəsində 30-dan çox gənc tədqiqatçı Xankəndi və Şuşa şəhərlərinə səfər edib, Qarabağ Universitetini, Cıdır düzünü, İsa bulağını, Ağdam Cümə məscidini ziyarət ediblər.

Layihənin sonunda iştirakçılara rəsmi sertifikatlar təqdim edilib.

# İlaira KATASTİNİ: "Azərbaycanda insanlar enerji keçidinin əhəmiyyətini dərindən dərk edirlər"

**İtaliyanın "MAIRE" Fondu enerji keçidi ilə bağlı məlumatlılıq səviyyəsini müəyyən etmək üçün Azərbaycanda araşdırma aparıb. Keçirilən sorğularda iki min respondent iştirak edib. Fondun baş direktoru araşdırma ilə bağlı İlaira Katastini AZƏRTAC-ın suallarını cavablandırıb.**



*- Bakıda keçirilən COP29-da hansı məqsədlə iştirak edirsiniz?*

- Mən keçən il apardığımız araşdırma ilə bağlı COP29 çərçivəsində təqdimat keçirmək üçün Bakıdayam. Enerji keçidi ilə bağlı səriştə və bacarıqların yaradılmasının əhəmiyyəti və təcili olması barədə ölkələrin (onların sayı ümumilikdə on ikidir) məlumatlılıq səviyyəsini öyrənmək məqsədilə Azərbaycanda və Qazaxıstanda olmuşam. Keçən il biz on ölkə ilə bağlı araşdırma aparmağa başladıq. Bunlar İtaliya, Böyük Britaniya, ABŞ, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Hindistan, Türkiyə, Əlcəzair və Çili idi. Bu il isə Azərbaycanla və Qazaxıstanla bağlı araşdırma apardıq və çox maraqlı məqamlar üzə çıxdı.

*- Azərbaycanla bağlı araşdırmaların nəticələri barədə nə deyə bilərsiniz?*

- Araşdırmalar göstərdi ki, Azərbaycanda insanlar enerji keçidinin əhəmiyyətini dərindən dərk edirlər. Müsahibə götürdüyümüz respondentlərin yarıdan çoxu enerji keçidinin prioritet olduğuna inandıqlarını söyləyib.

*- Sizcə nə üçün İtaliya, Böyük Britaniya, ABŞ və Çin ilə müqayisədə Azərbaycanda və Qazaxıstanda daha çox insan enerji keçidini iqlim dəyişmələri ilə mübarizədə vacib hesab edir?*

- Biz bu araşdırmanın nəticəsi olaraq gördük ki, bu ölkələrdə yaşayan insanlar enerji keçidinin təkcə ekoloji faydaları deyil, iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması və atmosferə istixana qazı emissiyalarının azaldılması üçün enerji keçidinin mütləq olması, o cümlədən sosial faydaları barədə məlumatlıdırlar.

Məsələn, yeni iş yerlərinin yaradılması, neft-qaz sektorunda və qazıntı yanacaq sektorunda çalışan insanların ixtisasının artırılması bacarıq və səriştə ehtiyacını ödəmək üçün onların təcrübələrini genişləndirə bilər. Bunlar da öz növbəsində qazıntı yanacaqdan bərpaolunan enerjiyə, xətti iqtisadiyyatdan dairəvi iqtisadiyyata və klassik sənaye sahələrindən dayanıqlı sənaye sahələrinə keçid üçün tətbiq oluna bilər. Bu keçid tədricən olmalıdır və onun faydaları da tədricən üzə çıxacaq. Bu araşdırma həm də onu göstərdi ki, müsahibə götürdüyümüz ali təhsilli şəxslər, yəni ictimai fikir liderləri və qərar qəbul edən şəxslər bu faydalar barədə məlumatlıdırlar.

*- Araşdırmanızı digər ölkələrə də genişləndirməyi planlaşdırırsınızmı?*

- Bəli, "MAIRE" qrupunun təsis etdiyi "Fondazione MAIRE" Fondu tərəfindən hazırlanmış bu araşdırmanın növbəti illərdə daha da inkişaf etdirilməsinin zəruri olduğunu düşünürük. Bu araşdırmada ölkələrin enerji keçidini dərk etməsi və bu keçidin tələb etdiyi bacarıq və səriştələrin yaradılmasının əhəmiyyəti ilə bağlı məlumatlı olması barədə unikal qlobal perspektiv təqdim olunur.

Bu çərçivə COP29 və gələcək COP tədbirləri kimi konfranslarda strategiyaların formalaşdırılması üçün dəyərli ola bilər ki, bu da onu qlobal miqyasda enerji keçidi ilə bağlı siyasətlərinə yön vermək üçün vacib alətə çevirir.

*- Sizcə, enerji keçidi hər bir ölkədə mümkündürmü?*

- Biz qəti şəkildə inanırıq ki, bu, nəinki mümkün, həm də hər bir ölkə üçün vacibdir. Azərbaycanda və Qazaxıstanda aparılan builki araşdırmalar göstərdi ki, bu ölkələrdə enerji keçidi ənənəvi iqtisadiyyatla bərabər tədricən inkişaf etdirilə və onu daha dayanıqlı edə bilər.

Enerji keçidi yeni iş yerləri yarada, emissiyaları azalda və iqlim dəyişmələrinin təsirlərini yumşalda bilər. İnsanlar buna hazırdırlar - onlar dərk edirlər ki, bu, biznes imkanları, iş yerləri və rifah yaradır. Əsas odur ki, enerji keçidi günəş panelləri kimi bərpaolunan enerji mənbələri ilə məhdudlaşmır. Bura həmçinin sənaye prosesləri, məhsul dizaynı və iqtisadi modellərin yenidən nəzərdən keçirilməsi daxildir. Müxtəlif növ bacarıqlar və peşələr tələb olunur ki, hər bir ölkə, o cümlədən Azərbaycan bu mühüm səriştələrə töhfə verə bilər.

*- Sizcə, enerji keçidinin əsas komponentləri hansılardır?*

- Biz bunu COP29 çərçivəsində geniş şəkildə müzakirə etdik. Birinci komponent maliyyədir. İkincisi, siyasi iradədir. Üçüncüsü, enerji keçidi üçün texnologiyaların olmasıdır. "MAIRE" olaraq biz dünya üzrə sənayelərə emissiyaları azaltmağa imkan verən texnologiyalar portfelinin inkişafına fokuslanan xidmət göstəririk.

Ancaq çox vacib olan dördüncü komponent də var ki, bu da səriştə və bacarıqlardır. Bunsuz tələb olunan müddət ərzində iqlim məqsədlərimizə çatmaq üçün digər üç komponentdən səmərəli istifadə edilə bilməz.

*- "MAIRE" Fondu yeni mütəxəssislərə təlim keçirilməsi istiqamətində Azərbaycanla əməkdaşlıq edəcəkmi?*

- Əlbəttə, bəli. Biz artıq İtaliyada və Avropada etdiyimiz kimi, təlimçilər üçün təlimlər təşkil etmək və təhsil proqramlarını işləyib hazırlamaq üçün Azərbaycanla əməkdaşlıq etməkdə maraqlıyıq.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Hava əsasən yağmursuz olacaq



Noyabrın 23-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, gecəyə doğru bəzi şəhərətrafı ərazilərdə az çiskin olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 9-12° isti, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 763 mm civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 5-10° isti, gündüz 15-20° isti, dağlarda gecə 0-5° isti, gündüz 8-13° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında əsasən yağmursuz hava gözlənilir. Arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° isti, dağlıq ərazilərdə 1° şaxta, gündüz 15-20° isti təşkil edəcək.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüz qısamüddətli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 8-13° isti olacaq.

Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz olacaq, arabir duman gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° isti, dağlıq ərazilərdə 1° şaxta, gündüz 9-14° isti təşkil edəcək.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz və Naftalanda əsasən yağmursuz hava proqnozlaşdırılır. Arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 14-19° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında əsasən yağmursuz hava gözlənilir. Arabir duman olacaq, şərq küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 2-7° isti, gündüz 13-18° isti, dağlarda gecə 0-5° isti, gündüz 8-13° isti təşkil edəcək.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan və Neftçala rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin axşam bəzi şərq rayonlarında az çiskinli olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10° isti, gündüz 15-20° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi yerlərdə qısamüddətli çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-10° isti, gündüz 13-18° isti, dağlarda gecə 5-10° isti, gündüz 13-16° isti təşkil edəcək.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


***"İLOYAL" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN: 1506968971) məxsus möhür itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi uzun illər dəmiryol sahəsində məsul vəzifələrdə çalışmış Fəxri dəmiryolçu

**XEYRULLA İMAN OĞLU HÜMBƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Seyran Cavadov ailəsi ilə birlikdə Gülşən, Ziyafət və Hafiz Zeynalovlara əzizləri

**TƏRANƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Nizami Rayon Məhkəməsinin kollektivi məhkəmənin hakimi Qumru Əliyevaya əzizi

**TAHİR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

COP29 Baku Azerbaijan


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4219**
**Sifariş 2652**

**Qiyməti 60 qəpik**